Azərbaycan Respublikası
Təhsil Nazirliyi

Layihə Avropa İttifaqı
tərəfindən maliyyələşdirilir

TƏHSİL İNSTİTUTU
Azərbaycan Respublikasının Təhsil İnstitutu

İxtisasın adı: Məktəb Meneceri



# KEYFİYYƏT TƏMİNATI SİSTEMİNİN HƏYATA KEÇİRİLMƏSİ

Bakı 2020

Bu modul dərs vəsaiti Avropa İttifaqının texniki yardımı çərçivəsində Azərbaycan Respublikasının Təhsil Nazirliyini dəstəkləmək üçün “Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” (EuropeAid/138339/DH/SER/AZ) layihəsi tərəfindən hazırlanmışdır. Modulda ifadə olunan fikirlər və məlumatlara görə Avropa İttifaqı, Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Təhsil İnstitutu məsuliyyət daşımır.

Modul dərs vəsaiti müvafiq təhsil proqramları (kurikulumlar) üzrə bilik və bacarıqların verilməsi məqsədilə hazırlanmışdır və əlavə təhsildə müvafiq modulların tədrisi üçün tövsiyə edilir. Modul dərs vəsaitinin istifadəsi ödənişsizdir və kommersiya məqsədi ilə satışı qadağandır.

**Müəllif: FƏRİDƏ MƏŞİ qızı HÜSEYNOVA**
Azərbaycan Dövlət Pedaqoji Universitetin baş mütəxəssisi,
Pedagokia üzrə fəlsəfə doktoru

**Modul üzrə məsləhətçi: AYNUR ALLAHVERƏN qızı KƏRİMOVA**
“Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin İcrasına Dəstək” layihəsinin eksperti

© Bakı – 2020
Modulda ifadə olunan fikirlər müəllifə aiddir, istifadə olunmuş fotolar açıq mənbələrdən götürülmüşdür. Antiplagiat və digər tədqiqat etikasının tələblərinin təmin olunması modul müəlliflərinin məsuliyyətidir.

# MÜNDƏRİCAT


**ƏSAS ANLAYIŞLAR ... 7**

**GİRİŞ ... 13**

**MODULUN SPESİFİKASİYASI ... 14**

**TƏLİM NƏTİCƏSİ 1: MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK ... 16**

1.1. Daxili keyfiyyət təminatı sisteminin (monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma) yaradılma üsullarını izah edir ... 17

1.1.1. Məktəbdə keyfiyyət təminatı sisteminin (KTS) yaradılması ... 17

1.1.2. Təhsildə beynəlxalq qiymətləndirmənin rolu və əhəmiyyəti ... 17

1.1.3. Keyfiyyətin təminatı prinsipləri ... 18

1.1.4. Məktəbdə keyfiyyət təminatı mexanizmləri ... 20

1.1.5. Keyfiyyətin təminatı üzrə müasir nümunələr ... 21

Tələbələr üçün fəaliyyətlər ... 24

Qiymətləndirmə ... 25

1.2. Müəssisənin idarəolunması və tədrisin keyfiyyəti üzrə monitorinq prosesini təşkil edir ... 26

1.2.1. Müəssisədə monitorinq və qiymətləndirmə sistemi ... 26

1.2.2. Monitorinq və qiymətləndirmə prosesində məktəbin funksiyaları ... 27

1.2.3. Monitorinq və qiymətləndirmə prosesində məktəbin funksiyaları ... 27

1.2.4. Tədrisin monitorinqi – təlim fəaliyyətinin izlənilməsi ... 29

1.2.5. Tədris proqramının (kurikulum) monitorinqi ... 30

1.2.6. Müəllim fəaliyyətinin monitorinqi ... 30

Tələbələr üçün fəaliyyətlər ... 32

Qiymətləndirmə ... 33

1.3. Qiymətləndirmə prosesində təhsilverənlərin keyfiyyət göstəricilərini təqdim edir ... 34

1.3.1. Təhsilverənlərin (müəllimlərin) keyfiyyət təminatında rolu ... 34

Tələbələr üçün fəaliyyətlər ... 42

Qiymətləndirmə ... 43

1.4. Təhsilalanların təlim nəticələrinin monitorinq və qiymətləndirmə yollarını şərh edir ... 44

1.4.1. Təhsilalanların (şagirdlərin) təlim nəticələri ..... 44
1.4.2. Təlim nəticələrinin monitorinq və qiymətləndirilməsinin məqsədi ..... 44
1.4.3. Təlim nəticələrinin monitorinq və qiymətləndirilməsi istiqamətləri ..... 45
1.4.4. Qiymətləndirilmə mənbələri və irəliləyişlərin izlənilməsi yolları ..... 46
1.4.5. Təlim nəticələrinin qiymətləndirilməsi yolları ..... 47
Tələbələr üçün fəaliyyətlər ..... 49
Qiymətləndirmə ..... 51
1.5. Məktəb heyətinin fəaliyyətinin sistemli qiymətləndirməsini aparır ..... 52
1.5.1. Məktəb işçi heyətinin fəaliyyətləri ..... 52
1.5.2. Fəaliyyətlərin qiymətləndirmə göstəriciləri ..... 52
1.5.3. Məktəb işçi heyətinin qiymətləndirilməsinin həyata keçirilməsi ..... 54
1.5.4. Fəaliyyətin qiymətləndirilmə yolları ..... 55
1.5.5. Fəaliyyətin qiymətləndirilməsi sahələri ..... 56
1.5.6. Fəaliyyətin qiymətləndirilmə metodları ..... 57
1.5.7. Qiymətləndirməni həyata keçirən tərəflər ..... 57
Tələbələr üçün fəaliyyətlər ..... 58
Qiymətləndirmə ..... 59
**TƏLİM NƏTİCƏSİ 2: ÖZÜNÜTƏHLİL PROSESİNİ HƏYATA KEÇİRMƏK ..... 60**
2.1. Müəssisənin özünütəhlil prosesi və hesabatlılığın həyata keçirilməsi yollarını izah edir ..... 61
2.1.1. Məktəb özünütəhlil prosesinin mahiyyəti ..... 61
2.1.2. Məktəbdə özünütəhlil prosesi üzrə qaydalar ..... 61
2.1.3. Özünütəhlil prosesinin təşkili və məlumat mənbələrinin seçilməsi ..... 62
2.1.4. Məktəbdə özünütəhlil prosesinin mərhələləri ..... 63
2.1.5. Məktəbdə özünütəhlil prosesi üzrə rollar və vəzifələr ..... 65
Tələbələr üçün fəaliyyətlər ..... 67
Qiymətləndirmə ..... 69
2.2. Özünütəhlil prosesinin nəticələrinə uyğun hesabatlılığın həyata keçirilməsi yollarını izah edir ..... 70
2.2.1. Təhsil müəssisəsində hesabatlılığın təmin olunması ..... 70
2.2.2. Məlumatların idarəolunma sistemi (MİS) ..... 71
2.2.3. Məlumatların toplanma mənbələri ..... 72

Tələbələr üçün fəaliyyətlər ... 76
Qiymətləndirmə ... 77
2.3. Müəssisənin özünütəhlil nəticələri üzrə dövri hesabat hazırlayır ... 79
2.3.1. Dövri hesabatın hazırlanmasının məqsədləri ... 79
2.3.2. Məktəbdə dövri hesabatın hazırlanma strukturu ... 79
2.3.3. Dövri hesabatın hazırlanması bölmələri ... 80
Tələbələr üçün fəaliyyətlər ... 85
Qiymətləndirmə ... 87
**CAVABLAR ... 88**
**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ... 90**

## ƏSAS ANLAYIŞLAR

**Analitik rubrik –** şagirdlərin inkişaf səviyyələrini meyarlar, təsviri xarakter daşıyan nailiyyət səviyyələri üzrə qiymətləndirilməsində istifadə olunan sütun və ya cədvəl nümunəsi.

**Aktiv təcrübə –** nəticələrini görmək üçün real həyatda tətbiq edilən eksperiment.

**Akselerasiya –** (latın dilində "akselerasio" sürətlənmə deməkdir) – uşaq və yeniyetmə yaşında fiziki, həm də eyni zamanda psixi inkişafın sürətlənməsi.

**Autizm –** üç yaşından əvvəl başlayan və ömür boyu sürən, ictimai qarşılıqlı təsirə və ünsiyyətə zərər verən, məhdud və təkrarlanan davranışlara gətirib çıxaran beyinin inkişafına maneə törədən xəstəlik.

**Bədən-kinestetik intellekti –** şəxsin öz bədən hərəkətlərini və əşyaları məharətlə idarə etmək qabiliyyəti.

**Cinsi zorakılıq –** cinsi istismar - insan hüquqlarının daimi və çox ağır pozuntuları

**Çevik təlim** (Flipped Learning) – "təkrarlanan öyrənmə" metodu kimi elektron texnologiyaların vasitəsilə sinifdənkənar təlimin sinifdə tətbiq edilməsi.

**Daxili mexanizmlər –** məktəbdaxili şəraitdə aparılan özünüqiymətləndirmə.

**Dəstəkləyən intizam –** təhsilalanların əvvəlki vəziyyətlərinə qayıtmalarına kömək etməklə özünə nəzarət etmələri üçün görülən tədbirlər.

**Deselerasiya –** nitqin inkişafının azalması.

**Diaqnostik qiymətləndirmə –** ilkin bilik və bacarıqları müəyyən dərəcədə qiymətləndirilməsi.

**Diferensiasiya, diferensial təlim –** fərqli mədəniyyətlərin öyrənilməsi; müxtəliflik.

**Disleksiya –** beyin qabığının zədələnməsi nəticəsində oxumaq (qiraət) qabiliyyətinin itməsi.

**Distant təlim –** tədris prosesinin elektron, telekommunikasiya, proqram-texniki vasitələr əsasında təşkil olunduğu məsafədən öyrənmə.

**E-Öyrənmə –** elektron təlim.

**Emosional bilik –** affektiv, ünsiyyət, (izah etmək, təsvir etmək, şərh etmək, reaksiya vermə) xarakterli bilik.

**Empatiya –** özünü digərlərinin yerinə qoyma.

**Ekzistensial intellekt –** insan varlığı barədə dərin suallar vermək qabiliyyəti.

**Elektron bloq –** rəqəmsal vasitə kimi hər şagirdin şəxsi elektron səhifə yaratması.

**e-Tvinninq –** elektron cütləşmə, qoşalaşma.

**Əks əlaqə –** qarşı tərəfə rəyin verilməsi (feedback).

**Fərddaxili intellekt –** öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlaması və onları aydın şəkildə hiss etmək qabiliyyəti.

**Fiziki mühiti –** bina təməli və quruluşu, xarici divarları, damı, pəncərələri, yaşı, istismarı, məktəb.

**Fiziki zorakılıq –** bədəni təmas yolu ilə başqa bir insana və ya heyvana xəsarət və ya travma verən hər hansı bir qəsdən hərəkət.

**Formativ qiymətləndirmə –** müntəzəm, mənimsəmənin izlənilməsi, korrektə edilməsi.

**Hesabatlılıq** prinsipi – məktəblərdə təhsilalanların, təhsilverənlərin və idarəçilərin nailiyyətləri, hesabat verməsi prosesi.

**Hi-Q Akademiyası –** zəngin, çoxdilli, məktəbin məzmunlu idarəetmə sistemi.

**Holistik rubrik –** şagirdin işi ilə bağlı ümumi təəssürat yaradan sürətli qiymətləndirmə.

**Xarici mexanizmlər –** milli və ya regional səviyyədə təşkil olunan məktəb qiymətləndirmələri.

**İnteraktiv lövhə** (ağıllı lövhə) – hər hansı bir texnoloji sinif üçün tamamilə zəruri olan müasir bir rəqəmsal öyrənmə cihazı.

**İnfrastruktur** – (lat. *infra* — *aşağı*, *alt* və lat. *structura* — *tikinti*, *məkan*) — məktəbin fəaliyyəti üçün bir-biri ilə bağlı olan struktur və obyektlərin məcmusu.

**İnklüzivlik –** "include" sözündən götürülüb, bütün fərqli qabiliyyətlərin, xüsusi istedadı və ehtiyacı olan öyrənənlərin, zehni və fiziki qüsurlu fərqlərin təhsilə daxil olması.

**İnteqrasiya –** vahid aləmin tamamlanmış bütov qəbul edilməsi.

**Koqnitiv bilik –** dərketmə və xarici informasiyaları mənimsəmə qabiliyyəti.

**Konkret təcrübə –** yeni bir təcrübə ilə qarşılaşan və mövcud təcrübənin tətbiqi və şərhi.

**Korreksiyaedici intizam –** şagirdlərin sinif və ya məktəb qaydalarına əməl etmədikdə görülən tədbirlər.

**Kvalifikasiya –** təkmilləşmə, irəliləyiş, inkişaf.

**Kurikulum –** tədris standartları və proqramı.

**Qiymətləndirmə standartı –** təhsilin keyfiyyətini qiymətləndirmək üçün məzmun standartlarının müxtəlif səviyyələrdə ölçülməsi.

**Qiymətləndirmə nəticələri –** qiymətləndirmə məlumatlarının toplanması və emalı.

**Loqopediya –** nitq inkişafı qüsurları haqqında pedaqoji elm; nitq inkişafı qüsurlarının aradan qaldırılması və qarşısını almaq üçün xüsusi təlim-tərbiyə sistemi.

**Lokalaşma –** yerli səviyyədə tanınma.

**Maddi-texniki baza –** akademik və qeyri-akademik məqsədlər üçün istifadə olunan bütün növ avadanlıqlar.

**Mentorluq –** təcrübəli, bilikli bir işçi və təcrübəsiz və ya yeni bir işçi arasında qurulan rəsmi və ya qeyri-rəsmi bir əlaqə.

**Metaetika –** etikanın əsas təbiətini və əxlaqi düşüncəni müzakirə edən bir qolu.

**Məkan-vizual intellekti –** şəkil və rəsmlər ilə düşünmək, dəqiq və abstrakt şəkildə vizuallaşdırmaq bacarığı.

**Məktəbdaxili qiymətləndirmə –** təlim nəticələri üzrə şagird nailiyyətlərinin diaqnostik, formativ və summativ yollarla qiymətləndirilməsi.

**Məktəb şəbəkəsi –** elektron şəbəkələr vasitəsilə məktəbin digər təhsil müəssisələri ilə müxtəlif səviyyələrdə əlaqəsi.

**Məktəbin maliyyə vəsaiti –** Məktəbin təhsil siyasəti məqsədlərinə çatmaqda dəstəyin təmin olunması.

**Məktəb mühasibatlığı –** maliyyənin plan əsasında düzgün paylanması, istifadəsi və xərclənməsi işini həyata keçirən idarəedici bölmə.

**Milli Kvalifikasiya Çərçivəsi –** milli kvalifikasiyaların sistemləşdirilməsi üçün bir vasitə olmaqla bütün təhsilalanlar, təhsilverənlər və işəgötürənlər üçün hazırlanmışdır və milli kvalifikasiyaların beynəlxalq kvalifikasiyalarla uyğunluğu.

**Multimedia və Audio-Visual –** video filmlər, televiziya, radio, smartfonlar, ipadlar və s. kimi vasitələr.

**Musiqi-ritmli intellekt –** ritm, keyfiyyətli səs və keyfiyyətli ton yarada bilmək və musiqini dəyərləndirə bilmək qabiliyyəti.

**Nailiyyətlərin monitorinqi –** əldə olunan nailiyyətlərin yoxlanılması, nəzərdən keçirilməsi.

**Nəzəri konseptualizasiya –** yeni nəzəri fikir və anlayışların meydana gəlməsi və dəyişdirilməsi.

**Naturalist intellekt –** bitkilər, heyvanlar və təbiətdəki digər obyektləri müəyyənləşdirmək və kateqoriyalara bölə bilmək qabiliyyəti.

**Normativ etika –** əxlaqi cəhətdən, necə davranmaq lazım olduğunu düşünərkən ortaya çıxan suallar toplusu.

**Pedofiliya –** uşaqların cinsi zorakılıq və cinsi istismarı.

**Portfolio qiymətləndirmə –** öyrənənlərin müəllimləri ilə birlikdə hazırladıqları bir qiymətləndirmə forması.

**Praktiki qabiliyyət –** nəzəriyyəni praktikaya və mücərrəd fikirləri praktik nailiyyətlərə çevirmək qabiliyyəti.

**Predispozisiya –** bilik, münasibət və inamın yaranmasını təbliğ edən proqramın olması.

**Profilaktik intizam –** təhsilalanların xoşagəlməz rəftarının qarşısını almaq üçün görülən tədbirlər.

**Psixoloji zorakılıq –** qarşılıqlı anlaşılmazlıq, sosial mənəvi və təzyiqlər, ümidsizlik, qəsdən yüklənmə və hər şeydən kənarlaşma.

**Psixomotor inkişaf –** duyğu orqanları zehnin və matorikanın birgə inkişafı.

**Reabilitasiya –** insanın psixi və fiziki zədələnmələrindən sonra qarşılaşdığı çətinliklərin aradan qaldırılmasına yönəlmiş tədbirlər.

**Reflektiv müşahidə –** xüsusi əhəmiyyət kəsb edən yeni təcrübənin nümayişi.

**Riyazi-məntiqi intellekti –** konseptual və abstrakt düşünmə qabiliyyəti; məntiqi və ədədi nümunələri tanımaq və seçmək bacarığı.

**Rubrik –** öyrənənlərin hazırladığı cavabların keyfiyyətini qiymətləndirmək üçün istifadə olunan keyfiyyətə dair təsviri gözləntiləri.

**Şəxsiyyətyönümlü təhsil –** fərdin şəxsiyyəti, xarakteri, düşüncəsi, məkanı, bacarığı, vərdişləri ilə bağlı təhsil.

**Şəxslərarası intellekt –** digərlərinin əhval-ruhiyyəsi, motivasiyası və istəklərini müəyyənləşdirə bilmək və ona uyğun şəkildə cavab vermək qabiliyyəti.

**Sinif podkastinqi –** "iPod" sözündəki "pod" (kiçik kapsul) və "broadcast" (yayım) sözlərinin birləşməsindən ibarət olub, hər cür səslərin dinlənilməsidir (Spotify, iTunes).

**Sintetik qabiliyyət –** yaradıcılıq kimi yeni və maraqlı fikirlər yaratmaq qabiliyyətidir.

**Sosial-mədəni nəzəriyyə –** şagirdlərin mədəni dünyagörüşü, media vasitələri ilə bağlı müsbət təcrübələrinin bölüşməsi.

**Summativ qiymətləndirmə –** yekun nəticələrin və nailiyyətlərin qiymətləndirilməsi.

**Oriqami –** kvadratşəkilli kağız parçalarını kəsmədən və yapışdırıcı maddə istifadə etmədən, sadəcə qatlayaraq düzəldilən müxtəlif fiqurlar.

**Özünütəhlil –** tədris prosesini sabitləşdirmək və ya yaxşılaşdırmaq üçün peşəkar fəaliyyətin və nəticələrin sistematik olaraq izlənilməsi, təhlil edilməsi və qiymətləndirməsi proseduru.

**Özünütərbiyə –** bir inkişaf növü kimi, şəxsiyyətin inkişafının müəyyən səviyyəsi, onun özünüdərki, davranışı.

**Təlim taksonomiyası –** təlim məqsədlərinin idraki fəaliyyət üzrə iyerarxik və ya ardıcıl təsnifatı.

**Təlim standartı –** bilik və bacarıqların səviyyəsinə qoyulan dövlət tələbi.

**Təlim nəticələri –** proqramı müvəffəqiyyətlə başa vurduqdan sonra əldə etməli olduqları bilik, bacarıq və yanaşmaları izah edən ifadələr.

**Tətbiqi etika –** tətbiqi etika, etik nəzəriyyəni real vəziyyətlərdə tətbiq edən nizam-intizam.

**Verbal-linqvistik intellekt –** yaxşı inkişaf etmiş verbal qabiliyyət və sözlərdə səslərə, mənaya və ritmə həssaslıq.

**Verbal zorakılıq –** qəzəb və düşmənçilik, şəxsin özünüdərki və mənfi duyğulara səbəb olmaq üçün dağıdıcı ünsiyyət forması.

**Uçot qeydiyyat –** məktəb avadanlıqlarının planlaşdırılması.

**Uçot qeydiyyat –** məktəb avadanlıqlarının planlaşdırılması.

**AUPK –** Ailə və Uşaq Problemləri Komitəsi.

**BMT –** Birləşmiş Millətlər Təşkilatı.

**CUHB –** Cenevrə Uşaq Hüquqları Bəyannaməsi.

**DMH –** Dövrü Məktəb Hesabatı.

**ƏMS –** Əmlak Mülkiyyət Sənədi.

**FT –** Fərdi təhsil.

**FTP –** Fərdi Təhsil Planı.

**İB** (International Baccalaureate) – Beynəlxalq bakalavriat.

**İA –** İdarəetmə Akademiyası.

**İKT –** İnformasiya, Kommunikasiya texnologiyaları.

**KÜİM –** Keyfiyyətin Ümumi İdarəolunması Modeli.

**KTS –** Keyfiyyət Təminatı Sistemi.

**QM –** Qanunauyğunluq Modeli – bilik cəmiyyətinin reallıqla uyğunlaşması.

**LƏT –** Layihə Əsaslı Təlim (PBL - Project based learning) - müxtəlif elektron resursların vasitəsilə istənilən problemin araşdırılması.

**MDİP –** Məktəb Davranış İnkişaf Planı.

**MFP –** Məktəb Fəaliyyət Planı.

**MQ –** Monitorinq və Qiymətləndirmə.

**MİS –** Məktəbin İdarəolunması Sistemi.

**MM –** Məktəb Menecmenti, idarəolunması.

**MP –** Müəllim Peşəkarlığı – müəllimin lazımi biliyə, bacarıqlara, müasir səriştələrə malik olması.

**MYYK –** Müəyyənləşdirmə, Yerləşdirmə və Yoxlama Komitəsi.

**MMV –** Məktəb Maliyyə Vəsaiti.

**“OLAP” –** Metodu (On-layn Analitik Proses).

**PƏT –** Problemli Əsaslı Təhsil (PBL).

**PIAAC –** Yaşlılar Arasında Səriştələrin Beynəlxalq Qiymətləndirilməsi (Programme for the International Assessment of Adult Competencies,).

**PİRLS** (Progress in International Reading Literacy Study, PIRLS) **– OQKQS** (Oxuma və Qavrama Keyfiyyətinin Qiymətləndirilməsi sorğusu).

**PİSA –** Beynəlxalq Şagird Qiymətləndirməsi Proqramı (Program for International Student Assessment).

**PESTLE –** Siyasi-İqtisadi, Hüquqi, Etik, Texnoloji, Sosial-Demoqrafik Və Ətraf Mühit.

**PT –** Profilaktik təmir.

**SMART –** Qiymətləndirmə meyarı (specific, measurable, achievable, realistic and time-bounded): spesifik, ölçüləbilən, əldə edilən, real, və vaxta əsaslanan.

**SP –** Starateji Planlaşdırma.

**SİP -** Strateji İnkişaf Planı.

**STEM –** (Science, Technolgy, Engineering, Math) - Elm, texnologiya, Mühəndislik, Riyaziyyat

**TƏT –** Tapşırıq əsaslı təlim (Task based learning).

**TƏT –** Tədqiqat əsaslı təlim (RBL - Research based learning) (təhlil, sintez və qiymətləndirmə kimi fəaliyyətlərlə əlaqəli, öyrənənlərə və müəllimlərə biliklərin mənimsənilməsi).

**TIX –** Təhsil İnfrastruktur Xidməti.

**TİİMS –** Riyaziyyat və Təbiət Fənləri üzrə Tədqiqat (Trends in Mathematics and Science Study).

**TTM –** Təşkilati Təlim Modeli - təlim mühitinin dəyişməsini, tədrisin keyfiyyətinin davamlı inkişafı.

**TSP –** Təhsil Sağlamlığı Proqramı.

**UHK –** Uşaq Hüquqları Konvensiyası.

**Vİİ –** Veb İcma İdarəçiliyi.

**VMİ –** Valideyn-Məktəb İcması.

**ZƏTX –** Zaman Əsaslı Texniki Xidmət.

# GİRİŞ

**Hörmətli oxucu!**

Ümumi təhsil müəssisələrində keyfiyyət təminatı vacib prioritet sahələrdən biridir. Məktəblərdə keyfiyyət təminatı prinsipləri, monitorinq və qiymətləndirmə prosesinin həyata keçirilməsi, təhsilverənlərin və təhsilalanların, məktəb işçi heyətinin qiymətləndirməsinin bütün istiqamətləri müasir strategiyalarla izah edilir.

Bu modul 2 təlim nəticəsini əhatə edir və hər bir təlim nəticəsi üzrə qiymətləndirmə meyarlarının məzmunu açıqlanmış, verilən məzmunun möhkəmləndirilməsi üçün "Tələbələr üçün fəaliyyətlər" və təhsilalanın məzmunu hansı səviyyədə qavradığını qiymətləndirmək üçün "Qiymətləndirmə" bölməsi verilmişdir.

Birinci təlim nəticəsi daxili keyfiyyət təminatı sisteminin (monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma) yaradılma üsullarını, müəssisənin idarəolunması və tədrisin keyfiyyəti üzrə monitorinq və qiymətləndirmə prosesinin təşkili, təhsilverənlərin keyfiyyət göstəricilərinin qiymətləndirilməsi, təhsilalanların təlim nəticələrinin monitorinqi, qiymətləndirilməsi və məktəb heyətinin sistemli qiymətləndirilməsindən bəhs edir.

İkinci təlim nəticəsində müəssisədə özünütəhlil prosesi və mərhələlərinin təşkili, özünütəhlil nəticələri üzrə hesabatlılığın təmin olunması, idarəetmə və pedaqoji-müəllim heyəti arasında özünütəhlil prosesinin həyata keçirilməsi və özünütəhlil nəticələri üzrə dövri hesabatın hazırlanması yolları açıqlanır.

Əziz təhsilalanlar! Unutmayın ki, gələcək fəaliyyətinizin yüksək səviyyədə qurulmasının əsası, sizə təqdim edilən materialların həm nəzəri, həm də praktiki mənimsənilməsindən çox asılıdır.

# MODULUN SPESİFİKASİYASI

| | |
|---|---|
| **Modulun adı:** | Keyfiyyət təminatı sisteminin həyata keçirilməsi |
| **Modulun kodu:** | SS-2020-04 |
| **Modulun ümumi məqsədi:** | *Təhsilalan bu modulu uğurla tamamladıqdan sonra monitorinq, qiymətləndirmə və özünütəhlil prosesini bilib və tətbiq etməyi bacaracaq.* |
| **Təlim (öyrənmə) nəticələri** | **Qiymətləndirmə meyarları** |
| 1. Monitorinq və qiymətləndirmə prosesini həyata keçirmək | ➢ Daxili keyfiyyət təminatı sisteminin (monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma) yaradılma üsullarını izah edir;<br>➢ Müəssisənin idarəolunması və tədrisin keyfiyyəti üzrə monitorinq prosesini təşkil edir;<br>➢ Qiymətləndirmə prosesində təhsilverənlərin keyfiyyət göstəricilərini təqdim edir;<br>➢ Təhsilalanların təlim nəticələrinin monitorinq və qiymətləndirmə yollarını şərh edir;<br>➢ Məktəb həyətinin fəaliyyətinin sistemli qiymətləndirməsini aparır. |
| 2. Özünütəhlil prosesini həyata keçirmək | ➢ Müəssisənin özünütəhlil prosesi və hesabatlılığın həyata keçirilmə yollarını izah edir;<br>➢ Məktəbin özünütəhlil prosesinin mərhələlərini təsvir edir;<br>➢ Daxili qiymətləndirmə nəticələri üzrə dövri hesabat hazırlayır. |

# TƏLİM NƏTİCƏSİ 1: MONİTORİNQ VƏ QİYMƏTLƏNDİRMƏ PROSESİNİ HƏYATA KEÇİRMƏK

## 1.1. Daxili keyfiyyət təminatı sisteminin (monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma) yaradılma üsullarını izah edir

### 1.1.1. Məktəbdə keyfiyyət təminatı sisteminin (KTS) yaradılması

Müasir məktəbin funksiyaları təhsildə yeni paradiqmaların dəyişikliyinə tabe olan intellekt, qloballaşma, lokallaşma və fərdiləşdirmə kimi keyfiyyət göstəricilərini reallaşdırmağı tələb edir. Bu göstəricilərin əldə olunmasını həyata keçirən məktəblərin idarəetmə sistemi daxili keyfiyyətin təmin olunmasına, izlənilməsinə, davamlı inkişafına və tədris prosesinin dəyişikliyinə zəmanət verir. Keyfiyyət təminatı məktəbləri, şagirdlərin və cəmiyyətin dəyişən ehtiyaclarına uyğunlaşdırır, daha müasir və çevik dəyişə bilən bir sistemin yaradılmasına istiqamətləndirir.

Bu baxımdan, təhsilin keyfiyyəti və səmərəliliyinin yüksəldilməsi üzrə fəaliyyətin təşkili əhəmiyyət kəsb edir. Keyfiyyətli təhsil hər bir şagirdin sosial, emosional, əqli, fiziki və idraki inkişafına yönəldilən bir təhsildir. Bu baxımdan, təhsildə keyfiyyət təminatı *monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma* təhsilin səmərəli idarəolunmasının əsas tələblərindən birinə çevrilir. Keyfiyyət təminatı, təhsil proqramlarının və proseslərin keyfiyyətini, və səmərəliliyini qorumaq və yaxşılaşdırmaq üçün hər bir sahənin sistematik şəkildə nəzərdən keçirilməsini əhatə edir (Şəkil 1.1).



**Şəkil 1.1. Məktəbdə keyfiyyət təminatı**

Məktəblərdə KTS-nin yaradılmasının məqsədlərinə aşağıdakılar daxildir:

- Tədris prosesini təkmilləşdirmək məqsədi ilə sistematik izləmə mexanizmlərinin tətbiqi;
- Təhsil proqramlarının (kurikulumların) tətbiqinin və tədris prosesinin keyfiyyətini prosesin səmərəlilik və ədalətlilik prinsiplərinə uyğunluğunu təmin etmək;
- Keyfiyyət təminatı mexanizmlərini (alətlər, proseslər və iştirakçılar) tətbiq etmək;
- Fərqli kontekstlərdə yanaşmaların eksperimental sınaqdan keçməsini dəstəkləmək;
- Məktəb rəhbərliyi və işçi heyət arasında rəy və qərarları qəbul etmək;
- Təhsilalanların nəticələrinin daha da yüksəldilməsini təmin etmək;
- Müəllim fəaliyyəti, şagird nəticələrinə və sübutlara əsaslanan qərarlar qəbul etmək.

### 1.1.2. Təhsildə beynəlxalq qiymətləndirmənin rolu və əhəmiyyəti

Milli təhsil sistemlərinin keyfiyyətinin dəyərləndirilməsi və digər ölkələrin təhsil nailiyyətləri ilə müqayisə edilməsi üçün XX əsrin 60-cı illərindən etibarən müxtəlif beynəlxalq tədqiqat metodları işlənib hazırlanmışdır. Bu metodlar sırasında ən çox istinad edilən tədqiqatlara aşağıdakılar daxildir:

- (PISA - Program for International Student Assessment) - Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirmə proqramı müxtəlif ölkələrin şagirdlərinin oxu, riyaziyyat və təbiət elmləri üzrə bacarıqları, eyni zamanda müxtəlif tipli problemləri həlletmə qabiliyyətlərinin qiymətləndirilməsi məqsədi ilə aparılır.
- (PIRLS - Progress in International Reading Literacy Study) - Beynəlxalq Oxu Savadlılığı Tədqiqatında irəliləyişlər, oxu və anlamanın keyfiyyətini tədqiq edən beynəlxalq qiymətləndirmə proqramıdır.
- (İEA - International Education Association) - Şagirdlərin Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən hazırlanır və həyata keçirilir (Şəkil 1.2).
- (TIMSS - Trends in International Mathematics and Science Study) - Beynəlxalq Riyaziyyat və Elmi Tədqiqatlarda tendensiyalar üzrə beynəlxalq qiymətləndirmə proqramıdır. 1995-ci ildən fəaliyyətə başlayan proqram dörd ildən bir IV və VIII sinif şagirdləri arasında aparılır.




**Şəkil 1.2. Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya**

Şagirdləri kurikuluma görə qiymətləndirən TIMSS və PIRLS beynəlxalq qiymətləndirmə Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsinin Beynəlxalq Assosiasiyası (İEA- Beynəlxalq Riyaziyyat və Elm Tədqiqatında (TIMSS) dünyadakı şagirdlərin riyaziyyat və elm biliklərinin bir sıra beynəlxalq qiymətləndirməsidir. TIMSS və PIRLS proqramları həmçinin məktəb rəhbərləri, müəllimlər və şagirdlər arasında sorğuların keçirilməsi ilə həyata keçirilir. Bu qiymətləndirmə sorğu nəticələrinə əsasən beynəlxalq səviyyədə ölkənin reytinqini müəyyən edir.

### 1.1.3. Keyfiyyətin təminatı prinsipləri

Məktəbin idarəolunmasında keyfiyyətin təminatı ilk növbədə idarəetmənin keyfiyyət standartlarına uyğunluğu və icrası üçün cavabdehliyini təmin edir. Məktəbdə keyfiyyətin təminatı müəyyən prinsiplərə əsaslanaraq təmin edilir. Bu prinsiplər onun şəffaf və məsuliyyətli idarə olunmasına zəmanət verir (Şəkil 1.3).



**Şəkil 1.3. Keyfiyyət təminatı mexanizmlərinin hazırlanması**

1. Keyfiyyət təminatı prinsiplərinin yeni mexanizmlərə uyğunluğu:
    - təhsilin səmərəliliyi və keyfiyyətinin yüksəlməsində olan bütün maraqlı tərəflərin tələb və gözləntilərini ödəyir;
    - müxtəlif mexanizmlər arasında balans və uyğunluq əldə etməyə çalışır;
    - keyfiyyətə dair yanaşmaları, fəaliyyətləri və yeni metodları həyata keçirir;
    - tədris prosesinin idarə olunmasında məktəb rəhbərliyi ilə pedaqoji heyətin planlı fəaliyyətinin səmərəliliyinə xidmət edir;
    - fərdi şagird nəticələrini izləmə mexanizmlərini təqdim edir və s..
2. Peşəkar təlim icmalarının yaradılması:
    - Keyfiyyət təminatı siyasəti bütün şagirdlər üçün ən yaxşı təlim imkanlarını təmin edir;
    - Məktəbin inkişafı üçün keyfiyyət təminatı məlumatlarından ən yaxşı şəkildə istifadə edir;
    - Məktəbdə peşəkar təlim icmasının davamlı inkişafını və təhsilverənlərin peşəkar bacarıqlarının yüksəldilməsini təmin edir.
3. Etimad və birgə hesabatlılıq:
    - Daxili və xarici qiymətləndiriciləri təyin edir;
    - Məktəbin inkişafının davamlılığının təmin olunması məqsədi ilə etimad və peşə etikası qaydalarına əməl olunmaqla qiymətləndiricilərin səmərəli qiymətləndirməsini həyata keçirir;
    - Keyfiyyət təminatı üzrə bütün yanaşmalar etimad və peşə etikası qaydalarının prinsiplərini əhatə edir;
    - Nəticələrin doğruluğunun düzgün tarazlığını təmin edir.
4. Məktəblərdə innovasiyaların dəstəklənməsi:
    - Məktəbin idarə olunmasında və tədris prosesinin təşkilində məktəb rəhbərliyi və pedaqoji heyətin çevikliyini təmin edir;
    - İnnovasiyalar inkişaf prosesinə maneə olacaq risklərin aradan qaldırılmasına şərait yaradır;
    - Şagirdlərin yeni dövrün tələblərinə uyğun bilik və bacarıqlarının əldə edilməsinə şərait yaradır;
    - Tədris prosesində bilik cəmiyyətin tələblərinə uyğun təşkilini təmin edir;
    - İnnovasiyaların təlimə təsirini qeyd edir (Şəkil 1.4).



**Şəkil 1.4. Məktəbdə innovasiyaların tətbiqi**

5. Qarşılıqlı anlaşma və dialoqun yaradılması:
   - Keyfiyyətin təminatına aid olan yanaşmalar ortaq inkişafa dəstək olur;
   - Təhsildə daxili və xarici tərəfdaşların rolunu qiymətləndirir;
   - Məktəbin inkişafını dəstəkləyir;
   - Maraqlı tərəflər üçün keyfiyyət təminatını əlçatan edir.
6. Şəbəkələrin yaradılması:
   - Ətraf məktəblər, yerli və daha geniş icmalarla şəbəkələr yaradır və ya şəbəkələrdə iştirak edir;
   - Tədrisin təşkili prosesində səmərəliliyin artırılması məqsədilə kollektiv müzakirə platformasının təşkilinə dəstək olur;
   - Sosial və intellektual sərmayə formalaşdırır;
   - Məktəbdə keyfiyyət sistemləri arasında sinerjilərin inkişafına səbəb olur.
7. Balanslaşdırılmış fərqli məlumatlar:
   - Həm kəmiyyət, həm də keyfiyyət üzrə müxtəlif məlumatları toplayır;
   - Məktəbin inkişafı və şagirdlərin nailiyyətləri haqqında balanslı məlumat dövriyyəsini təmin edir;
   - Məktəb haqqında səhih və dəqiq məlumatlandırmanı təmin edir;
   - Həm məktəb daxilində, digər məktəblər arasında qərar qəbul edir və lazımi məlumatlarla təmin edir;
   - Məktəbdə keyfiyyət təminatı sistemi yuxarıda qeyd olunan prinsiplər əsasında təşkil edilməklə uyğun mexanizmlərin tətbiqi çərçivəsində monitorinq və qiymətləndirməni təmin edir.

### 1.1.4. Məktəbdə keyfiyyət təminatı mexanizmləri

KTS üzrə yanaşmalar məktəblərdə xarici və daxili mexanizmlər vasitəsi ilə tətbiq olunur.

Aşağıdakı sxem 1.1 vasitəsilə bu mexanizmlərin əyani müqayisəsini aparmaq mümkündür:




**Sxem 1.1. Keyfiyyət təminatı sisteminin yaradılması**

Bu mexanizmlər fərqli, lakin tamamlayıcı məqsədlərə xidmət edir. Bunlar bir-birini dəstəkləyən və gücləndirən fərqli mexanizmlər kimi uyğunlaşdırılmış, inteqrasiya edilmiş bir KTS-nin tərkib hissələridir. KTS-nin yaradılması məktəbdaxili mühit iqlimi və məktəb icması üzvlərinin (təhsilalanlar və təhsilverənlər) inkişafını yüksəldir, səmərəli tədris və təlim prosesində müasir və innovativ yanaşmanın təsirini geniş əhatə edir:

Keyfiyyətin təminatı üzrə xarici mexanizmlər məktəbin fəaliyyətinə dair obyektiv, etibarlı məlumatların toplanmasını hədəfləyir. Məsələn, məktəb icmasının üzvü olmayan qiymətləndiricilər məktəb mühitinə, inkişaf planının icrasına, tədris və təlim prosesinin keyfiyyətinə və pedaqoji heyətin fəaliyyətinə qiymət verirlər. Burada həmçinin, şagirdlərin təlim nəticələrinin mənimsəmə səviyyəsi qiymətləndirilir. Bu nəticələr digər məktəblərin müvafiq göstəriciləri ilə müqayisə olunmaqla məktəblər arasında səmərəli təcrübə mübadiləsi mühitini formalaşdırır.

↓

Keyfiyyətin təminatı üzrə daxili mexanizmlər məktəbdə özünüqiymətləndirmənin müxtəlif metodlarını özündə ehtiva edir. Daxili qiymətləndirmə pedaqoji prosesin səmərəli təşkili və şagird nailiyyətlərinin ölçülməsi kimi göstəricilər vasitəsilə şagird nailiyyətinin yüksəldilməsində kollektiv məsuliyyəti dərinləşdirir, müxtəlif metodlar vasitəsilə pedaqoji fəaliyyətin (heyətin) qiymətləndirilməsini təmin edir. Burada pedaqoji heyətin özünü qiymətləndirməsi üçün qaydalar və meyarlar hazırlanır. Bu növ qiymətləndirmənin nəticəsi olaraq pedaqoji heyət üzvlərinin peşəkar inkişafının planlaşdırılması (təlimlər, seminarlar, fərdi mübadilələr və s.) və tədris prosesinin təşkilində yeni metodların tətbiqi aparılır.

↓

- Təhsilalanların milli qiymətləndirilməsi
- Müəllimlərin qiymətləndirilməsi
- Məktəbdə özünüqiymətləndirmə

**Sxem 1.2. Keyfiyyət təminatı sisteminin mexanizmləri**

Məktəblərin, pedaqoji və digər işçi heyətinin fəaliyyəti, şagirdlərin müvəffəqiyyət göstəricilərinin qiymətləndirilməsi qeyd olunan mexanizmlərin tələbləri əsasında meyar və göstəricilərlə həyata keçirilir (Sxem 1.2). Qeyd olunan göstəricilər ömürboyu təhsil üzrə keyfiyyət təminatının Milli Kvalifikasiya Çərçivə sənədinə müvafiq normativ-hüquqi aktlara, eləcə də beynəlxalq təcrübəyə uyğun həyata keçirilməsini təsdiq edir.

### 1.1.5. Keyfiyyətin təminatı üzrə müasir nümunələr

Təhsilin keyfiyyəti haqqındakı müxtəlif anlayışları bir araya gətirərək onun dəyərləndirilməsi üçün istifadə olunan göstəriciləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Pedaqoji heyətin peşəkar hazırlığı;
- Pedaqoji heyətin motivasiyası;

- Tədris müəssisəsinin maddi-texniki bazasının vəziyyəti;
- Tədris materiallarının keyfiyyəti və məzmunu;
- Tədris metodologiyasının effektivliyi;
- Tədris materialları və ləvazimatının keyfiyyəti;
- Şagirdlərin təhsil alma (öyrənmə) qabiliyyəti;
- Məktəb infrastrukturun keyfiyyəti;
- Verilən biliklərin keyfiyyəti;
- Rəhbərliyin innovasiyalar sahəsindəki fəallığı;
- Təhsil prosesində innovasiyaların tətbiqi;
- Məktəb məzunları ilə iş və onlara olan tələbat;
- Məzunların əmək bazarında rəqabətə davamlılığı;
- Məktəb məzunların nailiyyətləri (idarəçilik, xeyriyyəçilik, sahibkarlıq, liderlik (UNESKO 2005).

Qeyd olunan göstəricilər məktəblərdə müxtəlif modellər çərçivəsində həyata keçirilir.

Məktəbin çevik və strateji idarə olunması və pedaqoji fəaliyyətinin səmərəli təşkili məqsədi ilə keyfiyyətin təminatı üzrə müxtəlif beynəlxalq nümunələr mövcuddur.

### 1. Qanunauyğunluq modeli

Müasir təhsil prosesi məktəblərin qarşısında bilik cəmiyyətinin yaratdığı reallıqlara uyğunlaşmaq, keyfiyyətli təlim və tədris prosesinin yekununda müvafiq bacarıq və səriştələri əldə etmək, rəqabətə davamlı mühiti təmin etmək, eləcə də çevik və strateji idarəetməyə malik olma tələbləri formalaşdırır (Şəkil 1.5).



**Şəkil 1.5. Keyfiyyətdə qanunauyğunluq modeli**

Təlim və tədris prosesinin yerli icma, valideynlər və bütün digər maraqlı tərəflərin rəyləri əsasında qurulması müasir təhsilin qanunauyğunluqlarını təmin edir. Bu məqsədlə, məktəbin qiymətləndirilməsi onun ətrafdakılarla qarşılıqlı əlaqəsinin səviyyəsini müəyyən edir. Bu əlaqə, qanunauyğunluq modelinin əsasını təşkil etməklə məktəbin yerli icma daxilində yerini müəyyən edir, məktəbin (strateji və pedaqoji aspektlərdə) inkişafında icmanın və digər maraqlı tərəflərin rolunu ölçü mexanizmləri əsasında müəyyən edir. Bu model qiymətləndirmədə vacib bir mənbə formalaşdırmaqla, cəmiyyətin dəstəyinin qazanılmasına, ictimai statusunun daha da yüksəldilməsinə və hesabatlılıq (sosial məsuliyyətlilik) nümunəsi yaratmasına şərait yaradır.

Qeyd olunan mexanizmlər monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma prosesini qeyd olunan qanunauyğun çərçivədə tətbiq edir, məktəbin və pedaqoji fəaliyyətin daha səmərəli və rəqabətədavamlı qurulmasına, məktəbin icma qarşısında hesabatlılığının

təmin edilməsi və imic, nüfuz və statusunun yüksəldilməsinə xidmət edir.

2. **Təşkilati təlim modeli**

Bu model yeni tədris planı üzrə təlim mühitinin dəyişilməsi, tədrisin keyfiyyətinin yüksəlməsinə xidmət edir. Təşkilati təlim modeli müəllimlərin inkişafı, təcrübəsi, prosesin təhlili və qiymətləndirmənin nəticələrini əhatə edən dinamik bir modeldir. Bu modelin təklif etdiyi keyfiyyət təminatı mexanizmləri təhsildə təşkilati təlim davranışlarının vacibliyi ətrafında formalaşır. Cəmiyyətin ehtiyacları və baş verən dəyişikliklər barədə məlumatlılıq keyfiyyətin təmin edilməsində müstəsna rol oynayır. Daxili idarəetmə, nəzarət, proqram qiymətləndirməsi, ətraf mühitin təhlili, peşə inkişafı və fəaliyyətlərin planlaşması məktəb rəhbərləri tərəfindən təmin olunan məsələlərdir (Şəkil 1.6).



**Şəkil 1.6. Təlim mühitinin təşkili**

3. **Keyfiyyətin ümumi idarəolunma modeli**

Bu model təhsilin keyfiyyətinin təmin olunması üzrə olan gözləntiləri qarşılamaqla məktəblərdə qiymətləndirmənin ilkin, aralıq və yekun növlərini müəyyən edərək nəticələri müəyyənləşdirir. Keyfiyyətin idarəolunması məktəbin ümumi idarəolunmasında bir sıra sahələrin təkmilləşdirilməsini tələb edir. Qeyd olunan model üzrə məktəbdə strateji idarəetmənin, davamlı inkişaf proseslərinin, məktəb üzvlərinin ümumi idarəetmə prosesində iştirakının və səlahiyyətlərinin bölgüsünü, təşkil edir. Bu səbəbdən, qeyd olunan model üzrə keyfiyyətin təmin edilməsi qarşılıqlı asılılığa malikdir:

- Məktəbdə liderlik, insan resurslarının idarə edilməsi;
- Tədris prosesi və məlumatların idarə edilməsi;
- Məlumatların təhlili, keyfiyyətin strateji planlaşdırılması;
- Daxili və xarici tərəflərin məmnuniyyətinin qazanılması;
- Nəticələrin təhlili, şagirdlərin təlim nəticələri və məktəbin cəmiyyətə təsiri.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** Tələbələr iki qrupa bölünür, A5 formatlı ağ vərəqlər, markerlərlə təmin olunurlar. Məktəbdə keyfiyyət təminatı üzrə müasir metodların və prinsiplərin yerinə yetirilmə şərtlərinin yazılması tapşırılır.
   Qrup 1: Keyfiyyət təminatına dair müasir metodları qeyd edin;
   Qrup 2: Keyfiyyət təminatı üzrə prinsiplərin yerinə yetirilməsinin şərtlərini izah edin.

2. **Kiçik qruplarda iş.** Keyfiyyətin təminatı mexanizmlərinə dair müqayisəli fikirlərinizi əsaslandırın:

| Xarici mexanizmlər | Daxili mexanizmlər |
|---|---|
| | |

3. **Qrup işi.** Məktəbdə keyfiyyət təminatı sisteminin yaradılmasında olan boşluqların müəyyən olunmasında uyğun bildiyiniz prinsiplər, qiymətləndirmə mexanizmləri və modellərini əsaslandırın. Qiymətləndirmə meyarlarını hazırlayın və cədvəldə uyğun qeydlər edin:

| Sahələr | Prinsiplər | Qiymətləndirmə mexanizmi | Qiymətləndirmə meyarı |
|---|---|---|---|
| Məktəb direktorunun strateji inkişaf planı | | | |
| Tədris proqramlarının standartlara uyğunluğu | | | |
| Müəllimlərin peşəkar bacarıqları | | | |
| Şagirdlərin sinifdənxaric işinin təşkil edilməsi | | | |
| Kitabxananın şagird maraq və ehtiyaclarını ödəməsi | | | |

4. **Kiçik qruplarda iş.** Yeni keyfiyyət modellərini oxuyun, məqsəd və qiymətləndirmədə faydası üzrə təqdimat hazırlayın və şərh edin.

- Qanunauyğunluq modeli
- Təşkilati təlim modeli
- Keyfiyyətin ümumi idarəolunması modeli

Məqsədi ---→ qiymətləndirmədə faydası

5. **Verilmiş beynəlxalq qiymətləndirmə növlərini düzgün izah edin.**

PİSA________________________________________
PİRLS_______________________________________
TİMMS______________________________________
İEA_________________________________________

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Daxili keyfiyyət təminatı sisteminin (monitorinq, təhlil, qiymətləndirmə və proqnozlaşdırma) yaradılma üsullarını izah edir"**

**1. Verilmiş sualları cavablandırın və onların əsasında keyfiyyət təminatı sisteminin yaradılmasının analitik hesabatını hazırlayın.**

- Keyfiyyət təminatı sistemi məktəbdə hansı məqsədlə yaradılır?
- Keyfiyyətin təminatının hansı mexanizmləri vardır və tətbiqi forması necədir?
- Keyfiyyətin təminatı prinsiplərinin yerinə yetirilməsi monitorinq və qiymətləndirmə prosesi üçün nə dərəcədə əhəmiyyətlidir?
- Xarici və daxili qiymətləndirmə mexanizmləri necə tətbiq olunur?
- Hər iki mexanizmin ümumi məqamları hansılardır və əsasən hansı sahələri əhatə edir?

**2. Verilmiş sahələrin qiymətləndirmə prinsipini müəyyən edin:**

1. Məktəbin peşəkar kollektivinə qiymətləndirmə təliminin keçirilməsi:
2. Məktəbin strateji planına əsasən şagird nailiyyətlərinin kəmiyyət və keyfiyyət uyğunluğunun müəyyən olunması:
3. Məktəbin digər məktəblərlə elektron əlaqəsinin genişləndirilməsinin təmin olunması:
4. Məktəb qiymətləndiriciləri arasında imtahan nəticələrinin doğruluğunun təmin olunması:
5. Məktəb rəhbəri və işçi heyətinin səmərəli fəaliyyətinin təmin olunması:

**3. Məktəbdə sinif tədrisinin keyfiyyətinə aid OLAN cavabı seçin.**

A) Yeni dərs planlarının hazırlanması;
B) Fənn müəlliminin səmərəli fəaliyyəti;
C) Standart testlər üzrə şagird nailiyyəti;
D) Sinif tapşırıqlarının yerinə yetirilməsi;
E) Məktəb rəhbərinin hazırladığı plan.

**4. Xarici qiymətləndiricilərin fəaliyyətinə aid OLMAYAN cavabı seçin.**

A) Məktəb pedaqoji kollektivin peşəkar inkişafını qiymətləndirir;
B) Məktəbdə işçi heyətin özünü qiymətləndirmə prosesini təşkil edir;
C) Məktəbin strateji inkişaf planının təlim nəticələrinə uyğunluğunu dəyərləndirir;
D) Şagirdlərin nəticələrini digər məktəbin nəticələri ilə müqayisə edir.

## 1.2. Müəssisənin idarəolunması və tədrisin keyfiyyəti üzrə monitorinq prosesini təşkil edir

### 1.2.1. Müəssisədə monitorinq və qiymətləndirmə sistemi

Monitorinq və Qiymətləndirmə (MQ) tədrisin keyfiyyətinin yaxşılaşdırılmasına və nəticələrin əldə olunmasına xidmət edən prosesdir. Eyni zamanda, monitorinq və qiymətləndirmə məktəbin Strateji İnkişaf Planının (SİP) həyata keçirilmə mərhələsinin nəzarət mexanizmi adlanır (Şəkil 1.7).



**Şəkil 1.7. Keyfiyyətdə qanunauyğunluq modeli**

**MQ-nin əsas xüsusiyyətləri**

Monitorinq, bütün maraqlı tərəflərə qiymətləndirilən fəaliyyətlərin gedişi və ya gecikməsi barədə əvvəlcədən ətraflı məlumat verməyi hədəfləyən davamlı diaqnostik bir mərhələdir. İdarəetmədə monitorinq, baş verən fəaliyyətlərin müntəzəm olaraq məqsədyönlü müşahidə prosesidir. Monitorinq etmək, fəaliyyətlərin necə inkişaf etdiyini yoxlamaq, idarəetmənin bütün tərəfləri barədə müntəzəm olaraq məlumat toplama fəaliyyətidir.

Qiymətləndirmə, fəaliyyətlərin aktuallığı, səmərəliliyi və təsirinə dair aylıq, illik əsasda aparılmış sistematik və obyektiv bir araşdırmadır, və maraqlı tərəflərə hesabat vermək üçün bir proses kimi həyata keçirilir. Tədrisin idarəolunması və keyfiyyətinin yüksəldilməsində qiymətləndirmə, inkişafa ehtiyacı olan sahələri müəyyən edir və məktəbin gələcək fəaliyyətinin səmərəli mexanizmlərlə həyata keçirilməsini təmin edir.

Buna uyğun olaraq, MQ sistemi strateji inkişaf planına əsasən həyata keçirilən və əldə olunan nəticəni ölçmək üçün istifadə olunan göstəricilərə, alətlərə və proseslərə əsaslanır. Bu baxımdan, monitorinq və qiymətləndirmənin məqsədlərinə aşağıdakılar daxildir:

- Əvvəlki uğurları və çətinlikləri müəyyən etməyə və məlumatlandırmağa kömək etmək;
- Hədəflərin standartlara uyğunluğuna və yerinə yetirilməsinə nəzarət etmək;
- İnkişafın səmərəliliyini, təsir gücünü və davamlılığını müəyyən etmək;
- Fəaliyyətin planlaşdırılması məqsədi ilə nəticələrin təhlilini aparmaq;
- Şagirdlərin mövcud fəaliyyətlərini yaxşılaşdırmaq;
- Şagirdlərin qərar qəbul etməsini inkişaf etdirmək;
- Nəticələrin və təsirli vasitələrin gələcəkdə idarə edilməsini yaxşılaşdırmaq;
- Şagirdlərin gələcək seçimlərini genişləndirməyə imkan yaratmaq.

### 1.2.2. Monitorinq və qiymətləndirmə prosesində məktəbin funksiyaları

Sistemli monitorinq və qiymətləndirmə məktəbin özünüqiymətləndirməsinin vacib hissəsidir. Məktəbdə monitorinq və qiymətləndirmənin necə aparılacağını və işçilərin rolunu müəyyənləşdirən özünü qiymətləndirmə siyasəti hazırlanır. Burada məktəb, standartlara uyğun inkişafa nail olmaq üçün strateji baxımdan öz spesifik funksiyalarını müəyyən edir:

1. Məktəbdə keyfiyyətin idarəetmə sisteminin yaradılması;
2. Təhsil üzrə keyfiyyətin planlaşdırma proseslərinin hazırlanması;
3. Məktəbin strateji inkişaf planına uyğun yeni tədris proqramı və layihələrin həyata keçirilməsi;
4. Məktəbin strateji idarəolunması və tədris nəticələrinin qiymətləndirilməsi;
5. Ümumi təhsil standartlarına və qaydalarına uyğunluğun nəzarətdə saxlanılması;
6. Təlim nəticələrinin keyfiyyətinə nəzarət standartlarının tətbiq olunması;
7. Məktəbin inkişafının planlaşdırılması üçün imkanların artırılması;
8. Milli qiymətləndirmə çərçivəsində siniflər üzrə qiymətləndirmə prosesinin həyata keçirilməsinin idarə edilməsi:
   - Diaqnostik, formativ və summativ məqsədlər üçün təlimlərin qiymətləndirilməsi;
   - Obyektiv qiymətləndirmə strategiyaları və sinifdə istifadə olunan vasitələrin hazırlanması;
   - Əldə olunmuş nəticələr üzrə irəliləyişlərin izlənməsi və qiymətləndirmə məqsədlərinin müəyyən edilməsi;
   - Yarım illik və yekun qiymətləndirmə testlərinin səmərəli idarə olunmasına nəzarətin olması;
   - Məktəblərin fəaliyyətinə dair xarici qiymətləndirmə mexanizmlərini yenilənməsi;
   - Məktəblərdə monitorinq və qiymətləndirmə prosesinə texniki yardımın təmin olunması.

### 1.2.3. Monitorinq və qiymətləndirmə prosesində məktəbin funksiyaları

Monitorinq və qiymətləndirmə üçün ümumi əsas budur ki, onların hər ikisi idarəetmə vasitəsidir. Məktəbin idarəolunmasında keyfiyyətin təminatı ilk növbədə idarəetmənin keyfiyyət standartlarına uyğunluğu və icrası üçün cavabdehliyini təmin edir. Keyfiyyətin təmin edilməsinə aşağıdakı sahələr daxildir:

- Keyfiyyət idarəetmə sisteminin effektiv tətbiqi;
- Məktəb fəaliyyətinin davamlı qiymətləndirilməsi;
- Texnoloji yardımın istifadəsi.

**İdarəetmə sisteminin tətbiqi**

Keyfiyyət təminatı sisteminə məktəbin idarəetmə sisteminin və məktəb fəaliyyətinin keyfiyyətli istifadəsi daxildir:




**Sxem 1.3. Müəssisənin idarə olunmasında monitorinq və qiymətləndirmə prosesi**

Məktəbin idarəetmə sisteminin (Sxem 1.3) monitorinq və qiymətləndirilməsi strateji inkişaf planında göstərilən məktəb qiymətləndirmə nəticələrinin, aralıq nəticələrin izlənilməsi və nailiyyətlərin monitorinqi kimi əsas sahələri əhatə edir.

1. **Qiymətləndirmə nəticələrinin** araşdırılması aşağıdakı fəaliyyətləri planlaşdırır:

- Məlumatların davamlı toplanması və emalı;
- Analiz və şərh, məlumatların qeyd edilməsi;
- Qiymətləndiricilərin rəyi və fəaliyyəti;
- Məqsədlərin reallaşdırılması.

2. **Məktəb fəaliyyətinin (aralıq nəticələrin) qiymətləndirilməsi**

Məktəb idarəolunmasının monitorinqi dörd əsas göstərici üzrə fəaliyyətin izlənilməsini əhatə edir. Aralıq nəticələrin qiymətləndirilməsində istiqamətləri

aşağıdakılardır:

- Şagirdlərin qeydiyyata düşməsi və təlimdə iştirakı;
- Şagirdlərin məktəbdə qalması (davamiyyət);
- Təhsili başa vurma və tamamlama (fəaliyyət);
- Əldə olunan uğurlar (nailiyyət).

a. Aralıq nəticələrin izlənilməsi aşağıdakı məqsədlərə xidmət edir:
   - Tədris prosesinin keyfiyyətini yüksəltmək;
   - Şagirdlərin öyrənmə imkanlarını yaxşılaşdırmaq;
   - Təlimi tədris materialları ilə təmin etmək;
   - Tədrisdə və təlimdə şagirdlərin iştirakının qiymətləndirmək.

b. Məktəbin monitorinq və qiymətləndirmə sistemi aşağıdakı aralıq nəticələri izləyir:
   - Təlimdə şagird fəaliyyətinin izlənilməsi;
   - Tədris proqramının (kurikulum) tətbiqi səviyyəsinin yoxlanılması;
   - Məktəbin işçi heyətinin fəaliyyətinin izlənilməsi;
   - Tədris mənbələrinin istifadəsinin həyata keçirilməsi.

Bu proses uzun vaxt ərzində həyata keçirilir və müşahidələrə, rubriklər əsasında qiymətləndirməyə və şagirdlərin özünüqiymətləndirməsinə əsaslanır.

3. **Nailiyyətlərin monitorinqi** aşağıdakı sahələri əhatə edir:

Nailiyyətlərin monitorinqi strateji inkişaf planı və məktəb resurslarının istifadəsi üzrə həyata keçirilir.

a. Strateji inkişaf planının monitorinqinə aşağıdakılar daxildir:
   - Strateji inkişaf planında nəzərdə tutulan fəaliyyətlərin standartlara uyğun yerinə yetirilməsi;
   - Keyfiyyətə, vaxta və hədəfə əsaslanan tədris proqramı və layihələrin həyata keçirilməsi;
   - Şagird nailiyyətlərinin əldə olunması;
   - İmtahan nəticələrinin etibarlılığı və hesabatlılığın təmin olunması.

b. Məktəb resurslarının monitorinqinə aşağıdakılar daxildir:
   - Texniki avadanlıqların istifadəsinə uyğun nailiyyətlərin izlənməsi;
   - Məktəbə verilmiş vəsaitin yaxşı idarə olunması;
   - Tədris mühitinin maliyyə idarəçiliyinin yaxşılaşdırılması;
   - Müəllimlərin məktəb avadanlıqlarından və digər mənbələrdən istifadə bacarıqlarının artırılması;
   - Məktəbə ayrılan maliyyənin şəffaf xərclənməsi haqqında məlumatların təminatı.

### 1.2.4. Tədrisin monitorinqi – təlim fəaliyyətinin izlənilməsi

Tədrisin monitorinqi ilk öncə, şagird nailiyyətlərinin əldə olunmasını dəstəkləyən

müvafiq təlim mühitinin təmin olunmasını araşdırır və aşağıdakı sahələr üzrə boşluqları müəyyən edir (Şəkil 1.8):

- Materiallar və digər yardımçı xidmətləri;
- Sinifdə şagirdlərin nisbəti;
- Şagirdlərin dərsliklərlə təmin edilməsi;
- Şagirdlərin məktəb laboratoriyalarında fəaliyyəti;
- Təlim avadanlıqları, kitabxana və səhiyyə xidmətlərinə çıxışı;
- Məktəb yeməkxanası və ayaqyolundan istifadə.



**Şəkil 1.8. Təlim fəaliyyətinin izlənilməsi**

Tədris prosesində şagirdlərin iştirakını, akademik və sosial nailiyyətlərini izləmək monitorinqin əsas məqsədlərindəndir. Şagird nailiyyətləri haqqında məlumatlar təlim nəticələrinin tədris proqramına uyğun necə əldə olunması barədə faktları təqdim edir. Bu nailiyyətlər təlim fəaliyyətində izlənilən irəliləyişlərin məhsulu kimi qeyd olunur. Fəaliyyətlərin izlənməsi aşağıdakı göstəriciləri əhatə edir:

- Fəaliyyətlərin izlənməsi aşağıdakı göstəriciləri əhatə edir:
- Sinif daxilində təhsilalanların bilik və bacarıq səviyyələri (zəif, orta və yüksək);
- Tədris prosesində iştirak (dərsə davamiyyət və dərs buraxma hallarının qiymətləndirilməsi);
- Öyrənənlərin sağlamlığı və qidalanma vəziyyəti haqqında məlumat;
- Şagirdlərin məktəb səviyyəli tədbirlərdə iştirakının dəyərləndirilməsi.

### 1.2.5. Tədris proqramının (kurikulum) monitorinqi

Tədris proqramının (kurikulum) monitorinqinə tədris işçiləri tərəfindən proqram təminatına nəzarət mexanizmi və tədris planının düzgün və vaxtında yerinə yetirilməsi daxildir. Proqramın yerinə yetirilməsi barədə məlumatlara aşağıdakılar daxildir:

- Tədris planının məzmunu və əhatə dairəsi;
- Tədris planının yerinə yetirilməsi ilə bağlı müəllimlərin güclü və zəif tərəfləri;
- Tətbiq edilən strategiyaların məqsədlərə uyğunluğu
- Fənnə sərf olunan vaxtın norma daxilində olması;
- Kurikulumda qiymətləndirmə meyarları və vasitələrinin olması

### 1.2.6. Müəllim fəaliyyətinin monitorinqi

Müəllimin peşəkarlığını təyin edən göstəricilər üzrə təlim və təlim prosesinin idarə edilməsi və peşəkar inkişafının qiymətləndirilməsi aşağıdakılardan ibarətdir:

- Dərslərin planlaşdırılması, sinif rəhbərliyi;
- Müasir tədris metodlarından istifadə imkanları, fənnin uğurlu tədrisinin metodikası;

- Tədris vasitələrindən istifadə;
- Şagirdlərin qiymətləndirilməsi;
- Tədris və təlim prosesinin təşkilində İKT-dən və internetdən istifadə bacarıqlarının olması;
- Peşəkar təlimlərdə iştirakı üçün yaradılan imkanlardan bəhrələnməsi, qabaqcıl yerli və beynəlxalq təcrübənin tətbiq etməsi.

Belə bir nəticəyə gəlmək olar ki, məktəb nəticələrinin yaxşılaşdırılması, prioritetlərə uyğun olaraq monitorinq və qiymətləndirmə fəaliyyətini planlaşdırır. Məktəblər öz fəaliyyət planında illik və ya uzun, daha çevik müddətə bu prosesi planlaşdırır. Plan üzrə müzakirələrini və dəlillərini qeyd edərək, tədricən keyfiyyət göstəricilərindən istifadə edərək, məktəblər bir sübut toplusu yaradırlar. Ən vacib tələb, məktəbin bütün əsas proseslərini, idarəetmə və liderlik fəaliyyətlərinin şagirdlərə təsirini və nəticələrini izləməkdir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** İki qrupa bölünərək müəssisənin idarə olunmasında monitorinq və qiymətləndirmə mexanizmləri barədə tapşırıqları yerinə yetirin:

**Qrup A.** Təhsildə monitorinq və onun xüsusiyyətlərini (öz situasiyanızda necə aparılması, hansı problemlə üzləşməsi və həlli yollarını) göstərməklə təsvir edin.

**Qrup B.** Təhsildə qiymətləndirmə və onun xüsusiyyətlərini (öz situasiyanızda necə aparılması, hansı problemlə üzləşməsi və həlli yollarını) göstərməklə təsvir edin.

2. **Karusel oyunu.** 4 qrupa bölünün və Monitorinq və Qiymətləndirmə prosesi üzrə sistemli mərhələlərini hazırlayın. Hər bir qrup bir mərhələ qeyd edir və flip çatı digər qruplara bir-bir ötürərək proses tamamlanır..

3. **Layihə işi.** Məktəb monitorinq və qiymətləndirilməsi üzrə verilmiş sahələrə aid olan boşluqların və onların həlli üzrə qiymətləndirmə mexanizmlərinin tətbiqini izah edin və təqdimat hazırlayın.

| Sahələr | Mövcud problemlər | Qiymətləndirmə sahələri |
|---|---|---|
| Qiymətləndirmə nəticələrinin planlaşdırılması | | |
| Məktəb fəaliyyətində idarəolunma | | |
| Tədris proqramlarının (kurikulumun) monitorinqi | | |
| Şagird fəaliyyətinin izlənilməsi | | |
| Təlim mühitinin monitorinqi | | |
| Nailiyyətlərin monitorinqi | | |
| Müəllim fəaliyyətinin monitorinqi | | |

4. **Situasiyaların təhlili (Case study) Verilmiş nümunəni oxuyun və təqdimat hazırlayın.**

| |
|---|
| Məktəbdə direktor müəllimlərin təcrübəsini nəzərə almadan dərs bölgüsü aparır və otaq təminatını prinsiplərə riayət etmədən təmin edir. Müəllimlərin dərsləri müşahidə olunmadan onlara fərqli dəyərləndirmə üsulları tətbiq edilir və təhsilalanların fəaliyyətini izləyərək onun son uğurlarında qeyri-obyektiv dəyərləndirmə baş verir. Bu problemləri həll etmək üçün hansı idarəetmə fəaliyyətinin pozulduğunu izah edin və etik qaydalara riayət edərək məktəbin verilmiş problemlərin həlli üzrə monitorinq və qiymətləndirmə mərhələlərini elektron şəkildə hazırlayın. |



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Müəssisənin idarəolunması və tədrisin keyfiyyəti üzrə monitorinq prosesini təşkil edir"**

**1. Verilmiş sualları düzgün cavablandırın və suallar əsasında monitorinq və qiymətləndirmə prosesinin həyata keçirilməsini müzakirə edin:**

- ➢ Monitorinq və qiymətləndirmə məktəbdə hansı məqsədlə aparılır?
- ➢ Məktəbin monitorinq və qiymətləndirmə mexanizmlərinin tətbiqi üzrə hansı vəzifələri vardır?
- ➢ Məktəbdə monitorinq və qiymətləndirmə mərhələləri necə təşkil edilir?
- ➢ Tədris proqramının (kurikulum) monitorinqi və qiymətləndirilməsi necə tətbiq olunur?
- ➢ Şagird fəaliyyətinin izlənilməsi hansı meyarlarla ölçülür?

**1. Verilmiş sahələrin qiymətləndirmə sahəsini müəyyən edin:**

- ➢ Məktəbin ümumi fəaliyyəti üzrə məlumatların toplanması________________________________
- ➢ Məktəbin fəaliyyətinin göstəricilər, alətlər və proseslərə əsaslanması____________________
- ➢ Tədris proqramının və şagird fəaliyyətinin monitorinqi_______________________________
- ➢ Strateji inkişaf planının və resursların monitorinqi__________________________________
- ➢ Müəllim fəaliyyəti və işçi heyətin səmərəli fəaliyyəti_________________________________

**2. Monitorinqin həyata keçirilməsinə aid OLAN cavabı seçin.**

A) Cari dərs planlarının yeni məzmunda olması;
B) Şagirdlərin təlim fəaliyyətinin qiymətləndirilməsi;
C) Məlumat, analiz, şərh və planlaşdırmanın hazırlanması;
D) Tədris proqramının təlim nəticələrini əhatə etməsi;
E) Təlimdə interaktiv metodların yerinə yetirilməsi.

**3. Monitorinq və qiymətləndirməyə aid OLMAYAN cavabı seçin.**

A) Məktəbdə şagird nailiyyətlərinin dəyərləndirilməsi;
B) Məktəb müəllimlərinin dərslikləri təhlil etməsi;
C) Məktəb resurslarının səmərəli istifadəsinə nəzarətin olması;
D) Müəllimlərin İKT bacarıqlarından istifadə edərək təqdimatların hazırlaması.

## 1.3. Qiymətləndirmə prosesində təhsilverənlərin keyfiyyət göstəricilərini təqdim edir

### 1.3.1. Təhsilverənlərin (müəllimlərin) keyfiyyət təminatında rolu

Təhsilverənlər (müəllimlər) məktəblərdə keyfiyyət təminatının əsas mənbəyi və təkanverici quvvəsidir. Keyfiyyətli təhsil almaq üçün müəllimlər öndə olan insanlardır və müəllim fəaliyyətinin yüksək səviyyədə olması təlim nəticələrinin uğurla əldə olunması deməkdir. Bu baxımdan təhsildə müəllimin beş əsas məsuliyyət sahəsi var: mövzunu tədris etmə metodikası, şagirdlərlə iş, məşğul olduqları müəssisədə fəaliyyətləri, peşəkar inkişafı və cəmiyyətə faydası. Bu gün tədrisdə ən böyük problem, karyerası boyunca yaxşı müəllimləri necə inkişaf etdirmək dəstəkləmək və həvəsləndirməkdir. Bu baxımdan müəllim əməyinin qiymətləndirilməsi təhsildə vacib tətbiqi sahədir (Şəkil 1.9).



**Şəkil 1.9. Müəllim keyfiyyət təminatında rolu**

**Təhsilverənlərin qiymətləndirilməsinin məqsədi**

Müəssisələrdə müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi sinifdəki səmərəliliyi nəzərdən keçirmək və qiymətləndirmək üçün istifadə olunan rəsmi prosesdir və bir çox məqsədlər daşıyır. İlk olaraq, məktəb müəllimlərin qiymətləndirilməsində aşağıdakı əsas məqsədləri nəzərə almalıdır (Şəkil 1.10):



**Şəkil 1.10. Müəllimlərin qiymətləndirilməsi məqsədləri**

- Müəllimlərin güclü və zəif tərəflərini müəyyən etmək;
- Müəllimin fəaliyyət reytinqini təyin etmək;
- Müəllimlərin təlimdə inkişafyönümlü fəaliyyətini artırmaq;
- Müəllimlərin tədris praktikasının peşəkar inkişafına imkan yaratmaq;
- Gələcək işində fayda verəcək rəylərlə və hesabatlılıqla təmin etmək;
- Yeni təcrübələri öyrənmək və təkmilləşdirilməsinə dəstək vermək;
- Səriştələrin əldə olunmasında təlim vasitələrindən istifadəni gücləndirmək;
- Nəticəyönümlü karyera yüksəlişinə, yüksək əmək haqqına və bonus mükafatına nail olmaq.

Müəllimlərin hesabatlılığı üçün qiymətləndirmə xarakterikdir və ümumiyyətlə müəllim karyerasında fəaliyyətin qiymətləndirilməsini əhatə edir, müəllimlərə özünü tanıtma imkanı verir. Buna görə müəllimin peşə inkişafı imkanları məktəbin inkişaf planına uyğunlaşdırılır və aşağıdakı maraqlı tərəflərin iştirakı ilə qiymətləndirilir:

**Müəllim qiymətləndirməsi üzrə məsuliyyət**

Müəllimlərin qiymətləndirilməsi ilə bağlı vəzifələr adətən təhsil orqanları, müfəttişliklər, məktəblər, onların rəhbərliyi və müəllimlərin özləri kimi keyfiyyət təminatı agentlikləri arasında bölüşdürülür.

**Təhsil orqanlarının rolu**

Müəyyən edilmiş təhsil orqanları tərəfindən müəllimlik peşəsi üçün standartların təsdiqlənməsi və müəllim əməyinin qiymətləndirməsini tənzimləyən normaların təhsil konsepsiyada əks olunması bir vasitə rolunu oynayır. Buraya xüsusi qiymətləndirmə vasitələri və alətlərinin dizaynı, qiymətləndirmə meyarlarının müəyyənləşdirilməsi, qiymətləndirmə vəzifələrinin bölüşdürülməsi və qiymətləndirmə nəticələrinin izlənməsi daxil ola bilər.

**Müfəttişliklərin rolu**

Bir çox ölkələrdə təhsil müfəttişliyi müəllim qiymətləndirməsi üçün tam məsuliyyət daşıyır. Buraya müəllimlərin qiymətləndirilməsi prosedurlarının hazırlanması və məktəb müfəttişləri tərəfindən fərdi qiymətləndirmələrin aparılması daxildir. Bu, adətən, rəhbərlik və idarəetmə, tədris prosesinin keyfiyyəti və məktəbdə təlim mühiti ilə əlaqəli rəylərdən ibarətdir və məktəbin xarici qiymətləndirməsinin nəticələri üzrə aparılır.

**Məktəb rəhbərliyinin rolu**

Müəllimlərin qiymətləndirilməsində məktəb rəhbərinin rolu mərkəzləşdirilmiş qaydada tənzimlənir. Məktəb rəhbəri müəllimin əvvəlki illərinin təcrübəsini nəzərə alaraq, növbəti illərdə onun öz səmərəsini saxlamasını dinamika üzrə qiymətləndirir. Bir çox inkişaf etmiş ölkələrdə məktəb rəhbərləri müəllimlərin fərdi qiymətləndirməsi üçün tam məsuliyyət daşıyırlar. Məsələn, Finlandiya məktəblərinin əksəriyyətində müəllimlərin əvvəlki il ərzində qoyulmuş hədəfləri yerinə yetirməsi üzrə qiymətləndirilməsi və növbəti il üçün inkişaf ehtiyaclarını təyin etməyə yönəlmiş illik qiymətləndirməsindən ibarət sistem mövcuddur.

**Müəllimlərin rolu**

Bəzi sistemlərdə müəllim qiymətləndirməsi öz həmkarları tərəfindən qiymətləndirilməyə əsaslanır, burada təcrübəli müəllimlər daha çox məsuliyyət daşıyır. Bu zaman toplanmış dəlillər, tədrisin keyfiyyətinin yüksəldilməsində güclü töhfə vermək üçün aydın hədəfləri qeyd etməklə və effektiv rəylər verməklə öz bacarığını göstərir.

**Müəllimlərin keyfiyyət göstəriciləri və qiymətləndirmə mənbələri**

Müəllim təcrübəsi ilə bağlı çoxsaylı sübut mənbələrinin toplanması müəllimin qiymətləndirmə prosesinin düzgünlüyünə və ədalətliliyinə cavab verir. Müəllimləri qiymətləndirmək və işə götürmək üçün qeyd olunan vacib keyfiyyət göstəricilərinin olması

zərurət təşkil edir (Şəkil 1.11):

- Fərdi xüsusiyyətləri, şəxsi keyfiyyətləri;
- Keçmiş təhsili, ixtisas, xidmətdən əvvəl və sonrakı təhsili;
- İşlədiyi illər, məşğulluq vəziyyəti;
- Fənn ixtisası, dərs, tədris yükü, xüsusi bacarıqlar;
- Davamiyyət, fəaliyyət, davranış, nailiyyətlər və nöqsanları;
- Testlərin, imtahanların və qiymətləndirmələrin nəticələri.



**Şəkil 1.11. Müəllimlərin qiymətləndirilməsi mənbələri**

**1. Diplom və ya lisenziyanın olması.** Ənənəvi olaraq dövlət tərəfindən müəllimə verilən müəllimlik diplomu ən azı peşə bacarığının minimal standartını təmin etməyə kömək edir. Lisenziyalaşdırma və ya diplomla təltif olunma adətən, gələcək müəllimlərin pedaqogika və ya öyrətmək istədikləri fənn üzrə standart bir səviyyəli tədris kursunu tamamlamasını bir və ya bir neçə standart testdən keçmələrini tələb edir. Amma bu müəllimlik sənətinin əldə olunmasının ilkin mərhələsidir. Müəllimin peşəkar sertifikasiyadan keçməsi və tələb olunan nəticəni əldə edərək auditoriyada müəllim olması günün vacib prioritet məsələsidir.

**2. Peşəkar təcrübə:** Müəllimlik təcrübəsi ilə şagird nailiyyətləri arasındakı əlaqə müəllim təcrübəsinin təsirli olması ilə izah olunur. Bir çox tədqiqatlar peşəkar təcrübənin şagird nailiyyətlərinə hər hansı bir statistik cəhətdən təsir etdiyini göstərir.

Müəllim qiymətləndirməsi məktəbdə özünüqiymətləndirmə və keyfiyyət təminatı sisteminə inteqrasiya edilir.

**Sinifdə müşahidə**

Təlim təcrübəsi və şagirdlərin öyrənməsinin sübutları, ehtimal ki, peşəkar fəaliyyət haqqında məlumat mənbəyidir. Nəticədə, müəllimlərin qiymətləndirməsi adətən sinifdə müşahidə zamanı aparılır və bu müşahidə bir çox meyarlara əsaslanır.

**Müəllimin özünü qiymətləndirməsi**

Müəllim qiymətləndirməsində istifadə olunan başqa bir ümumi vasitə müəllimin özünü qiymətləndirməsidir. Qiymətləndirilən müəllimin perspektivi çox vacibdir, çünki bu, müəllimlərə öz fəaliyyətləri barədə öz fikirlərini bildirməyə və tədrisinə təsir edən şəxsi, təşkilati və institusional amillər üzərində düşünməyə imkan verir (Şəkil 1.12).


**Şəkil 1.12. Müəllimlərin özünüqiymətləndirməsi**

**Müəllim portfoliosu**

Müəllimin özünü qiymətləndirməsini tamamlayan bir vasitə müəllim portfoliosudur. Burada müəllimin keçdiyi dərslərin əsas aspektlərinə dair sübutlar təqdim edilir: dərs planları və tədris materialları, şagird işinin nümunələri və şagird qiymətləndirmə nümunələrinə dair şərhlər, müəllimin özünün hesabat anketləri və rəylər, o cümlədən hesabatlılıq məqsədi ilə aparılmış qeydlər daxildir. Qeyd etmək lazımdır ki, portfolio yalnız qiymətləndirmə üçün bir vasitə deyil, həm də tədris praktikasında yeni yanaşmanın dəstəklənməsində rol oynayır.

**Müəllimin testdən keçməsi**

Daimi müəllimlik peşəsinə başlamaq üçün fənlərə aid ixtisas bilikləri və metodiki yanaşmalar üzrə müəllimlər sınaq tesdən keçirilir. Bəzi hallarda, testlərin nəticələri müəllim qiymətləndirməsində testlərin sayına görə müəyyən edilmiş balla qiymətləndirilir və müəllimin peşəkarlığı haqqında tam məlumat verir.



**Şəkil 1.13. Amerikalı alim Charlotte Danielson**

**Şagirdlərin təlim nəticələri**

Şagirdlərin nəticələri bir çox inkişaf etmiş ölkələrdə müəllim qiymətləndirməsi üçün sübut mənbəyi kimi istifadə olunur (OECD report, 2005; UNESCO, 2007).

Amerikalı dilçi alim Şarlot Danielson (Şəkil 1.13) müəllimlərin şagirdlərlə iş üzrə ümumi təlim fəaliyyətlərini dörd əsas sahəyə bölür: planlaşdırma, sinif mühiti, uyğun təlimat və peşəkar vəzifələr.




**Şəkil 1.14. Danielsona görə müəllimin ümumi təlim fəaliyyətləri**

Ş.Danielsonun bu bölgüsü müəllimlərin qiymətləndirməsində vacib meyarlar kimi bir çox ölkələrdə tətbiq edilməyə başladı. Təqdim olunan ümumi sahələr (Şəkil 1.14) üzrə qiymətləndirmə şagirdlərin təlim nəticələrinə müxtəlif amillərlə təsir edir. Buna əlavə olaraq, UNESKO-nun təhsil sənədlərində ümumi sahələr üzrə müəllim potensialı və fəaliyyəti 16 meyar üzrə müəyyən edilmişdir (Şəkil 1.15):




**Şəkil 1.15. Müəllimin qiymətləndirməsi və inkişafı**

1. **Planlaşdırma təlimatı:**
   - Müəyyən edilmiş tədris planlarına əməl edir;

- Mövcud materiallar və mənbələrdən istifadə edir;
- Tədris planına və bacarıqlara uyğun fəaliyyət seçir;
- Xüsusi ehtiyacı olan şagirdlər üçün uyğun fəaliyyət material və ehtiyatları təmin edir;
- Planlaşdırma zamanı vaxtı nəzərə alır və çeviklik nümayiş etdirir.

2. **Dərsi səmərəli şəkildə həyata keçirir:**
   - Şagird diqqətini cəmləşdirir və dərsin məqsədi barədə məlumat verir;
   - Dərsi əvvəlki və gələcək dərslərlə əlaqələndirir;
   - Yeni materialı dəqiq və məntiqli şəkildə təqdim edir;
   - Modellər nümayiş etdirir və nümunələrdən istifadə edir;
   - Şagirdləri təkmilləşdirici rəylərlə təmin edir;
   - Şagirdlərin müstəqil təcrübə keçmələri üçün imkan yaradır.
3. **Təlimdə motivasiya yaradır:**
   - Şagirdlərə qayğı göstərir, dost hissi və aydın səs tonu yaradır;
   - Müvəffəqiyyəti təşviq edən çətinlik səviyyəsini müəyyənləşdirir;
   - Şagird marağını artıran stimulverici alətlərdən istifadə edir.
4. **Təlimdə ünsiyyət qurur (Şəkil 1.16):**
   - Təqdimatda dəyişkənlikdən istifadə edir;
   - Dərsə həvəs, canlılıq, iştirak və maraq göstərir;
   - Fikirlərini məntiqli olaraq ifadə edir;
   - Bütün şagirdləri iştirak etməyə həvəsləndirir;
   - Şagird suallarını dəyərləndirir və cavablandırır.



**Şəkil 1.16. Dərsdə səmərəli ünsiyyət**

5. **Proqram (kurikulum) biliklərini nümayiş etdirir:**
   - Dəqiq məzmunlu və aktual mövzular öyrədir;
   - Tədris məzmununu təlimat məqsədləri ilə əlaqələndirir;
   - Təlimdə effektiv nümunələr və təsvirlərdən istifadə edir;
   - Məntiqi ardıcıllıqla təlim məzmununu təqdim edir.
6. **Şagird nailiyyətlərinə bacarıqlara uyğun olaraq yüksək gözləntilər təyin edir:**
   - Şagirdlərə nəticələr üzrə gözləntilərini çatdırır;
   - Gözləntiləri təyin etmək üçün obyektiv şagird məlumatlarından istifadə edir;
   - Bacarıqların səviyyəsini təyin etmək üçün qiymətləndirmə rəylərindən istifadə

edir;
- Tənqidi təfəkkür bacarıqlarını inkişaf etdirmək üçün daha yüksək sifarişli sual metodlarından istifadə edir.

**7. Vaxtdan səmərəli istifadə edir:**
- Mövzulara uyğun vaxt üzrə cədvəl tərtib edir;
- Dərhal işə başlayır, aydın və qısa istiqamətlər verir;
- İdarəetmə vaxtını və keçid vaxtını minimuma endirir;
- Akademik tədris vaxtından səmərəli istifadə edir.

**8. Mövzunu yeni metodlarla inteqrasiya edir:**
- Müxtəlif metodlardan istifadə edərək dərs keçirmə qabiliyyətini nümayiş etdirir;
- Dərsdən əvvəl materiallar və avadanlıqları təşkil edir;
- Dərslərində mövzu və mənbələri asanlıqla birləşdirir;
- Mövcud əlavə mənbələrdən istifadə edir.

**9. Qiymətləndirmə fəaliyyətlərindən istifadə edir:**
- Aydın və məqsədyönlü qiymətləndirmə metodları tətbiq edir;
- Müxtəlif uyğun qiymətləndirmə üsulları ilə şagird irəliləyişinə nəzarət edir;
- Tədris olunan materialı əks etdirən tapşırıqlar hazırlayır.

**10. Xüsusi qiymətləndirmə rəyləri (feedback) verir:**
- Tapşırıqlar barədə mümkün qədər tez rəy verir;
- Yazılı və şifahi şərhlər, həmçinin xal və ya ballardan istifadə edir;
- Şagird uğurlarını müzakirə etmək üçün fərdi görüşlər üçün imkanlar yaradır;
- Test nəticələrini şagirdlərə və valideynlərə şərh edir.

**11. Sinifdə təlimi idarə edir:**
- İntizam problemlərini qaydalara, məktəb davranış siyasətinə və qanuni tələblərə uyğun idarə edir;
- Şagird sinif davranışı üçün parametrləri qurur və tərbiyəni təşviq edir;
- Çətin davranışı konstruktiv şəkildə idarə edir;
- Ədalətli və ardıcıl olduğunu nümayiş etdirir;
- Effektiv təlim üçün sinif otağını təşkil edir.

**12. Şagirdlərlə əlaqə qurur (Şəkil 1.17):**
- Şagirdlərə konstruktiv olan tənqid və tərif verir;
- Hər bir şagirdi bir şəxs kimi tanımaq üçün səy göstərir;
- Hər bir şagirdin müntəzəm görüşməsi üçün imkan yaradır;
- Şagirdlərin müsbət imicini inkişaf etdirir;
- Şagirdlərin fərdi təşəbbüsləri və öyrənməsi üçün əlverişli mühit yaradır.

**13. Valideynlər və icma ilə qarşılıqlı əlaqə (Şəkil 1.18):**

- Məktəbin icma ilə əlaqəsini təşviq edir;
- Müəllim və valideyn arasında ünsiyyəti təmin edir;
- Şagirdlərin marağı naminə valideynlərlə əlaqə qurur;
- Valideyn və müəllim fəaliyyətlərini dəstəkləyir;
- Dəstək mənbələri ilə bağlı məlumat verir.



**Şəkil 1.17. Dərsdə şagirdlərlə ünsiyyət**

**14. İdarəçilər və digər təhsil işçiləri ilə qarşılıqlı əlaqə yaradır:**

- Digər müəllimlər, rəhbərlik və digər təhsil işçiləri ilə əməkdaşlıq edir;
- Lazım olduqda dəstək xidmətlərindən istifadə edir;
- Digər müəllimlərlə fikir mübadiləsi aparır və metodları bölüşür;
- Məktəblə əlaqəli əşyaların vəziyyəti barədə rəhbərliyə və ya müvafiq işçilərə məlumat verir.



**Şəkil 1.18. Valideynlər və icma ilə əlaqələrin qurulması**

**15. Peşəkar inkişaf fəaliyyətlərində iştirak edir:**

- Peşəkar onlayn qruplarında və sosial şəbəkələrdə bacarıqlarını nümayiş etdirir;
- Rayon və dövlət təşkilatlarında təhsil layihələrində fəal iştirak edir;
- Seminarlarda, konfranslarda və görüşlərdə çıxışlar edir;
- Davamlı təhsildə rolunu və iştirakını təmin edir.

**16. Məktəb qaydaları, prosedur və qəbul edilmiş təcrübələri dəstəkləyir və tətbiq edir:**

- Təhsil siyasətinə riayət edir və qaydalar barədə məlumatlı olmağa çalışır;
- Təhsildə yaranan problemlərin həlli üçün uyğun yollar seçir;
- Məktəb qaydalarının hazırlanmasında və nəzərdən keçirilməsində iştirak edir;
- Məktəb binası və şagird təhlükəsizliyi üçün məsuliyyət daşıyır.

Beləliklə, müəllimlərin fəaliyyətinin qiymətləndirilməsi üzrə tələb olunan məlumat mənbələri üçün aşağıdakı meyarlar müəyyən edilir:

1. Dərs planları - məzmun biliklərində və ya pedaqogikada inkişafyönümlü dərs planlarının hazırlaması;

2. Təlimin idarə edilməsi – sinifdə davranış, motivasiya və kommunikativ səriştələr yaradan mühit təmin edə bilməsi;
3. Əvvəlki müşahidələr və qiymətləndirmələr barədə təkliflərin ünvanlanması;
4. Şagirdlərin irəliləyişlərinin sübutu - qiymətləndirmə vasitələri, yazı nümunələri, tapşırıqlar, layihə planı, şagirdlərin rubriklər üzrə səviyyələri, tədqiqat nümunələrinin olması;
5. Peşəkarlığı sübut edən dəlillər: konfranslarda iştirak, məqalələr, həmkarları ilə seminar-müzakirələrdə iştirak etməsi;
6. Valideynlərlə əməkdaşlığı sübut edən dəlillər – məktəb xəbər bülletenləri, valideyn əlaqələrinin qeydləri, valideynlərlə birgə məktəb tədbirlərinin broşürunun olması;
7. İxtisas üzrə texnologiyadan istifadə etdiyini (İKT) nümayiş etdirən əsər və təlimatların hazırlaması;
8. Həmkarları ilə bölüşülən yeni fikir və təcrübə nümunələrinin olması;

Bununla da, müəllimlərin qiymətləndirmə prosedurları müəllimin fəaliyyət səviyyəsini müəyyənləşdirmək üçün bütün aspektlərin meyarlarla qiymətləndirməsi müxtəlif səviyyələri reallaşdırır: "qeyri-qənaətbəxş", "təcrübəli" və "fərqlənmiş" müəllimlər kimi dəyərləndirilir. Bu səviyyələr müəllimlərin fəaliyyətini qeyd etmək üçün göstəricilərin inkişafını nəzərdə tutur və kəmiyyət reytinqini keyfiyyətcə miqyasla əlaqələndirməyə imkan verir.



## Tələbələr üçün fəaliyyətlər

1. **Video nümayiş.** Müəllimin sinifdəki fəaliyyətinə dair istənilən bir videonu izləyin. Videodan sonra qruplara bölünərək aşağıda verilmiş sahələr üzrə müəllim fəaliyyətinin qiymətləndirmə mənbələrini qeyd edin, müzakirə edin və əsaslandırın:

| Planlaşma | Sinfin idarəolunması | Təlimatlar | Peşəkar inkişaf |
|---|---|---|---|
| ________ | ________ | ________ | ________ |

2. **Qrup işi.** Müəllimin qiymətləndirməsi üzrə məsuliyyətin əhəmiyyətini izah edin.

| | Məsuliyyətlər | Əhəmiyyəti |
|---|---|---|
| Təhsil orqanları:<br>Müfəttişliklər:<br>Məktəb:<br>Müəllimlər: | | |

3. **Müşahidə vərəqi üzrə müəllimin təlim fəaliyyətini qiymətləndirəcək beş elementi qeyd edin:**

| № | Hədəf olunan sahələr | Dərs zamanı | Dərsdən sonra |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |
| 4. | | | |
| 5. | | | |

4. **A. Verilmiş mövzu üzrə müəllimin dərs planını tərtib edin: *"Heyvanları qoruyaq, onlar təbiətin dostudur!"***

| | | |
|---|---|---|
| 1. Məqsədlər:<br>2. İsinmə fəaliyyətləri:<br>3. Təlimatlar:<br>4. Suallar:<br>5. Sinif fəaliyyətləri:<br>6. Qrup işləri:<br>7. Fərdi tapşırıqlar:<br>8. Dəyərləndirmə vasitələri: | 1. Dərsin sonu:<br>2. Dərsdən sonrakı fəaliyyət:<br>3. Rəylərin verilməsi:<br>4. Ev tapşırığı:<br>5. Genişləndirilmiş iş: | 1. Dərsin təşkili:<br>2. Fiziki mühit:<br>3. Vaxt:<br>4. Mənbələr:<br>5. Üsullar:<br>6. Layihə işi: |

**B. Dərsin və müəllim fəaliyyətinin qiymətləndirməsi meyarlarını hazırlayın və qiymətləndirin.**

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Qiymətləndirmə prosesində təhsilverənlərin keyfiyyət göstəricilərini təqdim edir"**

**1. Verilmiş suallar ətrafında müzakirə aparın:**

- Şagirdlərin keyfiyyət göstəriciləri təhsildə nə dərəcədə vacibdir?
- Müəllimlərin keyfiyyət göstəriciləri hansı sahələri əhatə edir?
- Müəllimin hədəflərə çatmağını necə qiymətləndirməyi planlaşdırırsınız?
- Şagirdləri təlimə cəlb etmək üçün müəllimdən hansı cəhətləri daha çox qiymətləndirirsiniz?
- Təlimdə fəal interaktivliyi yaratmaq üçün müəllim nələri bacarmalıdır?
- Təlimdə inteqrativliyi təmin etmək üçün müəllim nələri bilməlidir?
- Hansı keyfiyyət göstəricisi müəllimin bütün fəaliyyətini necə təmin edə bilər?

**2. Müəllim fəaliyyətinin qiymətləndirməsi məsuliyyətini müəyyən edin:**

- İl ərzində müəllimin fəaliyyətini izləyərək təhlillər aparır
- Ümumi qiymətləndirmə meyarları hazırlayır və üsullar seçir
- Məktəbdə müəllimləri fərdi şəkildə tədrisin keyfiyyəti, mühiti və rəylər üzrə qiymətləndirir
- Müəllimlərin dərsləri müşahidə olunur və sübutlar əsasında rəylər təmin olunur.

**3. Fərdi iş. Öz peşəkar inkişaf ehtiyaclarınızı düşünərək, sadalanan sahələrin hər birində belə ehtiyacınızın nə dərəcədə olduğunu göstərin:**

| Sahələr | Yüksək ehtiyac | Orta ehtiyac | Aşağı ehtiyac | Ehtiyacım yoxdur |
|---|---|---|---|---|
| Mövzu üzrə məzmun və nəticə standartları | | | | |
| Şagirdlərin nizam-intizam və davranış problemləri | | | | |
| Təlimat hazırlanması və tətbiqi təcrübəsi | | | | |
| Mövzuya uyğun fəaliyyət və tapşırıqlar | | | | |
| Təlimdə İKT-dən istifadə | | | | |
| Təlimin idarəolunması | | | | |
| Şagird nailiyyətlərinin qiymətləndirilməsi | | | | |

## 1.4. Təhsilalanların təlim nəticələrinin monitorinq və qiymətləndirmə yollarını şərh edir

### 1.4.1. Təhsilalanların (şagirdlərin) təlim nəticələri

Şagirdlərin təlim nəticələri, öyrənmə təcrübəsi və ya proqramı müvəffəqiyyətlə başa vurduqdan sonra əldə olunan bilik, bacarıq və yanaşmaları izah edən ifadələrdir (Şəkil 1.19).



**Şəkil 1.19. Şagirdlərin təlim nəticələri**

Təlim nəticələri:

- Bir bölmənin, mövzunun və fəaliyyətin sonunda qazanılır;
- Proqramın əsas məzmununda prosesləri əks etdirir;
- Şagirdlərin koqnitiv, effektiv və psixomotor vərdişlərini inkişaf etdirir;
- Gələcək həyat təcrübələrində istifadə olunur;
- Mənalı, ölçülə bilən və idarəoluna biləndir;
- Kompetensiyaların qazanılmasına yol açır.

Cəmiyyətdə sosial, iqtisadi və ekoloji qloballaşmanın və texnoloji inkişafın sürətlənməsi şagirdlərin təlim nəticələrinin dinamik dəyişilməsinə təsir edir. Təlim nəticələri, bir tədris ili ərzində şagirdlərin müxtəlif fənlər üzrə imtahan və qiymətləndirmələrdə əldə etdikləri balları qeyd etmək, müqayisə etmək və təhlil etmək, ən yüksək, orta və aşağı nəticə göstərənləri müəyyən etmək üçün faydalıdır.

### 1.4.2. Təlim nəticələrinin monitorinq və qiymətləndirilməsinin məqsədi

Şagirdlərin təlim nəticələrinin monitorinqi şagirdin akademik və davranış fəaliyyətinin izlənilməsi üzrə plan əsasında həyata keçirilir. Müəllimlər şagirdin sinifdə təqdim olunan yeni bilikləri hansı səviyyədə öyrəndiyini və əvvəlki bilik və bacarıqları ilə əlaqələndirərək şagird nailiyyətlərini aşağıdakı məqsədlərlə həyata keçirirlər:

- Şagirdlərdə maraq, təxəyyül, çeviklik və özünüqiymətləndirməni inkişaf etdirmək;
- Şagirdlər tərəfindən tədris proqramlarının mükəmməl şəkildə mənimsənilməsini təmin etmək;
- Şagirdlərin zəif və güclü təlim ehtiyaclarını müəyyənləşdirmək;
- Şagird nailiyyətlərini qeyd etmək üçün fürsət yaratmaq;
- Məktəblərdə şagird məmnunluğunu təmin edən keyfiyyətli tədris mühiti yaratmaq;
- Hər bir şagirdin öz potensialını aşkar etməsi üçün imkan yaratmaq.

### 1.4.3. Təlim nəticələrinin monitorinq və qiymətləndirilməsi istiqamətləri

Müəllimlər şagirdlərin irəliləyişlərini bir neçə məqsədlə izləyir və təlim-tədris proseslərini, imtahan suallarını və ya qiymətləndirmə tapşırıqlarını təkmilləşdirmək üçün sistemli tədbirlər həyata keçirirlər.

Nəticələrin monitorinqi və qiymətləndirilməsi (Sxem 1.4) prosesi iki əsas istiqamətdə aparılır.

Birinci istiqamət, müəllimləri məlumatlandırmaq üçün tədris təlimatlarının və proqramının təlim nəticələrinə uyğun hazırlanması və təkmilləşdirilməsidir. Bu istiqamətdə müəllimlər tədris təlimatlarının proqram (kurikulum) tələblərinə uyğunluğunu qiymətləndirir və şagirdlərin müvəffəqiyyət qazanmasına etibarlı zəmin yaradırlar.

İkinci istiqamət, şagirdləri məlumatlandırmaq üçün təlim nəticələrinin təkmilləşdirilməsi və müvəffəqiyyətlərinin tanınmasıdır. Nəticələrin təkmilləşdirilməsi prosesi formativ qiymətləndirmə çərçivəsində şagirdlərin irəliləyişlərini təmin edir və toplanan məlumatlar əsasında müvəffəqiyyətin tanınmasını təmin edən şagird nailiyyətlərinin qiymətləndirilməsi prosesini həyata keçirir.




**Sxem 1.4. Şagirdlərin təlim nəticələrinin monitorinq və qiymətləndirilməsi**

### 1.4.4. Qiymətləndirilmə mənbələri və irəliləyişlərin izlənilməsi yolları

Şagirdlərin monitorinq və qiymətləndirilmə mənbələri aşağıdakılardır:

- Şəxsi xarakteri və ailə xüsusiyyətləri;
- Əvvəlki təhsil təcrübəsi, hazırkı sinif, davamiyyət;
- İl ərzində akademik perfomansı və davranışı;
- Sinif fəaliyyətləri və irəliləyişləri;
- Nailiyyət və çatışmazlıqlar;
- Nəticələr əsasında növbəti sinfə keçmə;
- Təkrar sinifdə qalma, köçürülmə və buraxılması;
- Məzun olmaq haqqında məlumatlar;
- Ali təhsil müəssisəsinə qəbul üzrə topladığı bal (Şəkil 1.20).




**Şəkil 1.20. Şagirdlərin qiymətləndirilmə mənbələri**

**1. Formativ qiymətləndirmə üsulları**

Şagirdlərin gündəlik fəaliyyətlərinin tez-tez qiymətləndirilməsi onların mövzunu keyfiyyətli mənimsəmələrinə müsbət təsir edir və təlimə həvəslərini artırır. Şagirdlərin gündəlik cavablarının dəyərləndirilməsi üçün yazılı iş, tapşırıq və testlər şagirdin fərqli bir təlim növünə ehtiyacı olduğunu müəyyənləşdirir. Sinif fəaliyyətində şagird nəticələrinin qiymətləndirilməsinin aşağıdakı strategiyaları vardır (Şəkil 1.21):



**Şəkil 1.21. Formativ qiymətləndirmə üsulları**

***Bir dəqiqəlik cavab:*** bir dərs saatının son bir neçə dəqiqəsi ərzində şagirdlərdən "Bu gün öyrəndiyim ən vacib şey və ən az başa düşdüyüm şey" haqqında yarım vərəq həcmində fikir yazmaq xahiş olunur.

**Ağır nöqtələr:** şagirdlərdən başa düşmədiklərini və kömək edə biləcəklərini düşünmələrini istəyin.

***Zəncirli qeydlər:*** təlimin məzmunu ilə bağlı suallar hazırlanıb zərflərə qoyulur. Hər bir şagird zərfi götürür, suala qısa cavab yazır və zərfin üstünə adını yazaraq geri qoyur.

***Tətbiq məqaləsi:*** son 15 dəqiqəlik dərs zamanı şagirdlərdən əsas vəziyyətin real dünyadakı vəziyyətə necə aid olduğu barədə qısa bir məqalə yazması xahiş olunur.

***Təklif qutusu:*** sinif qapısının yaxınlığında bir qutu qoyulur və şagirdlərdən hər hansı bir dərs problemi barədə qeyd buraxmaları istənilir.

***İmtahan qiymətləndirmələri:*** Mütəmadi istifadə edilən hər hansı bir testi seçin və sonda şagirdlərin test üzrə hansı bilik və bacarıqlarının qiymətləndirilməsinə aid suallar verin.

Bu strategiyalar müxtəlif məqsədlər daşıyır və əsasən şagird irəliləyişlərini izləyir, yeni bacarıqların formalaşmasında əldə olunan nailiyyətlərini qiymətləndirir.

**2. Müşahidə və qarşılıqlı əlaqə**

Təlimdə şagirdlərin fəaliyyətini müşahidə etmək fərdi qarşılıqlı təsiri artırır və müəllimə uğurları qiymətləndirmək və ehtiyacları müəyyənləşdirmək üçün fürsət verir. Müəllimin verdiyi yazılı rəyi şagirdlərlə birgə nəzərdən keçirilir, nailiyyətləri və ya çatışmazlıqları düzgün qiymətləndirir və şagirdin ehtiyaclarını ödəmək üçün uyğun dəyərli təkliflər verir, uğur qazanmaq üçün aydın hədəflər və müvəffəqiyyət yolunu göstərə bilir. Pozitiv rəy şagirdə dəyərli motivasiya və həvəsləndirmə imkanı yaradır. Bu da şagirdin öz nöqsanlarını etiraf etməsi və mənfi dünyagörüşündən müsbətə doğru dəyişməsinə səbəb ola bilər.

### 1.4.5. Təlim nəticələrinin qiymətləndirilməsi yolları

Şagird irəliləyişlərini izləmək üçün dörd yol təklif olunur:

- Kurikulum üzrə monitorinq testləri;
- İl ərzində materiallar üzrə standart testlər;
- Müşahidə və qarşılıqlı əlaqə;
- Formativ qiymətləndirmə nəticələri.

**1. Proqram (Kurikulum) əsaslı monitorinq**

**Proqram (Kurikulum)** əsaslı monitorinq, şagirdlərin uğurlarını və təlimdə tətbiq olunan tədris metodlarını effektiv və dəqiq şəkildə izləmək üçün təşkil edilir və standartlı testlərdən istifadə etməklə həyata keçirilir. İl ərzində öyrənilən bütün nəzəri və praktiki biliklər testlərin məzmununda əks olunur, müxtəlif sual formasında ortaya çıxır. Əgər qiymətlərin yüksəlməsində artan dinamika hiss olunarsa, müəllim tədris metodlarının təsirli olduğunu və şagirdlərin yeni bilik və bacarıqlar əldə etdiyinə əmin olur. Əgər qiymətlər aşağı düşürsə, müəllim tədris metodlarının təsirli olmadığını bilir və onun tərəfindən rəylər yazılaraq şagirdlərə materialı yenidən öyrənib tətbiq etmək və müxtəlif yollarla yeni bilikləri əldə etmək tapşırılır. Şagirdlərə verilən əlavə vaxt ərzində onlar yenidən fəaliyyətə cəlb olunur və son qiymətləndirmə üzrə bir daha testdən keçirilir.

**2. Nəticələrin qiymətləndirilməsində standartlaşdırılmış testlərin hazırlanması**

Şagirdlərin nailiyyət səviyyələri qiymətləndirmə standartlarına uyğun hazırlanmış testlər vasitəsilə ölçülür. Müəllim müntəzəm olaraq şagirdlərin irəliləyişlərini ölçmək üçün isə sadə testlərdən istifadə edir. Standartlaşdırılmış testlər (Şəkil 1.22):

- Stimullaşdırmaq məqsədilə aparılır;
- Qabiliyyət dərəcəsinə görə differensial-laşdırılır;
- 4 səviyyəli qiymətləndirmə standartları üzrə hazırlanır;
- Çevik və əlçatan səviyyədə təmin olunur;
- Vaxtdan səmərəli istifadə üzrə tərtib edilir.



**Şəkil 1.22. Standartlı testlərin hazırlanması**

Şagirdlərin nailiyyət testləri yeni imtahan formatı əsasında əvvəlki bilikləri yoxlayır:

- 10 bal dəyərində yaxın mənalı və çoxseçimli cavabları olan testlər - 50
- 15 bal dəyərində iki sualdan ibarət esse yazı - 30
- 10 bal dəyərində şifahi müsahibə sualları - 20

Bəzən testdən keçmə bacarıqları çox təsirli olmaya bilər, bu onların imtahan zamanı vaxtlarını məhsuldar istifadə etməməsinə səbəb olur və yeni format kimi faydalı nəticələr verir. Təhlillər göstərir ki, test əzbərlənmiş "düz cavab"ın tapılması yolu ilə deyil, sualın tələblərini ödəməyən səhv cavabların istisna edilməsi yolu ilə həll edildikdə özünü yoxlayıcı, öyrədici və inkişafetdirici funksiyasını tam yerinə yetirmiş olur.

**Testlərin yazılışında sualların aydın və sadə şəkildə olması**

Şagirdlərə çətin ola biləcək mürəkkəb və qarışıq cümlə quruluşundan, ikiqat neqativlərdən və idiomatik dildən ibarət suallar tərtib etmək imtahanda anlaşılmazlıq yaradır. Ayrıca, bir neçə seçim suallarında qarışıqlığa səbəb ola biləcək "heç vaxt" və ya "həmişə" kimi mütləq cavablardan istifadə etmək düzgün deyil. Testlərə daxil edilən sualların bir neçə cavab variantının tamamlanacağı və ya cavablandırılacağı mənalı bir ifadə təqdim edilməlidir. Bu mənada suallar verilən cavabların tələblərini ödəməlidir. Bu baxımdan testlərin cavabı aşağıdakı tələblərə cavab verməlidir:

- Sualın tələbləri tam ödənilir (+100%) - bu düz cavabdır;
- Sualın tələblərinin əksər hissəsi ödənilir (+75%) - bu dərin bilik, bacarıq və vərdişlər əsasında təcrid olunan səhv cavabdır;
- Sualın tələbləri daha çox ödənilir (+50%) - bu daha çox bilik və bacarıqlar əsasında təcrid olunan səhv cavabdır;
- Sualın tələbləri qismən ödənilir (+25%) - bu zəif bilik və bacarıqlar əsasında təcrid olunan səhv cavabdır (cavablardan müəyyən hissə səhvdir).
- Sualın tələbləri tamamilə ödənilmir (-100%)- bu asan təcrid olunan səhv cavabdır (1 və ya 2 sual azdır);

Beləliklə, təlim nəticələrinin monitorinq və qiymətləndirilmə prosesi şagird və müəllimlərin məlumatlandırılması əsasında müxtəlif məqsədləri həyata keçirən nəticəyönümlü mərhələlərin tətbiqinə əsaslanır, məktəbdə şagird məmnunluğunun təmin edilməsinə və növbəti təlim nəticələrinin təkmilləşdirilməsinə yönəldilir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** Şagirdlər iki qrupa bölünür. Bir qrup şagirdlərin monitorinq və qiymətləndirmə prosesi üzrə, digər qrup isə müəllimlərin şagird nailiyyətlərini qiymətləndirmə fəaliyyətlərini müəyyən edir.

| **Qrup A.** | **Qrup B.** |
|---|---|
| Şagirdlər ---→ Sinif fəaliyyəti | Müəllimlər ---→ Məktəb fəaliyyəti |
| 1. | 1. |
| 2. | 2. |
| 3. | 3. |

2. **Qruplarda iş.** Verilmiş bölmə (müxtəlif bölmə seçilə bilər) üzrə təlim nəticələri hazırlayın və onların monitorinq və qiymətləndirilmə üsullarını tərtib edin.

Bölmə 1. Sağlam qidalar.

Mövzular: 1. ________________ 2. ________________ 3. ________________ 4. ________________

Ümumi təlim nəticələri: (idraki, affektiv və psixomotor nəticələr)________________________

________________________________________________________________

Metod və üsullar: (müzakirə, qida piramidasının hazırlanması, video təqdimat)__________

________________________________________________________________

Şagird gözləntiləri: (fəaliyyət növləri, məqsədlər)________________________________

________________________________________________________________

Müəllim gözləntiləri: (təlimat və proqramla uyğunlaşdırma)__________________________

________________________________________________________________

Qiymətləndirmə metodu: (tapşırıq, özünüqiymətləndirmə, test və təqdimat)____________

________________________________________________________________

3. **Yaradıcı iş.** Verilmiş plan əsasında təlim nəticələrinin qiymətləndirilməsi istiqamətlərini tamamlayın və təqdim edin.

1. Şagirdlərin məlumatlandırılması: ________________________________
2. Müəllimlərin məlumatlandırılması: ________________________________
3. Müvəffəqiyyətin tanınması: ________________________________
4. Proqramın hazırlanması: ________________________________

**4. Cütlərdə iş.**

**A.** Verilmiş bölmə üzrə qiymətləndirmə tapşırıqları hazırlayın. Yoxlama çoxseçimli testlərdən, iki suallı esse yazı və şifahi suallardan ibarət olsun.

**B.** Qiymətləndirmə testləri üzrə balları müəyyən edin və şagirdlərin nəticələri üzrə qısa hesabat hazırlayın.

| | |
|---|---|
| 1. Testlərin mövzunun məzmununu əks etdirməsi | 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10 |
| 2. Testlərin proqram materialını əks etdirməsi | 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10 |
| 3. Real həyatla əlaqəsi və problemin həlli | 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10 |
| 4. Çevik və əlçatan olması | 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10 |
| 5. Vaxt ərzində səmərəli istifadəsi | 3 – 4 – 5 – 6 – 7 – 8 – 9 – 10 |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**"Təhsilalanların təlim nəticələrinin monitorinq və qiymətləndirmə yollarını şərh edir"**

**1. Verilmiş sualları cavablandırın və müzakirə edin:**

- Şagirdlərin təlim nəticələri nəyə əsasən təyin edilir?
- Təlim nəticələrinin qiymətləndirilməsi məqsədləri nədir və necə tətbiq olunur?
- Şagirdlərin təlim nəticələrinin monitorinq və qiymətləndirmə prosesi hansı istiqamətlərlə həyata keçirilir?
- Təlim nəticələrinin qiymətləndirilmə mənbələri və üsulları hansılardır?
- Standartlı testlərin hazırlanma və tətbiqi mexanizmləri necə həyata keçirilir?

**2. Verilmiş tezislərin səhv (S) və ya düzgün (D) olduğunu qeyd edin:**

| | | |
|---|---|---|
| 1. | Qiymətləndirmə və monitorinq il ərzində bir dəfə həyata keçirilir | |
| 2. | Müəllim və şagirdlər qiymətləndirmə barədə məlumatlandırılır | |
| 3. | Sinif fəaliyyəti hər gün qiymətləndirilməməlidir | |
| 4. | Proqramların monitorinqi təlimin səmərəliliyini artırır | |
| 5. | Test tapşırıqları eyni qabiliyyətlərə görə tərtib edilir | |
| 6. | Müəllim rəyləri müşahidələrə əsasən verilir | |
| 7. | Standartlaşdırılmış testlər müxtəlif suallardan ibarətdir | |
| 8. | Formativ qiymətləndirmə nəticələrə yox, yalnız məqsədlərə xidmət edir | |

**3. Təlim nəticələrinin qiymətləndirməsinə aid OLMAYAN cavabı seçin.**

A) Təlim nəticələri bölmənin, mövzunun, proqram materiallarının sonunda qiymətləndirilir;
B) Təlim nəticələrinin qiymətləndirilməsi şagirdlərin zəif və üstün cəhətlərini müəyyən edir;
C) Son nəticəni müşahidə etmək gündəlik fəaliyyəti izləməkdən çox vacibdir;
D) Standartlı testlər şagirdlərin təlim nəticələrini ölçən vasitədir.

**4. Məktəbdaxili qiymətləndirmə prosesinin düzgün sırasını seçin:**

A) Məlumatlandırma – təlimatları hazırlama - proqramlara uyğunlaşdırma;
B) Sinif fəaliyyəti - məlumatlandırma – nəticələri qiymətləndirmə;
C) Fəaliyyəti izləmə – proqramı hazırlama - nailiyyətləri tanıma;
D) Təlimatları hazırlama - nəticələri təkmilləşdirmə - proqramlarla uyğunlaşdırma.

## 1.5. Məktəb heyətinin fəaliyyətinin sistemli qiymətləndirməsini aparır

### 1.5.1. Məktəb işçi heyətinin fəaliyyətləri

Təhsil müəssisəsində keyfiyyətin təmin olunmasında işçi heyətin fəaliyyətləri ümumi məktəb effektivliyinin təmin edilməsində vacib bir komponent kimi nəzərdən keçirilir. Fəaliyyətlər çərçivəsində heyətin səyləri və təcrübələri davamlı olaraq təkmilləşdirilir, şagirdlərin və digər işçilərin ehtiyacları qarşılanır. Məktəbin işçi heyətinin (uşaq birliyi, psixoloq, kitabxanaçı, təsərrüfat, yeməkxana işçisi, tibb işçisi və təhlükəsizlik) fəaliyyəti dedikdə, hər bir heyət üzvünün müəyyən bir tapşırığı nə dərəcədə müvəffəqiyyətlə yerinə yetirməsi başa düşülür. Bu məqsədlə, rəhbərlik məktəb heyətinin fəaliyyətinin davamlı olaraq izlənilməsini planlaşdırır və qiymətləndirilməsi üzrə irəliləyişlərin izlənməsini həyata keçirir. İlin sonuna qədər işçinin məktəbə verdiyi töhfənin qiymətləndirilməsi aparılır, müəyyən müddət ərzində formalaşdırılmış, strukturlaşdırılmış və sistemli nəzarət prosesinin mövcudluğu təmin edilir (Şəkil 1.23).




**Şəkil 1.23. Məktəb işçi heyətin qiymətləndirilməsi**

Burada məktəb heyətinin fəaliyyəti aşağıdakı məqsədləri daşıyır:

- Qiymətləndirmə nəticəsində müəssisə rəhbəri işçilərin vəzifələrini artırır;
- Məktəb heyətinin təlim və inkişaf ehtiyaclarını müəyyən edir;
- Güclü və zəif tərəflərini müəyyənləşdirir;
- Biliklərini artırmaq üçün bir vasitə kimi də fəaliyyət göstərir;
- Məktəb rəhbərliyi ilə köməkçi heyət arasında əməkdaşlıq yaradır;
- İşçinin peşəkar inkişafına istiqamət verir.

### 1.5.2. Fəaliyyətlərin qiymətləndirmə göstəriciləri

Məktəblərdə işçi heyətinin fəaliyyəti dedikdə, üç əsas davranış tipi nəzərdə tutulur:

**1. Tapşırıqların yerinə yetirilməsi**

Adından göründüyü kimi bu, işçinin müqavilədə göstərilən vəzifələrin yerinə yetirilməsi və bununla da işlədiyi müəssisənin uğurlu fəaliyyətinə təkan verməsi kimi qeyd edilir.

**2. Vətəndaşlıq**

Fəaliyyətin bu tipi müəssisənin psixoloji mühitinə işçinin təsiri ilə əlaqəlidir. Başqa sözlə, işçi ondan tələb olunmadığı hallarda belə kollektiv üzvlərinə yardım edir, iş

yoldaşlarına hörmətlə yanaşır, işlədiyi müəssisənin məqsədlərinə uyğun olaraq fəaliyyətini planlaşdırır, müsbət dəyişikliklərə yönəlmiş təkliflər verir və işlədiyi müəssisə haqqında müsbət fikirlər söyləyir.

**3. Qeyri-produktivlik**

Bu fəaliyyət zamanı, işçi öz davranışları ilə işlədiyi müəssisəyə ziyan vurur. Tez-tez işdən qalmaq, kollektiv üzvləri ilə kobud rəftar etmək, müəssisənin avadanlıqlarından sui-istifadə etmək, habelə onlara fiziki ziyan vurmaq kimi fəaliyyətlər misal ola bilər. Bu davaranışlar işçinin fəaliyyətinin dəyərləndirilməsində bir-biri ilə əlaqəli şəkildə nəzərə alınır. Bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirən, lakin kollektivlə kobud davranan bir işçini yaxşı işçi kimi qiymətləndirmənin doğru olmaması barədə təkliflər verilir və işlədiyi müəssisə haqqında müsbət fikirlər söylənilir.

Bununla birlikdə, hərtərəfli fəaliyyət qiymətləndirmə prosesi dörd mərhələdən ibarətdir (Sxem 1.5):

1. İşçinin perfomans gözləntiləri müəyyənləşdirilir;
2. Gözləntilərə müvafiq olaraq işçinin fəaliyyəti ölçülür və qiymətləndirilir;
3. Razılaşdırılmış standartlara uyğun fəaliyyət barədə rəy verilir;
4. İşçinin fəaliyyəti qeyd edilir və ya sənədləşdirilir.




**Sxem 1.5. Fəaliyyətin qiymətləndirməsi prosesi**

**Faza 1:** Gözləntilərin müəyyənləşdirilməsi

Məktəbin hər bir işçisinin gördüyü işlər üzrə gözləntilər və keyfiyyət göstəricilərinin müəyyən edilməsi, onların fəaliyyətinin düzgün qiymətləndirilməsinə imkan verir. Məsələn, tədris işləri üzrə direktor müavininin fəaliyyətinə daxil olan sahələr müəyyən edilir: tədris proqramlarının müzakirəsini təşkil etmək, dərslərin səmərəli bölgüsünü aparmaq, hesablama və İKT-dən istifadə bacarıqları, müəllimlərin dərslərinin müşahidəsini təşkil etmək, şagirdlərin dərslərdən məmnunluq səviyyəsini ölçmək, daxili ünsiyyəti və nizam-intizamı qorumaq, nəzarət mexanizmlərindən istifadə etmək və valideynlərə hesabat vermək.

**Faza 2:** Monitorinq və ölçmə. İşçinin fəaliyyətinin sonda hesabatlılıq üçün uyğun meyarlarla ölçülməsi başa çatdırılmalıdır. Mükəmməl bir işçi öz fəaliyyəti haqqında məlumatları toplayıb təqdim etməlidir. Məsələn, uşaq birlikləri qısa şəkildə 1 aylıq şagird fəallığı göstəriciləri, sinifdənxaric işin təşkili, məktəb səviyyəli tədbirlər və müsabiqələrin nəticələri haqqında hesabat şəklində təqdim etdikdə onun fəaliyyətini qiymətləndirmək asan olur.

**Faza 3:** Fəaliyyət üzrə rəyin verilməsi. Müsahibələr vasitəsilə qiymətləndirmə aparılır və rəy verilir. İl ərzində işçinin illik fəaliyyət reytinqini təyin etmək üçün verilən aylıq rəylər ümumiləşdirilir. Açıq, dürüst və konstruktiv rəylərin verilməsi zaman-zaman aqressiv, qeyri-səmimi heyət üzvlərinin münasibətlərində getdikcə səmimi ünsiyyət formalaşdırır.

**Faza 4:** Fəaliyyətin qiymətləndirilməsi. Bütün məlumatlar üzrə nəticələr təhlil edilir və məktəb heyəti üzvlərinin hansı səviyyədə olması, fəaliyyəti müxtəlif şkalalarla qiymətləndirilir. Qiymətləndirmə müsahibəsinin məqsədi işçilərin fəaliyyəti haqqında söhbət aparmaq və reytinq barədə razılığa gəlməkdir.

### 1.5.3. Məktəb işçi heyətinin qiymətləndirilməsinin həyata keçirilməsi



**Şəkil 1.24. Məktəb işçi heyətinin qiymətləndirilməsi**

Məktəb işçi heyətinin fəaliyyətlərinin qiymətləndirilməsində iştirakçı tərəflərin vəzifələrini bilmək çox vacibdir. Məktəb rəhbərləri, inzibati heyət (tədris hissə müdiri, uşaq birliyi, psixoloq və digər dəstəkvericilər) gündəlik məktəb fəaliyyətlərini daha yaxşı planlaşdırmaq, təşkil etmək, aparmaq, nəzarət etmək və qiymətləndirmək üçün əlavə maliyyə sənədləri, məktəb işçilərinin qeydiyyatı, məktəbdən istifadə qeydləri kimi digər təhsil imkanları və tədris-təlim materialları, məktəb yeməkləri və təqaüdlər üzrə əlavə sənədlər yaradıla və istifadə edilə bilər. Məktəbdənkənar fəaliyyətlər, məktəb idarə heyəti iclasları, valideyn-müəllim dərnəyi fəaliyyətləri və digər sənədlər haqqında ayrıca qeydlər yaradıla və yenilənə bilər (Şəkil 1.24).

Fəaliyyətin qiymətləndirilməsi aşağıdakı cədvəl 1.1-ə uyğun aparılır:

| № | Məktəb heyəti | Fəaliyyətlər və onların qiymətləndirilməsi |
|---|---|---|
| 1. | Məktəb direktoru | *Strateji planlaşdırma və prioritet idarəetmə:* liderlik və komandada iş, kommunikasiya, daxili nəzarət və qiymətləndirmə, təlim-tədrisin səmərəli təşkili, peşəkar inkişaf, intizam, valideynlərin cəlbi və beynəlxalq əlaqələr |
| 2. | Direktor müavini və idarəçilər | *Təlim nailiyyəti və nəticələr üzrə*: müşahidə dərsləri, şagird nailiyyətlərinin izlənilməsi, testlərin, imtahanların və qiymətləndirmələrin nəticələri (akademik nailiyyətlər, davranış və digər). |
| 3. | Məsləhətçilər | *Tədris materialları üzrə:* uyğun tədris materialının seçilməsi, vəsaitlərin sayı, düzgün istifadə qaydalarının tərtibi və şərtləri. |
| 4. | Təsərrüfat işləri üzrə rəhbər | *Fiziki imkanlar üzrə:* məktəb binalarının, sinif otaqlarının, mebel, avadanlıq və digər fiziki obyektlərin miqdarı və şərtləri; təmir və yeni tikililər; istifadə dərəcəsi. |
| 5. | Təşkilatçılar | *Dərsdənkənar və məktəbdənkənar fəaliyyət*: fəaliyyət növü, cədvəllər, cəlb olunan heyət, iştirakçıların sayı, nəticələr, təsir. |
| 6. | Uşaq birliyi rəhbəri və psixoloq | *Məktəb və icma əlaqələri* məktəb idarə heyəti iclasları, valideyn-müəllim dərnəyi fəaliyyətləri, məktəb-icma fəaliyyəti. |
| 7. | Məktəb mühasibi | *Maliyyə üzrə*: məktəb büdcəsi və mənbəyə görə gəlir, növə görə xərc, maliyyə balansı. |

**Cədvəl 1.1. Məktəb heyətinin qiymətləndirilməsi**

Məktəbdə idarəetmə məktəb heyətinin insan resurslarının ayrılmaz bir hissəsi olması kimi qiymətləndirilir. Bu baxımdan heyətin fəaliyyətinin düzgün qiymətləndirilməsi insan resurslarının aşağıdakı vacib funksiyaları qiymətləndirilir: *işə qəbul, düzgün yerləşdirmə, peşəkar inkişaf, təlimlərdə iştirak və inkişaf, layihə təklifləri və təqdimat, fəaliyyət, idarəetmə, qiymətləndirilmə, zəif perfomans və intizamın idarə edilməsi.*

### 1.5.4. Fəaliyyətin qiymətləndirilmə yolları

Məktəb işçi heyətinin qiymətləndirilməsi müxtəlif sahələrdə baş verən dəyişikliklərlə əlaqələndirilir və səmərə verə bilən göstəricilərlə qiymətləndirilir. Bu qiymətləndirmə işçilərə vaxtı-vaxtında korreksiyaedici rəylərin verilməsi, öz işində fərqli dəyişikliklər yaratması, məktəb heyətinə dəstək verdiyi sahələr və keçirdiyi tədbirlərin səviyyəsi ilə ölçülür.

Fəaliyyətin qiymətləndirilməsi (Sxem 1.6):




**Sxem 1.6. Məktəbin işçi heyətinin qiymətləndirmə üsulları**

### 1.5.5. Fəaliyyətin qiymətləndirilməsi sahələri

Qiymətləndirmə prosesinin şəffaf və sistemli aparılması üçün düzgün kriteriyaların müəyyən edilməsi menecerin diqqət mərkəzində olmalıdır. Ən çox istifadə olunan kriteriyalar yerinə yetirilən tapşırıqların (işin) məzmunu, nəticələri və faydalı cəhətləridir.

**Yerinə yetirilən tapşırıqların (işin) nəticələri.** Bu kriteriya ilə işçinin öhdəsinə düşən tapşırığı hansı üsullarla yerinə yetirildiyi deyil, işin nəticəsi qiymətləndirilir. Məsələn, müəllimin fəaliyyəti öyrənənin ölçüləbilən və qəbulolunan nailiyyəti (layihələr, testlər və s.) ilə nəticələnir. Lakin bu qiymətləndirmə fəaliyyəti məhdud şəkildə əhatə edir və hər hansı bir qərarın qəbul olunması üçün kifayət deyil. Öyrənmə mühitini və müəllim peşəkarlığının qiymətləndirilməsində başqa meyarlara da ehtiyac vardır.

**Fərdi davranışlar.** Bu kriteriya əvvəldə qeyd olunan vətəndaşlıq anlayışına çox yaxındır. Başqa sözlə, müəllimin resurslardan istifadə edərək və məktəb qaydalarına riayət edərək öyrənənlər və həmkarları üçün müsbət, hörmətli və təhlükəsiz bir öyrənmə və iş mühiti yaratması müəssisənin uğurlu inkişafı üçün çox vacibdir. Eyni zamanda, işçi öz peşəkar və etik davranışı, ətrafındakılara və özünə qarşı məsuliyyət hissi ilə nümunə modeli olaraq müəssisə üçün əhəmiyyətli kadr hesab olunur.

**Fərdi xüsusiyyətlərin qiymətləndirilməsi.** İşçinin fəaliyyətini qiymətləndirərkən onun fərdi xüsusiyyətlərini də nəzərə almaq vacibdir. Öhdəsinə düşən tapşırığı yüksək səviyyədə yerinə yetirən, lakin ünsiyyət qurmağı, dinləməyi, komandada işləməyi bacarmayan, verilən rəyə qapalı olan insan uğurlu işçi kimi qiymətləndirilə bilməz.

### 1.5.6. Fəaliyyətin qiymətləndirilmə metodları

**Esselər.** Esselər vasitəsilə işçinin güclü və zəif tərəfləri, keçmiş fəaliyyəti, potensial qabiliyyəti və inkişafa ehtiyacı olan tərəfləri, təklifləri öyrənilir. Bu üsulun müsbət cəhəti ondan ibarətdir ki, bunun üçün heç bir xüsusi təlimə ehtiyac yoxdur. Bu metodla aparılan qiymətləndirmədə işçinin şəxsi təcrübəsi, araşdırma bacarığı və yeniliklərə münasibəti, gələcək karyera baxışları kimi meyarlar nəzərə alınır.

**Tənqidi yanaşma metodu.** Bu metodla qiymətləndirmə zamanı, işçinin effektiv və qeyri-effektiv şəkildə yerinə yetirdiyi işlər arasındakı fərqə diqqət yetirilir. Bu zaman xüsusilə onun davranışları təhlil edilir və kritik insidentlərin siyahısı tərtib olunur. Bu siyahı işçinin nə zaman təqdirəlayiq və nə zaman arzuolunmaz davranışlar nümayiş etdirdiyini ona xatırladır və eyni zamanda özünüqiymətləndirməyə də yardım etmiş olur.

**Qrafik reytinq.** Bu metod işçinin fəaliyyətini artan şkala ilə dəyərləndirir. Məsələn, iş barədə bilikləri (1-çox zəif, 5- çox yüksək).

**Müqayisə metodu.** Bu zaman işçi digər işçilərlə müqayisə olunaraq qiymətləndirilir. Məsələn, 10 işçi arasında 3-cü yerdə olmaq.

### 1.5.7. Qiymətləndirməni həyata keçirən tərəflər

Qiymətləndirmə yalnız rəhbərliyin üzərinə düşən bir vəzifə deyil, əksinə, işçinin fəaliyyətinin müxtəlif mənbələr vasitəsilə qiymətləndirilməsidir. Məsələn, rəqəmsal vasitələrlə qiymətləndirmə zamanı onlar qoyulan sualları cavablandırır və onlayn sistemə göndərərək, qiymətlərini görmüş olurlar. Verilən suallar iş prinsipi, metodu və yeni yanaşmalar haqqında olur. Bu üsulla, işçi haqqında daha düzgün, etibarlı və qərəzsiz qiymətləndirilmə aparılmış olur. Bu qiymətləndirmə aşağıdakı kimi aparıla bilər:

- Onlayn özünüqiymətləndirmə;
- Rəhbərliyin qiymətləndirilməsi;
- Şagirdlərin qiymətləndirilməsi;
- Digər işçilərin qiymətləndirilməsi;
- Valideynlərin qiymətləndirilməsi.

Beləliklə, məktəb heyətinin fəaliyyətinin müxtəlif mənbələrdən və üsullardan istifadə etməklə qiymətləndirilməsi məktəbin səmərəliliyini artırır və sistemli idarəetməni möhkəmləndirir, müəllimlərin və onların işinə çox müsbət təsir göstərir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** İki qrupa bölünərək məktəb heyətinin fəaliyyətinin qiymətləndirilməsində çatışmazlıqları qeyd edin:



- Məktəb heyəti fəaliyyətinin qiymətləndirilməsində tapşırıqların yerinə yetirilməsini, fərdi davranış və xüsusiyyətlərində zəif nəticələri qeyd edin;
- Məktəb fəaliyyətinin qiymətləndirilməsi prosesində baş verən problemləri qeyd edin.

2. **Qrup işi.** Qrup lideri seçilir (könüllü və ya müəllim tərəfindən). Lider menecer rolunda çıxış edir və fəaliyyətin qiymətləndirilmə prosesinə rəhbərlik edir. Müəllim isə fəaliyyəti qiymətləndirilən işçi rolunda çıxış edir və otağı tərk edir. Qrup lideri 15 dəqiqə ərzində uşaq birliyi rəhbəri və psixoloqun qiymətləndirilməsi prosesini həyata keçirir. Bu qiymətləndirmə əsasən aşağıdakı sahələri əhatə edir:
   1. Rəhbərin savadı;
   2. Məktəbdə aparılan test prosedurları;
   3. Məsləhətçi-şagird (tələbə) münasibətləri;
   4. Təşkilati bacarıqlar;
   5. Ünsiyyət bacarığı;
   6. Tapşırıqların faydalılığı.

15 dəqiqəlik müzakirə bitdikdən sonra, müəllim sinfə daxil olur və onun fəaliyyətinin dəyərləndirilməsi açıqlanır. Bu zaman öyrənənlərin diqqəti əsasən qiymətləndirmə kriteriyalarına və qrup liderinin (menecerin) konstruktiv rəy bildirmək bacarığına yönəlməlidir.

3. **Cütlərdə iş.** Məktəb heyətinin əsas qiymətləndirmə fəaliyyətlərini qeyd edin:

| Direktor | Müəllimlər | İşçi heyət |
|---|---|---|
| | | |

4. **Cütlərdə iş.** Məktəb heyətinin qiymətləndirilməsində davranış tiplərinin zəif və üstün cəhətlərini cədvəldə qeyd edin:

| № | Davranış tipləri | Məqsədlər | Qiymətləndirmə |
|---|---|---|---|
| 1. | Tapşırığın yerinə yetirilməsi | | |
| 2. | Vətəndaşlıq | | |
| 3. | Qeyri-produktivlik | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**“Məktəb heyətinin fəaliyyətinin sistemli qiymətləndirilməsini aparır”**

**1. Verilmiş sualları cavablandırın və suallar əsasında məktəb heyətinin qiymətləndirilməsini müzakirə edin:**

- Məktəb heyətinin qiymətləndirilməsi hansı məqsədlə aparılır?
- Məktəb heyətinin qiymətləndirmə prosesləri hansılardır və necə tətbiq olunur?
- Davranış tiplərinin qiymətləndirilməsi nə dərəcədə əhəmiyyətlidir?
- Fəaliyyətin qiymətləndirilməsi yollarının hansı faydaları vardır?

**2. Aşağıda verilən cavabların səhv və ya düzgün olanını qeyd edin:**

1. İşçi heyətinin müxtəlif fəaliyyətlər nümayiş etdirməsi yüksək qiymətləndirilə bilər.

   Düzgün ☐ Səhv ☐

2. İşçilərlə ünsiyyət qurmaq və rəy vermək fərdi xüsusiyyətlərin qiymətləndirilməsində istifadə olunur

   Düzgün ☐ Səhv ☐

**3. Məktəb heyəti fəaliyyətləri aşağıdakı verilmiş tərəflərlə uzlaşdırın.**

1. Məktəb idarə heyəti iclasları, valideyn-müəllim dərnəyi fəaliyyətləri
2. Şagird nailiyyətlərinin izlənilməsi, testlərin, imtahanların təşkili
3. Liderlik və komandada iş, kommunikasiya, daxili nəzarət
4. Dərsdənkənar və məktəbdənkənar fəaliyyətin seçilməsi və kollektivin cəlbi
5. Tədris materialının təyin edilməsi və təsirinin qiymətləndirilməsi
6. Avadanlıq və digər fiziki obyektlərin miqdarı və təmirinə nəzarət
7. Məktəb büdcəsi və mənbəyə görə gəlirin müəyyən edilməsi

a. Məktəb direktoru
b. Məsləhətçilər
c. Direktor müavini
d. Təsərrüfat işçisi
e. Uşaq birliyi
f. Məktəb mühasibi
g. Təşkilatçılar

**3. Verilmiş qiymətləndirmə metodlarının işlənmə dərəcəsini qeyd edin və əsaslandırın:**

| Metodlar | Daha çox | Az hallarda | Bəzən | Heç vaxt |
|---|---|---|---|---|
| Esselər | | | | |
| Tənqidi yanaşma | | | | |
| Qrafik reytinq | | | | |
| Müqayisə | | | | |

# TƏLİM NƏTİCƏSİ 2: ÖZÜNÜTƏHLİL PROSESİNİ HƏYATA KEÇİRMƏK

## 2.1. Müəssisənin özünütəhlil prosesi və hesabatlılığın həyata keçirilməsi yollarını izah edir

### 2.1.1. Məktəb özünütəhlil prosesinin mahiyyəti

*Özünüqiymətləndirmə* və *özünütəhlil* tədris prosesini sabitləşdirmək və ya yaxşılaşdırmaq məqsədilə peşəkar fəaliyyət və nəticələri sistematik olaraq izləmək, təhlil etmək və qiymətləndirmək üçün bir prosedurdur (Şəkil 2.1). Məktəbin özünütəhlil prosesi məktəblərdə keyfiyyətin təsdiqlənməsi və toplanılan dəlillərə əsasən dəyişikliklər barədə qərarvermə və hesabatların təmin edilməsidir. Bu prosesə geniş məlumat toplama, tənqidi analiz, kollektiv fikir və qərarların formalaşdırılması, real düzəlişlər və uzun müddət ərzində nəzərdən keçirmə və qiymətləndirmə daxildir. Bu şəkildə məktəbdə özünütəhlil prosesi məktəblər və icmaları bir-birinə daha da yaxınlaşdıra bilir. Buna əlavə olaraq, bu proses məktəbdə şagirdlərin təhsil təcrübələrinə fikir verərək təcrübələrin məqsədyönlü qiymətləndirilməsi və test məlumatları ilə ölçülməsidir (Simons, 2013).



**Şəkil 2.1. Məktəbdə özünütəhlil prosesinin təşkili**

Özünütəhlil məktəbdə heyət tərəfindən aparılır və aşağıdakı məqsədləri daşıyır:

- Məktəb fəaliyyətində perspektivliyi təmin etmək;
- Güclü və zəif tərəfləri müəyyən etmək;
- Ən yaxşı təcrübəni tətbiq etmək;
- İnkişafa ehtiyacı olan sahələri araşdırmaq;
- Təhsil sistemində keyfiyyəti təmin etmək;
- Məktəb rəhbərliyinin və idarəedici heyətin funksiyalarını həyata keçirmək;
- Bərabərliyi təşviq etmək üçün resursları idarə etmək.

### 2.1.2. Məktəbdə özünütəhlil prosesi üzrə qaydalar

Məktəbin özünüqiymətləndirməsi məktəbdaxili qaydalara əsaslanmalı və bu qaydaların yerinə yetirilməsi üzrə məsuliyyət və vəzifələr müəyyən edilməlidir.

**Məktəbdə özünütəhlil prosesi üzrə qaydalar:**

- Məktəbin fiziki (institusional) və təlim mühitinin keyfiyyət standartları, göstəriciləri və digər normativ-hüquqi aktların tələblərinə uyğunluğunu qiymətləndirmək;
- Məktəb fəaliyyətlərinin təlim məqsədlərinə uyğunluğunu müəyyən etmək;

- Tədris proqramının (kurikulum) təlim nəticələrinə uyğunluğunu müəyyən etmək;
- Özünütəhlil prosesinin mərhələlərini müəyyən etmək və rolları bölüşdürmək;
- Məktəbin hər bir fəaliyyəti üzrə özünütəhlil prosesini həyata keçirmək;
- Özünütəhlil prosesində məktəb kollektivinin iştirakını təmin etmək;
- Özünütəhlil prosesində faktların və dəlillərin toplanmasını həyata keçirmək;
- Özünütəhlil prosesinin nəticəsi kimi hesabatlılığı təmin etmək.

**Özünütəhlil prosesinin SİP-də planlaşdırılması (Şəkil 2.2)**



**Şəkil 2.2. Özünütəhlil prosesinin planlaşdırılması**

- Məktəbin özünütəhlil prosesində fəaliyyətin təkmilləşdirilməsi üçün pedaqoji kollektivin peşəkar inkişafının təmin edilməsi;
- Məktəbin özünütəhlil prosesində müəllimlərin fəaliyyətinin qaydaya salınması;
- Məktəbdə özünütəhlil prosesində direktor, idarəedici, müəllim, valideyn və şagirdlərin birgə əməkdaşlığı üçün şəraitin yaradılması;
- Məktəbin özünütəhlil prosesi üçün gündəlik fəaliyyət planının hazırlanması;
- Məktəbdə özünütəhlil prosesi haqqında hesabatın yazılması;
- Hazırlanmış rəy haqqında icma üzvlərinə hesabatın verilməsi;
- Dövlət sənədləri və normativ-hüquqi baxımdan hesabatın qiymətləndirilməsi.

Özünütəhlil prosesi haqqında qaydalar və plan məktəb kollektivi tərəfindən nəzərdən keçirilir və rəylər verilərək qiymətləndirilir. Bundan sonra özünütəhlil qaydaları və planı məktəb pedaqoji şurasında təsdiq edildikdən sonra onun həyata keçirilməsi yolları planlaşdırılır.

### 2.1.3. Özünütəhlil prosesinin təşkili və məlumat mənbələrinin seçilməsi

Məktəbin Özünütəhlili Qiymətləndirmə Çərçivə sənədi təlimat, qaydalar, keyfiyyət standartları, göstəricilər və meyarlar əsasında həyata keçirilir (OECD 2015). Dövlət sənədləri və hüquqi normativ sənədlərə uyğunluq araşdırılır. Özünütəhlil prosesi üzrə məlumatların seçilməsi yolları məktəb rəhbərliyi və menecerlər tərəfindən izah edilir. Aşağıdakı sahələrin araşdırılması və dəyərləndirilməsi planlaşdırılır:

- Məktəb fəaliyyət planı və təkmilləşdirmə planının olması;
- Məktəb direktorunun vəzifələri və məsuliyyətlərinin bölüşdürülməsi;
- Tədris proqramlarının (kurikulumlar) olması;
- Təlimin və tədrisin keyfiyyətinin yüksəldilməsi;
- Qiymətləndirmə mexanizmlərinin tətbiq edilməsi;

- Şagird nailiyyətlərinin artırılması;
- Təlim mühiti və strategiyaların öyrədilməsi;
- Təlimdə beynəlxalq təcrübənin tətbiq edilməsi;
- Xüsusi təlimə ehtiyacı olanların təliminin təşkil edilməsi;
- Pedaqoji kollektivin kvalifikasiyasının artırılması;
- Pedaqoji kollektiv arasında kommunikasiya əlaqələrinin yaradılması;
- Valideyn və şagird məmnunluğunun qazanılması;
- Müəllim peşəkarlığının artırılmasının təhlili və nəticələri;

### 2.1.4. Məktəbdə özünütəhlil prosesinin mərhələləri

Özünütəhlil prosesinin hazırlanması qaydaları monitorinq, sübutları araşdırma, təhlil, analiz, tənqid, təklif, planlaşdırma və son qiymətləndirmənin yazılması üzrə hazırlanır (Sxem 2.1):




**Sxem 2.1. Özünütəhlil prosesinin mərhələləri (OECD-2015)**

**Mərhələ 1:** Problemin müəyyən edilməsi

Bu mərhələdə:

- Məktəblər təlimata əsasən sorğuya cəlb olunur və təlimat qaydalarına müraciət edilir;
- Sorğuya diqqət yönəldilir və əsas istiqamətlər və standartlardan istifadə edilir;
- Məktəb icması tərəfindən tədqiqat sahəsi və ya araşdırılacaq sahələr müəyyən edilir;
- Məktəbdə daha çox vacib olan aktual sahənin təkmilləşdirilməsi qeyd olunur;
- Təkmilləşdiriləcək sahənin təlimatda hansı istiqamətə aid olduğu planlaşdırılır.

**Mərhələ 2:** Sübutların toplanması

Təlimatdan istifadə edilərək məktəblərdə qiymətləndirmə yanaşmaları nəzərə alınmalıdır. Tələb olunan sübut növləri qiymətləndirmənin nəyə istiqamətləndirilməyi və məktəbin qiymətləndirmədə istifadə etdiyi sahələr və standartlardan asılıdır. Sübutlar, ümumiyyətlə, müəllimlər, şagirdlər, valideynlər və məktəb müdiri də daxil olmaqla müxtəlif mənbələrdən toplanmalıdır (Şəkil 2.3).



**Şəkil 2.3. Fakt və sübutların toplanması**

Müəllimlər, şagirdlər, idarəedicilər və digər mənbələrdən kəmiyyət və keyfiyyət haqqında məlumatların toplanması aparılır. Araşdırılan sahə dəqiq müəyyən edildikdən sonra vacib və lazım olan dəlillər toplanır (dəlillər: Proqram keyfiyyəti dərslərdə metod və üsulların tətbiqi, əməkdaşlıq və qiymətləndirmə).

**Mərhələ 3:** Təhlil və əsaslandırma

Hər iki mərhələ üzrə toplanmış dəlillər təhlil edilməli, effektiv təminat aspektləri barədə mülahizələr aparılmalı və inkişaf etdirilməli olan sahələrin müəyyən edilməsi üçün məktəbdə şəxsi təcrübələrdən istifadə edilməlidir. Bu mərhələdə məlumatlar analizi üzrə ekspertlər tərəfindən təlimin və tədrisin keyfiyyətinə istiqamətləndirilən son rəy hazırlanır.

**Mərhələ 4:** Hesabat və təkmilləşdirmə planının hazırlanması

Məktəbdə artıq 3-cü mərhələdə müəyyən edilmiş inkişaf sahələrinə əsaslandırılaraq qısa hesabat və təkmilləşdirmə planı hazırlanmalıdır. Planda təkmilləşdirmə hədəflərinin və məktəbdə irəliləyişlərin əldə edilməsinə kömək ediləcək fəaliyyətləri detallaşdırılmalıdır (Şəkil 2.4).


**Şəkil 2.4. Təkmilləşdirmə yollarının araşdırılması**

Plan üzrə gözləntilər SMART modeli - spesifik, ölçüləbilən, əldə edilən, real, və vaxta əsaslandırılan (Specific, Measurable, Achievable, Realistic and Time-Bounded) üzrə müəyyən edilir. İnkişaf planının məzmunu, əsasən, aşağıdakı qaydada hazırlanır:

- Son üç il ərzində qoyulmuş hədəflərə nail olmaq;
- Fəaliyyətləri kimin həyata keçirəcəyini müəyyən etmək;

- İrəliləyişlərin həyata keçirilməsini monitorinq edən və nəzərdən keçirən şəxsi müəyyən etmək;
- Valideynlərin kömək edəcəkləri yolları qeyd etmək;
- Hədəfə nail olmaq üçün müddəti təyin etmək.

**Mərhələ 5:** Təkmilləşdirmə planı üzrə işin icrası

Bu mərhələdə prosesin ən vacib hissəsi kimi fərdi müəllimlər, fənn şöbələri və məktəb rəhbərlərinin arzuolunan inkişafının əldə edilməsi üçün razılaşdırılmış fəaliyyətlər həyata keçirilir. Bu mərhələ qiymətləndirmə baxımından hər məktəbdə fərqlidir. Sonda hesabat və plan məktəb ictimaiyyəti ilə müzakirə edilməli və təkmilləşdirmə planları tərtib edilməlidir. Planda aşağıdakı sahələrin inkişafı nəzərdə tutulur:

- İdarəetmə, tədris və təlim proqramlarının (kurikulumların) tətbiqi;
- Müəllimlərin təlimi, şagird layihələri, tədqiqat işləri və s..

**Mərhələ 6:** Fəaliyyətlərin izlənilməsi və nəticənin qiymətləndirilməsi

Bu mərhələ 5-ci mərhələ ilə sıx bağlıdır. Təkmilləşdirmə planı üzrə təyin edilmiş işlər məktəb tədbirlərinin yerinə yetirilməsində izlənilir. Bu zaman müəllimlərin və şagirdlərin təcrübələri, həmçinin, dəyişikliklərin öyrənilməsinə təsiri nəzərə alınmalıdır. Bəzən hədəflərin və fəaliyyətlərin dəyişdirilməsi və ya düzəliş edilməsini təklif edən sübutlar da ola bilər. Bütün bunlar təkmilləşmə prosesinin bir hissəsidir.

Nəticənin dəyərləndirilməsi üçün fəaliyyətin monitorinqinin aparılması vacib mərhələdir. Bu mərhələdə suallar qoyulur:

1. Təcrübədə hansı dəyişikliklər olub?
2. Müəllimin təcrübəsi bu dəyişikliklərə uyğundurmu?
3. Şagirdlərin bilik və təcrübələri bu dəyişikliklərə uyğundurmu?

### 2.1.5. Məktəbdə özünütəhlil prosesi üzrə rollar və vəzifələr

**Məktəbin özünütəhlil prosesində tərəflərin səciyyəvi rolları və vəzifələri vardır.**

**Məktəb direktorunun rolu aşağıdakılardan ibarətdir:**

- Məktəbdə özünüqiymətləndirmə çərçivə sənədinin - təlimatının hazırlanmasına nəzarəti;
- Məktəbdə pedaqoji heyətin fəaliyyətinin müntəzəm qiymətləndirilməsi;
- Bütün pedaqoji heyətin bu proses haqqında məlumatlandırılması;
- Məktəbin zəif və üstün cəhətlərinin müəyyən edilməsi;
- Qiymətləndirmədə valideyn və şagirdlərin fəaliyyətlərinin dəstəklənməsi və onlara şəraitin yaradılması;
- Məktəbdə özünüqiymətləndirmədə faktların və dəlillərin düzgünlüyünə nəzarətin edilməsi.

**Müəllimlərin rolu**

- Özünütəhlil prosesinin qiymətləndiriləcək istiqamətləri haqqında valideynləri məlumatlandırmaq;
- Təlim prosesinin təkmilləşdirilməsi üzrə inkişafa ehtiyacı olan sahələri müəyyən etmək.
- Məktəbdə özünütəhlil haqqında fikirləri həmkarları ilə bölüşmək;
- Özünütəhlildə təkmilləşdiriləcək aktual sahələr haqqında fakt və dəlillər toplamaq;
- Özünütəhlildə istiqamətlər üzrə standartlar və indikatorlar haqqında məlumatlı olmaq.

**Məktəbdə özünütəhlil prosesində şagirdlərin rolları**

- Şagirdlərin təlim mühiti və nailiyyətləri haqqında fikirlərini bildirmək (Şəkil 2.5):
- Məktəb sorğusunda iştirak etmək;
- Təlimin keyfiyyəti haqqında müzakirələrdə iştirak etmək;
- Məktəbdə özünütəhlil prosesinə dəstək vermək;
- Şagird parlamenti, şurası və akademiyası ilə əməkdaşlıq etmək;
- Məktəbdə özünütəhlil prosesinin inkişafına kömək etmək.



**Şəkil 2.5. Özünütəhlil prosesində şagirdlərin rolları**

**Məktəbdə özünütəhlil prosesində valideynlərin rolu**

- Məktəbin özünütəhlil sorğusunda iştirak etmək;
- Məktəb özünütəhlil prosesinin uyğun fəaliyyətlərində iştirak etmək;
- Məktəb özünütəhlildə təkmilləşdiriləcək aktual sahələr haqqında məlumat almaq;
- Məktəb özünütəhlildə təkmilləşdiriləcək sahələrə mümkün olan dəstək təklifləri vermək;
- Valideyn-məktəb assosiasiyasında özünütəhlil işi haqqında hesabat vermək.

Beləliklə, məktəb özünütəhlil prosesi və onun mərhələlərinin əlaqəli bir plan əsasında aparılması və keyfiyyətin təmin olunması üçün bir sıra demokratik prinsiplərin yerinə yetirilməsi, məsuliyyət, fəaliyyət və məlumatları əhatə edir. Sonda, şagird təlim nəticələrinin yaxşılaşdırılması və məlumatlandırılması üçün sistemli proseslər həyata keçirilməlidir.

## Tələbələr üçün fəaliyyətlər

**1. Kollektiv müzakirə**

Məktəbin özünütəhlil prosesi haqqında fikirlər və yeni ideyalar qeyd edin.

➢ Özünütəhlil prosesinə aid olan fəaliyyətləri açıqlayın.

*Problemlər, məlumatların toplanması, analiz, düzəlişlər, sübutlar, nəticələrin təhlili, planlaşdırma, zəif və üstün cəhətləri müəyyən etmək və ehtiyacları təmin etmək.*

**2. Qrup işi.** Özünütəhlil prosesi üzrə məqsədlər, rollar və vəzifələri müəyyən edin.

| Məktəb | Məqsəd | Rol | Vəzifə |
|---|---|---|---|
| Direktor | | | |
| Müəllim və şagirdlər | | | |
| Valideyn və icma üzvləri | | | |
| İşçi heyət | | | |

**3. Qrup işi.** 3 qrupa bölünərək özünütəhlil prosesinin həyata keçirilməsi üzrə tapşırıqları yerinə yetirin:

Tapşırıq 1. Məktəbdə özünütəhlil prosesinin tədrisin keyfiyyətinə təsirini qeyd edin;

Tapşırıq 2. Məktəbdə idarəetmənin və tədrisin inkişafının əsas sahələri, mövcud problemləri və inkişafı üzrə həllini müəyyən edin;

Tapşırıq 3. Məktəbdə özünütəhlil prosesi mərhələlərinin vacib fəaliyyətlərinin həyata keçirilməsi planını tərtib edin.




**4. Özünütəhlil mərhələləri üzrə fəaliyyətlər, onların faydası və verdiyi nəticəni qeyd edin:**

| № | Sahələr | Fəaliyyətlər | Faydası və nəticəsi |
|---|---|---|---|
| 1. | Problemin müəyyən edilməsi | | |
| 2. | Sübutların toplanması | | |
| 3. | Təhlil və əsaslandırma | | |
| 4. | Təkmilləşdirmə planı | | |
| 5. | Plan üzrə işin icrası | | |
| 6. | Nəticələrin qiymətləndirilməsi | | |

**5. Situasiyaların təhlili (Case study)**

Dərs ilinin əvvəlində şagirdlərin keçmiş uğurları ilə tanış olmaq pedaqoqlar və idarəçilər üçün çətin olur. Şagirdlərin, eləcə də valideynlərin dərs ilindən nə gözlədiklərinin anlaşılması ilə bağlı anket məlumatlarının tərtib edilməsi üçün nə etmək lazım olduğu qərarlaşdırılmır. Anket sorğuları üçün tədris, müəllimlər və proqram məzmunu haqqında əsas hansı məlumatların toplanmasında çatışmazlıqlarla üzləşilir.

Dəstək verən tərəfə hansı istiqamətdə və necə kömək etməyin yollarını hazırlayın. Sorğu nəticələrinə uyğun plan tərtib edin, dərslərin və proqram məzmununun inkişafa ehtiyacı olan sahələrini müəyyən edin. Məqsədlərinizi hədəflərə yönəldin.

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**Müəssisənin özünütəhlil prosesi və mərhələlərinin aparılması yollarını təsvir edir**

**1. Sualları cavablandırın və müzakirə edin:**

- Məktəb özünütəhlil prosesinin mahiyyəti və məqsədləri hansıdır?
- Özünütəhlil prosesində məktəb menecerinin rolu nədən ibarətdir?
- Məktəbin özünütəhlil prosesinin tətbiqi üzrə məsuliyyətlər necə bölüşdürülür?
- Məktəbin özünütəhlil mərhələlərinin sistemliliyi necə təşkil edilir?
- Özünütəhlil prosesi üzrə fəaliyyətlər necə həyata keçirilir?
- Məktəbdə təkmilləşdirici plan ilə strateji plan arasında nə kimi fərqlər vardır?

**2. Verilmiş cümlələri tamamlayın:**

Özünütəhlil prosesi məktəbdə ...

A) Şagird məlumat mənbələrinin qiymətləndirilməsidir;
B) Məlumatlar və təhlillər üzrə nəticələrin izlənilməsidir;
C) Məktəbdə tədrisin planlaşdırılmasıdır;
D) Müəllimlərin özünüqiymətləndirmə fəaliyyətidir.

**3. Davamlı özünütəhlil müəllim üçün nə deməkdir?**

A) Şagirdə mövzu məzmununun necə başa düşülməsini öyrətmək;
B) Şagirdə ünsiyyət bacarıqlarının necə inkişaf etdirilməsini öyrətmək;
C) Şagird müvəffəqiyyətlərinə kömək etmək üçün fərqli strategiyalardan istifadə edərək şagirdlərə dərs keçmək;
D) Şagird müvəffəqiyyətinə kömək etmək üçün fərqli test nəticələrindən istifadə edərək şagirdlərə dərs keçmək.

**4. Test. Düzgün cavabı seçin:**

Özünütəhlil prosesi məktəbdə ...

A) Şagird məlumat mənbələrinin qiymətləndirilməsidir;
B) Məlumatlar və təhlillər üzrə nəticələrin izlənilməsidir;
C) Məktəbdə tədrisin planlaşdırılmasıdır;
D) Müəllimlərin özünüqiymətləndirmə fəaliyyətidir.

**5. Hərtərəfli özünütəhlil şagird üçün nə deməkdir?**

A) Akademik mövzularda daha çox uğur qazanmağı öyrənmək;
B) Sinif fəaliyyətlərində ümumi bir nəticə əldə etmək;
C) Test nəticələrində daha böyük uğur qazanmağı öyrənmək;
D) Bir-biri ilə rəqabət aparmaq üçün təlimdə interaktiv metodları yerinə yetirmək.

## 2.2. Özünütəhlil prosesinin nəticələrinə uyğun hesabatlılığın həyata keçirilməsi yollarını izah edir

### 2.2.1. Təhsil müəssisəsində hesabatlılığın təmin olunması

Hesabatlılıq prinsipi məktəblərdə şagirdlərin, müəllimlərin və idarəçilərin nailiyyətləri barədə hesabat verilməsi prosesidir. Hesabatlılığın təminatı fəaliyyətlərin təkmilləşdirilməsində istifadə olunan təcrübələrin məcmusu, müəllim və şagirdlərin fəaliyyətinə nəzarət edən bir vasitədir (Şəkil 2.6).



**Şəkil 2.6. Məktəbdə hesabatlılıq prosesinin təşkili**

Keyfiyyətin yüksəldilməsində hesabatlılığın təminatı informasiya texnologiyalarından səmərəli istifadəyə əsaslanır. İnformasiya texnologiyaları məktəb fəaliyyəti üzrə tapşırıqların icrasına nəzarətin mərkəzləşdirilməsi və real vaxt rejimində interaktiv rabitə şəbəkələrinin əlaqələndirilməsini asanlaşdırır.

Məktəb idarəçiliyində aparılan tədqiqatlar göstərir ki, idarəçilər arasında məlumatların təhlil edilməsi bacarıqlarının olmaması, İKT-yə əsaslandırılan idarəetmə vasitələrindən istifadəsi zamanı təlimin zəif olması və məktəbdə test nəticələrinin təhlil edilməsi üçün istifadə olunan proqramların olmaması məlumatların idarə olunmasında hesabatlığı təmin edə bilmir. Bu baxımdan məlumatların idarə olunmasında texnoloji bilik və bacarıqların artırılması prioritet sahələrdən biridir və aşağıdakı məqsədləri daşıyır:

- Məktəb idarə olunmasına dair məlumatların əldə edilməsi;
- Səmərəli idarəetmə və məktəb resurslarından istifadə olunması;
- İş yükünün azaldılması və vaxtın daha yaxşı idarə olunması;
- Məktəblərdə iştirak monitorinqi və qiymətləndirmə qeydləri;
- Hesabat, maliyyə menecmenti və iş bölgüsünün aparılması;
- Bir sıra inzibati fəaliyyətlərə dəstəyin təmin olunması;
- Məktəbə qəbul, sinif təminatı və müəllimlərdən şagirdlər və valideynlərə məlumatın verilməsi;
- Məktəbdə sənədləşmə işinin səmərəliliyinin artırılması;
- Hesabatların keyfiyyətinin yaxşılaşdırılması.

Hesabatlılıq iki mənada - hesablama aparma və hesabat vermə kimi də başa düşülə bilər və məktəbdə hər kəsin yüksək təhsil standartlarına cavabdeh olması deməkdir. Burada müəssisənin keyfiyyət göstəriciləri üzrə nəticələrin təhlili prosesində məlumatların ümumiləşdirilməsi, emal edilməsi və hesabatlılıq başa düşülür.

### 2.2.2. Məlumatların idarəolunma sistemi (MİS)




Şəkil 2.7. Məktəbdə hesabatlılığın təşkili

Məlumatlarım idarəolunması sistemində (MİS) məktəbdə kompleks bölgü problemlərinin (məsələn, işçilər arasında fəaliyyətin bölüşdürülməsi, resurs bölgüsü və vaxt cədvəli) həllinə çox vaxt sərf edən məktəb rəhbərlərinə çevik imkanlar yaradılır. MİS sahəsində baş verən problemlər üzrə dinamik fəaliyyətlər, qrafik və izləmə vasitələri müəyyən vaxt çərçivəsində həyata keçirilir (Şəkil 2.7).

Məktəb fəaliyyətində monitorinq və qiymətləndirmənin həyata keçirilməsində məlumatların idarə olunması inkişaf etdirilmiş texnologiya sayəsində daha yaxşı seçimlərə malik olur və aşağıdakı fəaliyyət sahələrində istifadə oluna bilər:

- Şagirdlərin, pedaqoji və işçi heyətinin məlumatlarını saxlamaq;
- Dövlət tərəfindən təklif olunan təhsil proqramlarının icrasını izləmək;
- Şagirdlərin hərəkətləri və öyrənmələri üçün məsuliyyət götürmək;
- Təhsil qaynaqlarının paylanması və bölgüsünü idarə etmək;
- Akademik göstəricilər və nailiyyətləri yaxşılaşdırmağa kömək etmək;
- Fərdi şagirdlərin və sinif kollektivinin uğurlarını tez bir zamanda təhlil etmək;
- Məlumatlandırma strategiyalarının təsiri ətrafında sübutlar vermək;
- Dəyişikliklərin uğurunu izləmək və ən yaxşı təcrübəni məktəbdə bölüşmək.

Hesabatlılığı inkişaf etdirmək üçün ilk olaraq tədqiqat strategiyalarını gücləndirmək lazımdır. Bu strategiyalara məktəb fəaliyyətinin araşdırılması, məlumatların toplanılması və təhsildə yaradılmış çatışmazlıqların aradan qaldırılması yollarının izah edilməsi daxil edilir. Toplanılan məlumatlar təhlillərin əsaslandırılması və şərhlərin aparılmasında istifadə olunur, nəticədə, hesabatın inandırıcı və təsirli olmasına gətirilib çıxarır. Məlumatın əldə olunması üçün ən çox yayılmış tədqiqat metodu məktəb sənədlərinin nəzərdən keçirilməsi, məktəb kollektivi və icma nümayəndələri ilə söhbətlərin təşkili, hədəf qrupları ilə müsahibələrin aparılması, fərdi görüşlər və elektron sorğular daxildir. Məlumatların araşdırılmasına daxil olan fəaliyyətlər aşağıdakılardır:

1. Məlumatların toplanması üçün ilkin (sənədlər, sorğular və cədvəllər) və ikinci araşdırma üsulları (internet məlumatları) daxil edilir;
2. Məlumat toplama və məlumatlandırma, məktəb kollektivi, valideyn və şagirdlərin gələcək imkanlarının yaradılması üçün ən güclü vasitələrdən biridir;
3. Məlumatlarda icma daxilindəki məktəb fəaliyyətlərinin müqayisə edilməsinə kömək edilir.

Hər məktəbdə ümumiləşdirmələrin və məlumatların toplanması yolları aşağıdakı kimi təklif olunur:

1. Şagirdlərin dərsdə iştirakları üzrə aparılan qeydlər;

2. Müəllimlərin giriş vaxtı və cədvəl üzrə fəaliyyətləri;
3. İş vaxtına riayət etmə üzrə rəsmi cədvəllərin qeydiyyatı;
4. İmtahan nəticələrinin qeydiyyatı;
5. Müəllimlərin fənlərə aid şagird portfoliosu;
6. Davranış qaydalarına əməl etmə;
7. Cəza qaydalarının tətbiqi.

### 2.2.3. Məlumatların toplanma mənbələri

Texnoloji irəliləyişlərin əldə olunmasına baxmayaraq, MİS-i məlumatlanma tələblərini müəyyənləşdirməkdə çətinlik çəkir. MİS üzrə araşdırmalar göstərir ki, əvvəlcə qərar qəbuletmə üzrə istiqamətlər müəyyənləşdirilməli, maraqlı tərəflərin məlumat ehtiyacları göstərilməli və bu fəaliyyət məkanında mövcud olan və ölçülə bilən məlumatlar seçilməlidir.

Aşağıdakı cədvəl 2.1-də məktəbin hər bir təhsil səviyyəsində maraqlı tərəflərin məlumat ehtiyaclarına uyğunluğu təqdim olunur. Yalnız bu dərəcədə detallı olaraq məktəblərdə məlumatlara əsaslandırılan qərar qəbuletmə sisteminin əhatəsi təsvir edilə bilər.

| № | Səviyyə | Maraqlı tərəflər | Lazım olan məlumatlar |
|---|---|---|---|
| 1. | Siniflər | Müəllimlər<br>Şagirdlər | • Ayrılmış təlimat məlumatları (şagirdlər);<br>• Siniflər, test balları və portfolio;<br>• Davamiyyət və gecikmələrin izlənilməsi. |
| 2. | Məktəb | Direktor<br>İdarəçilər | • Ümumi təlimat məlumatları (sinif və mövzu);<br>• Sinif və test balları;<br>• Davamiyyətə nəzarət və məktəbdən uzaqlaşdırılanlar haqqında qərar qəbul edilməsi;<br>• Ümumi inzibati məlumatlar (sinif və mövzu);<br>• Sinif cədvəlinin koordinasiya edilməsi;<br>• Xüsusi təhsil və proqramların cədvəli;<br>• İnsan resurslarının bölüşdürülməsi;<br>• Peşəkar inkişaf;<br>• Maliyyə və büdcə. |
| 3. | Ərazi bölgə | Rəhbərlər<br>İdarəçilər | • Məktəblər üzrə ümumi təlimat və məlumatlar;<br>• Məktəblər üzrə ümumi inzibati məlumatlar;<br>• Xarici qiymətləndiricilərin məlumatları. |
| 4. | Məktəb mühiti | Valideynlər<br>Yerli icma | • Şagirdlər üçün hazırlanmış proqram məlumatları;<br>• Məktəblər üzrə ümumi məlumatlar. |

**Cədvəl 2.1. Maraqlı tərəflərin məlumatlarının ehtiyacları (Feldman and March, 1988)**

**Şagird məlumat sistemi** üzrə məlumatların toplanmasına dair məsul şəxslərin vəzifələri:

1. Məktəbə qəbulun idarəetməsi - qəbul prosesi ilə əlaqəli bütün prosesə diqqət

yetirilir;

2. Şagirdlərin iştirakını izləyən qiymətləndirici – şagirdlərin, müəllimlərin və digər işçilərin davamiyyətinin izlənilməsi və idarə edilməsinə kömək edir;
3. Qiymətləndirmə eksperti - müəllim və şagirdlərə qiymətləndirmə materiallarının bölüşdürülməsi və onları onlayn təqdim edilməsinə imkan verir;
4. Əlaqə məlumatları – şagirdlərin və işçi heyətin əlaqə məlumatları idarə edir;
5. İmtahan üzrə koordinator - imtahan sənədləri, şagirdlərin qiymətləndirilməsi, imtahan vaxtı cədvəlləri və imtahan yerləri idarə edir;
6. Qiymətləndirmə və akademik uğur - akademik nailiyyət hesabatları yaradır;
7. Kitabxana idarəetməsi - kitabxanada idarəetmə prosesi avtomatlaşdırır.

**“OLAP” Metodu (Onlayn Analitik Proses)**

MİS məlumatların alınması üçün qabaqcıl OLAP metodu (məlumatların çıxarılması və OLAP - Online Analitik Proses kimi) hesabatlılığın təmin olunmasında ən müasir metodlardan biri kimi tətbiq olunur. Buraya aşağıdakı proseslər daxildir:

**Ümumi məktəb profili üzrə onlayn məlumat sistemi (Şəkil 2.8)**



**Şəkil 2.8. Məktəbdə hesabatlılığın təşkili**

- Açıq müsahibələr, ziyarətlər, şagirdlər və ailələr üçün hər hansı digər görüşlər üçün onlayn qeydiyyat;
- Çevik onlayn sorğu forması (məsələn, surveymonkey model);
- Onlayn ərizə statusu və tələb olunan sənədlərin nəzərdən keçirilməsi;
- Onlayn müəllim məsləhətləri, rəyləri və demo dərslər;
- Müəllim tövsiyəsi üzrə şərh və təkliflər;
- Müraciət hüququ, test nəticələri və müsahibə nəticələri;
- Elektron müraciət edənlərin reytinqi və qərar prosesi;
- Çevik ödəniş planları və maliyyə yardımı seçimləri;
- Onlayn qeydiyyat və yenidən qeydiyyat formaları;
- E-poçt kampaniyaları və kütləvi paylaşma;
- Maliyyə yardımının idarə edilməsi;
- Şagird və müəllimlərin analitik və hesabat alətləri.

**Məktəb üzrə məlumat onlayn idarəetmə sistemi**

- Cəmiyyətin bütün üzvlərinə məktəbin idarəetmə bazası proqramının yaradılması;
- Bütün məktəb kollektivinin onlayn qeydiyyatdan keçirilməsi və şəxsi hesabların açılması;
- Məlumatların idarə olunmasında iştirak edən menecer və digər texniki kadrların müəyyən edilməsi;

- Ümumi vebsaytın daxili portallarında direktor, müəllim, şagird, valideyn və məzunlar arasındakı ardıcıl planın hazırlanması;
- Onlaynda iştirak etmə üçün vaxt cədvəlinin təyin edilməsi və vaxtında iştirakın təmin edilməsi;
- Məktəbdəki rolundan, maraqlarından, qeydiyyatdan və iştirak səviyyəsindən asılı olaraq izləyicilərə xüsusi bir təcrübə təmin edilməsi üçün hazırlanmış vasitələrin verilməsi.

**İcma ilə onlayn əlaqə mənbələri**

Veb-sayt məlumatlarının toplanması üzrə icma bağlantısı - şagirdlər, müəllimlər, məzunlar, idarə heyəti üzvləri, dostlar və könüllülər daxil olunmaqla bütün dairə üçün bir platforma yaradılır (Şəkil 2.9).




**Şəkil 2.9. Məktəbdə məlumatların idarəetmə sistemi**
**(https://www.google.com/search?q=school+information+management&tbm)**

Müvafiq platforma aşağıdakı informasiyanı əhatə edir:

- Qəbul üçün onlayn ərizələr;
- Onlayn dərs proqramı;
- Cədvəllər, sinif siyahıları və onlayn kurs seçimi;
- Davamiyyət və intizam haqqında məlumatlar;
- Kitablar və digər ədəbiyyat nümunələri;

- Onlayn kitabxana və elektron kataloqlar;
- Tapşırıqlar, ev tapşırıqları və elektron tapşırıq təqdimatı;
- Onlayn imtahanın keçirilməsi və qaydaları;
- Dərslər, dərslik dəftəri, hesabat kartları və şərhlər;
- Şagirdlər tərəfindən göndərilən qısa hesabatlar;
- Əlavə məlumatlar xəbərlər, şəkil qalereyaları və tədbirlərin qeydiyyatı.

**Şagirdlərin onlayn məlumatlandırılması**

İstifadəçilərə şagird məlumatlarının idarə edilməsi və akademik qeydlər, şagirdlər, valideynlər və bütün icma ilə aşağıdakı xüsusiyyətlərdən istifadə edilərək etibarlı şəkildə bölüşdürülməsi üçün təhlükəsiz və qorunan bir yer təmin edilir.

Onlayn məlumatlandırmaya aşağıdakı fəaliyyətlər daxildir:

- Elektron jurnalda aparılan onlayn qiymətləndirmə;
- Onlayn davamiyyət və intizamın idarə edilməsi;
- Sinif hesabatları və şərhlərin nəzərdən keçirilməsi;
- Xüsusi şagird bloqları və layihələrdə iştirakın təmin olunması;
- Məlumatların araşdırılması üzrə çevik hesabat;
- Dərslərin və imtahan vaxtlarının planlaşdırılması;
- Onlayn sağlamlıq formalarının doldurulması, immunizasiya qeydləri və tibb məntəqəsinin vəziyyəti;
- Sağlamlıq problemləri olan şagirdlər haqqında məlumatlar;
- Tibbi və digər razılıqların təmin edilməsi və tələb olunan formaların doldurulub yüklənməsi.

Ümumi təhsil müəssisələrində hesabatlılıq çox vacib bir addım kimi məlumatların toplanması və tədqiqatın aparılmasına əsaslanır və bu da təlim nəticələrinə əhəmiyyətli dərəcədə təsir göstərir. Hesabatlılıqda məlumatların onlayn idarə olunması tədrisin optimallaşdırılması və məktəb kollektivi ilə icma arasında çevik məlumatlandırmanı təmin edir. Həyata keçirilən hesabatlılıq sonda məktəb kollektivinə və icmaya təlim nəticələrinə uyğun inkişaf dinamikasının necə yüksəlməsini təqdim edir. Hesabatlılıq nəticə olaraq, şagird məlumat sisteminin yaradılmasının, onların gələcək karyera imkanlarına yol açması, və tədrisdə şəffaflığı təmin edir.

## Tələbələr üçün fəaliyyətlər

1. **Qrup işi.** Tələbələri 3 qrupa bölün və üç ayrı məktəb idarəçiliyinə dair problem situasiya hazırlayın.

- Müəllimlər haqqında valideynlərin məlumatları çox azdır və fənnin tədrisi sahəsində yeniliklərdən məlumatları yoxdur. Valideynlərə müəllimlər və tədris mövzuları haqqında məlumatlandırma mənbəyi hazırlayın.
- Məktəb direktoruna dərs ilinin sonu üçün tədris proqramı (kurikulum) və müəllim inkişafı haqqında hesabat vermək üçün məlumatlar lazımdır. Direktorun məlumatlandırma mənbələrinin əldə olunması yollarını göstərin.
- Müəllimin fənninin tədrisi səviyyəsi üzrə şagirdlər haqqında hesabata daxil olunan sahələr və məlumat mənbələrini müəyyən edin.

2. **Rollu oyun.** "Mənim uğurlu hesabatım"



A. Şagirdlər: Öz təlim məsuliyyətləri haqqında hesabat hazırlayır və təqdim edirlər.

B. Müəllimlər: Şagird maraqları və təlim nailiyyətləri üzrə hesabat hazırlayır və birlikdə auditoriyada təqdim edirlər.

Qarşılıqlı şəkildə problemlər, qərarların qəbulu və faydalı mənbələr haqqında suallar hazırlanır və cavablar dinlənilir.

3. **Cütlər şəklində iş.** Hesabatlılıq üzrə problemləriniz üçün fəaliyyət planı hazırlayın:

| Nəyi yerinə yetirəcəyəm? | Nə zaman yerinə yetirəcəyəm? |
|---|---|
| 1. ____________________ | 1. ____________________ |
| 2. ____________________ | 2. ____________________ |
| 3. ____________________ | 3. ____________________ |
| 4. ____________________ | 4. ____________________ |

4. **Qrup işi.**"OLAP" metodu üzrə məktəbdə hesabatlılığın təmin olunmasında problemlər və onların həll olunmasında təqdim olunan mənbələr və yeni yanaşmaların əhəmiyyətini şərh edin.

| Sahələr | Problemlər | Həlli üzrə mənbələr |
|---|---|---|
| İdarəetmə və strateji planlaşdırma | | |
| Direktorun fəaliyyətləri | | |
| Tədris proqramları | | |
| Müəllim fəaliyyəti | | |
| Şagirdlərin nəticələri | | |
| İşçi heyətin fəaliyyəti | | |

## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz

**Özünütəhlil prosesinin nəticələrinə uyğun hesabatlılığın həyata keçirilməsi yollarını izah edir**

**1. Verilmiş sualları cavablandırın və suallar əsasında məktəbdə özünütəhlil prosesin həyata keçirilməsini müzakirə edin:**

- Təhsildə hesabatlılıq nə deməkdir və hansı sahələri əhatə edir?
- Məktəbdə hesabatlılığın təmin olunmasında hansı problemlər vardır?
- Məktəb fəaliyyətində daha çox hansı proses dəyərləndirilir və nə üçün?
- Məktəbin hansı məlumatları dövlət təhsil orqanlarının hesabatında verilir?
- “OLAP” metodu üzrə məlumatlandırma digər məlumat idarə olunmasından necə fərqləndirilir?

**2. Sözlərdən istifadə edib verilmiş fikirləri tamamlayın:**

1. Hesabatlılığın təminat sistemi _________ nailiyyətlərinin artırılmasına xidmət edir.
2. _________ irəliləyişlər məlumatların idarə olunma sisteminin səmərəliliyini artırır.
3. Onlayn analitik proses çevik _________ üsuludur.
4. Elektron formada müraciət edənlərin _________ prosesinə dərhal qoşulurlar.
5. Sinif fəaliyyətləri, elektron jurnal və imtahan nəticələri _________ məlumatlandırır.
6. Elektron tapşırıq təqdimatı, davamiyyət və intizam haqqında şərhlər _________ ilə onlayn məlumatlandırma nümunəsidir.

a. Qərar vermə;
b. Təhsilalanlar;
c. İcma;
d. Texnoloji;
e. Məlumatlandırma;
f. Şagirdlər.

**3. Məlumatların toplanması, təşkili və təhlili özündə nəyi cəmləşdirir?**

A) Ölçmə;
B) Statistika;
C) Qiymətləndirmə;
D) Test.

**4. Məktəb hesabatlılığının ən yaxşı nümunəsini seçin.**

A) Məktəb tədris proqramının yeni məzmunu və tətbiqi yolları;
B) Sinifdə müəllimlərin səmərəli fəaliyyəti və özünüqiymətləndirmə;
C) Şagirdlərin təlim nəticələrinə uyğun imtahan nəticələri və qeydləri;
D) Şagirdlərə fərdi məsləhətlərin vaxtında verilməsi;
E) Məktəb idarəçilərinin nəzarət planının hazırlanması.

**5. Onlayn məlumatlandırmaya aid OLAMAYAN cavabı seçin.**

A) Şagirdlərin davamiyyət və geri qalma səbəblərinin şərhi
B) Məktəb pedaqoji şurasının kollektiv iclasının hazırlanması
C) Məktəbin beynəlxalq layihələrə qoşulması yolları
D) Valideynlər tərəfindən göndərilən sənədlərin təsdiqi

## 2.3. Müəssisənin özünütəhlil nəticələri üzrə dövri hesabat hazırlayır

### 2.3.1. Dövri hesabatın hazırlanmasının məqsədləri

Ümumi təhsil müəssisələrinin özünütəhlil prosesini və akademik fəaliyyətini yekunlaşdıran bir forma və yekun sənəd Dövri Məktəb Hesabatı (DMH) hesab edilir. Məktəbin özünütəhlil prosesi sonda hesabat şəklində məktəbdə qiymətləndirmə məlumatları, məsləhətlər və dəstək vermə üçün təqdim olunur. Dövri hesabat dedikdə, məktəbdə fəaliyyət mexanizminin həftəlik, aylıq, yarım illik, illik və yekun çıxışı nəzərdə tutulur. Məktəb tərəfindən təqdim olunan dövri hesabat qeyd olunan dövrdə daxili özünütəhlil prosesində keyfiyyətin əldə edilməsi məqsədinə çatmaq üçün tərəqqi hesabatı adlandırılır (Şəkil 2.10). Dövri hesabat keyfiyyət təminedicisi kimi dinamik olaraq növbəti dövr üçün qərar qəbuletmə prosesinə əsas verir və aşağıdakı məqsədlərə xidmət edir:

- Fəaliyyətlərin sistemli və tamamlayıcı təhlilini aparmaq;
- Məlumatlar əsasında məktəbin güclü və zəif tərəflərini göstərmək;
- Daxili qiymətləndirmənin etibarlılığı və faydalılığını aşkara çıxarmaq;
- Faktların və dəlillərin düzgünlüyü və etibarlılığına zəmanət vermək;
- Məktəbdə tədris təminatının inkişafına kömək etmək;
- Dəyişikliklər və mükəmməl hədəfləri təqdim etmək;
- Ən yaxşı nümunələr və təcrübəni təsdiqləmək və tövsiyələr vermək.



**Şəkil 2.10. Məktəbdə dövri hesabatın məqsədi**

Dövri hesabat bütün məktəb icmasının üzvləri, məktəbdə qiymətləndirmə eksperti, liderlik təhsili və tədrisi, şagirdlərin dünyagörüşü və valideynlərin iştirakı və təhlili kimi qəbul edilir. Daxili özünütəhlil zamanı qiymətləndirici ekspertlər aşağıdakı sahələrin araşdırılmasını hazırlayırlar:

- Məktəb rəhbərliyi və səmərəli idarəetmə mexanizmləri;
- Tədris-təlimin təşkili və keyfiyyət göstəriciləri;
- Əvvəlki qiymətləndirmələrdən əldə edilən tövsiyələrin yerinə yetirilməsi;
- Məktəbin özünüqiymətləndirmə proses və inkişaf potensialının müəyyən edilməsi.

### 2.3.2. Məktəbdə dövri hesabatın hazırlanma strukturu

Hesabat bir sənəd kimi məktəb cəmiyyətinin və tapıntıların xülasəsidir. Müəyyən edilmiş dövrlərdə aşağıdakı istiqamətlər tədris və təlimin məktəblərdə dövri olaraq özünüqiymətləndirməsi aparılır və hesabat şəklində beş əsas hissəyə bölünür: xülasə, giriş,

məxfilik anlayışı, məlumat nəzarəti, nəticələr və tövsiyələr. Ümumiyyətlə, hesabat, adətən, dörd elementdən ibarətdir:

1. Xülasə - hesabatın qısa məzmunu və məqsədini əhatə edir;
2. Giriş hissəyə - məruzə üçün bir kontekstin təqdim edilməsi və məzmunun quruluşu, məqsədlərin qeyd edilməsi daxildir;
3. Əsas hissəyə - məktəbin məqsədləri, vizyonu və gələcək uğurlarını, təhlükələri görmə qabiliyyətinin əsas xüsusiyyətləri barədə məlumatın verilməsi; tədrisin təminat dairəsi, məktəbdə işçi heyəti və son araşdırmadan sonra edilən dəyişikliklər (məsələn, yenidən qurulma, fiziki ehtiyatlar və s.) barədə qısa bir məlumatlar hesabat üzrə əsas problemlər, onları yaradan səbəblərin araşdırılması, statistik məlumat və müqayisəli fikirlərin təqdimatı daxildir;
4. Nəticə - hesabatın müxtəlif elementlərinin dəqiq və qısa şəkildə bir yerə toplanması. Hesabat qeydlərinə daxildir:
   - Şagirdlər və valideynlər haqqında məlumatlar;
   - Məktəbdə şagirdlərin son göstəriciləri;
   - Qiymətlər, test balları və intizam hesabatları;
   - Sağlamlıq və immunizasiya qeydləri;
   - İştirak sənədləri və məktəblərin əlaqəsi;
   - Keçirilən təlim və mükafatlar.

Məktəbin qiymətləndirilməsi üzrə hesabatın hazırlanması müəyyən edilmiş standart qayda və struktura uyğun hazırlanır. Hesabat və məktəb fəaliyyətinin qiymətləndirilmə səviyyəsi - mükəmməl, uğurlu, yaxşı və kafi kimi elan edilir.

### 2.3.3. Dövri hesabatın hazırlanması bölmələri

**Bölmə 1: Giriş**

Özünütəhlil prosesindən sonra dövri hesabatın hazırlanması üçün istifadə olunan prosesin qısa təsviri girişdə verilir. Buraya şagirdlərlə yanaşı, eyni zamanda prosesə kimin cəlb olunduğu barədə məlumat daxil edilməlidir. Dövri hesabatın bu hissəsində məlumatlandırma üçün tədris və təlim, uşaqların dünyagörüşü, və bütün məktəb qiymətləndirməsinin son nəticələri təhlil edilir.

**Bölmə 2: Məktəbdə tədrisin məqsədi üzrə qeydlərin yazılması**

Buraya məktəbin məqsəd və məzmununun xüsusiyyətləri barədə məlumat verilir:

1. Məktəbin ümumi məqsədi, təlimin və tədrisin inkişaf strategiyası ilə əlaqəsinin ətraflı olması;
2. Məktəbdə tədris sahəsində tətbiq edilmiş strategiyaların və yanaşmaların effektivliyi barədə məlumatların daxil edilməsi;
3. Məktəbdə fiziki ehtiyatların nəzərdən keçirilməsi, resursların təminatı, işçi heyətin fəaliyyəti və son araşdırmalar üzrə əldə edilən dəyişikliklər (məsələn, infrastruktur, səmərəli təlim mühiti və s.) barədə qısa bir məlumatın daxil edilməsi;

4. Məktəbin tədris keyfiyyətinin artırılması üçün strateji yanaşma ilə bağlı ətraflı məlumatın verilməsi (Şəkil 2.11).



**Şəkil 2.11. Məktəbdə dövri hesabatın məqsədi**

**Bölmə 3: Şagird fəaliyyətinin inkişaf etdirilməsi**

Nəzərdən keçirilən dövrdə məktəbə qəbul, sinifdə saxlama və müvəffəqiyyət nisbətinin təhlili verilir. Buraya aşağıdakılar daxil edilməlidir:

- Təqdim olunan dövrdə şagirdlərin sayı;
- Şagird populyasiyasının tərkibi və əsas tendensiyaları;
- Məktəbdə işə qəbulla bağlı yeni yanaşmalar;
- Məktəbdə yerləşdirilmə və irəliləmə dərəcələri;
- Ali təhsil müəssisələrinə qəbulla bağlı məlumatlara görə məzunların təyin olunması;
- Şagirdlərə dəstək və yeni pedaqoji yanaşma ilə bağlı bərabərlik və müxtəlif dəstəklər müəyyənləşdirilir.

**Şagirdlərə dəstək mexanizmi haqqında qeydlər**

Burada məktəbdə şagirdlərə dəstəyin verilməsi mexanizmləri barədə aşağıdakı ətraflı məlumatlar daxil edilir:

- Məktəb şagirdlərini dərslərə motivasiya edən cəhətlər barədə təhlillər verilir;
- Şagirdlərə beynəlxalq təcrübə nümunələri üzrə yeni yanaşmalar qeyd edilir;
- Təlimdə 21-ci əsrin mövzularına geniş yer verilir və onların təsiri barədə fikirlər daxil edilir;
- İnklüziv şagirdlərə xüsusi dəstək mexanizmlərinin tətbiqi üzrə müəllimlərin və idarəçilərin rolu izah edilir;
- Məktəbdaxili qiymətləndirmə, rəyvermə mexanizminin tətbiqi və effektivliyi barədə təhlillər verilir;
- Sinif nümayəndələrinin rolu və şagird məsləhət şurasının səmərəliliyi, məktəb və icma araşdırmasının rolu və rəylərin verilməsi haqqında məlumatlar daxildir;
- Şagirdlərin təlim təcrübəsinin artırılması üçün yeni yanaşmaların effektivliyi barədə növbəti addımlar qeyd olunur.

**Bölmə 4: Təlim və tədrisin gücləndirilməsi**

Bu bölmədə təlim və tədrisin artırılması üçün məktəbin yanaşması üzrə məlumatlar yazılır.

1. İlk olaraq tədris proqramı və təlim nəticələri haqqında məlumatlar daxil edilir:
   - Proqramın tərtibatı və inkişafı (kurikulumda mövzunun inkişaf etdirilməsi);

- Təqdim olunan təlim nəticələrinə yanaşma;
- Praktikaya əsaslandırılan təlim və qiymətləndirmənin tələblərə cavab verib-verməməsi;
- Təlim və tədrisdə texnologiyanın inkişaf etdirilməsi və tətbiqi üsulları.

2. Məktəbin qiymətləndirmə və rəylərə münasibəti və effektivliyi aşağıdakı kimi qeyd edilir:
   - Qiymətləndirmə metodlarının növləri;
   - Qiymətləndirmə prinsipləri ilə əlaqə;
   - Şagird qiymətləndirməsi ilə bağlı rəylərin alınması;
   - Formativ və summativ qiymətləndirmə balansı;
   - İmtahan prosesinin təşkili və nəticələri barədə məlumatlar (Şəkil 2.12).




**Şəkil 2.12. Hesabatda qiymətləndirmə məlumatları**

3. Yaxşı təcrübə sahələri müəyyənləşdirilir və məktəbdə yaxşı təcrübənin yayılması və genişləndirilməsi üçün yeni addımların atılması vurğulanır. Məktəbin tədrisdə inkişaf etdirməyə olan yanaşmasının effektivliyi qeyd olunur.
4. Məktəbdə işçi heyətə verilən dəstəyin təhlili verilir:
   - Sınaq və erkən karyera inkişafına dəstək;
   - Peşəkar karyera imkanı davamlı dəstək və inkişaf;
   - Müəllim köməkçiləri üçün dəstək və təlim.

Bu bölmədə məktəbdə tədris üçün mənbələr, kadr və fiziki resurslar kimi mövzular da qeyd edilir.

**Bölmə 5: Hesabatın hazırlanmasında əsas sahələr (Şəkil 2.13)**

Məktəbdə tədrisin keyfiyyəti və şagirdlərin nailiyyətlərinin təmin edilməsi üçün tətbiq olunan yanaşmalar qısaca izah edilir:

- Tədris və proqramın təsdiqlənməsi;
- Proqramın monitorinqi və illik hesabat;
- Beynəlxalq qiymətləndirmə;
- Şagirdlərlə əlaqə;
- Mövzular haqqında məlumatlar;
- Məktəbdə Milli Kvalifikasiyalar Çərçivə sənədinin tətbiqi (MQÇS).



**Şəkil 2.13. Hesabatda akademik yanaşmalar**

Məktəbin akademik standartlarının təmin edilməsi üçün tədbirlərin səmərəliliyi vurğulanır.

**Bölmə 6: Maraqlı tərəflərlə birgə fəaliyyət**

Maraqlı tərəflərlə aparılan işlərin xülasəsinə ortaq fəaliyyətin əsas xüsusiyyətləri və təminat çeşidini göstərən strateji prioritetlər daxil edilir.

- Məktəbin əməkdaşlıq proqramlarında şagirdlərin qazandıqları nailiyyətlərin yüksəldilməsi üzrə məlumatlandırma haqqında aşağıdakı qeydlər daxil edilir:
  - Şagirdlərin yerləşdirilməsi və saylarının düzgün müəyyən edilməsi;
  - Şagirdlərin məktəbə qəbulu və sinifdən-sinfə keçirilmə dövründə dəstəklənmələri;
  - Bərabər imkanlar və müxtəlifliyin dəstəklənməsi.
- Birgə fəaliyyətə gəlincə, məktəbin öyrənmə və tədrisinin necə inkişaf etdirildiyi qeyd edilir. Burada əks olunmalıdır:
  - Proqram (Kurikulum) tərtibatı;
  - Şagird fəaliyyəti üzrə müşahidələrin aparılması;
  - Qiymətləndirmə və effektivliyi;
  - Təlim və tədris üçün resurslar;
  - İşçi heyətinin cəlb edilməsi və dəstəklənməsi.
- Məktəbin birgə tədris standartlarını necə təmin edildiyi göstərilir.
- Məktəbdə əməkdaşlıq fəaliyyətinin idarə olunmasına münasibətin səmərəliliyi barədə fikirlər qeyd olunur.

**Bölmə 7: Güclü və inkişafa ehtiyac duyulan tərəflərin xülasəsi**

Məktəbin keyfiyyət təminatında, xüsusilə uğurlu hesab olunan və ya ən yaxşı təcrübənin nümunələrindən geniş istifadə etməklə, inkişafa ehtiyacı olan tərəflər müəyyənləşdirilir.

Təkmilləşdirmə üçün seçilən sahələr müəyyənləşdirməli və onlara necə üstünlük verilməsi və necə müraciət edilməsi göstərilməlidir.

**Bölmə 8: Məktəb sənədlərinin təşkil qaydaları (Şəkil 2.14)**

- Hesabatda məktəbin bütün proqram və təlimlərin yerinə yetirilməsi, ümumi fəaliyyəti, şagird nailiyyətlərini təsdiq edən imtahanlar haqqında və o cümlədən, məktəbin digər məktəblərlə birgə fəaliyyəti, təsdiq edilən sənədlərin təşkili və yerində olması qeyd olunur;




**Şəkil 2.14. Məktəb sənədlərinin düzgün təşkili**

- Hesabatda proqram spesifikasiyasını təqdim edəcək yeni təlim materiallarının tədrisin keyfiyyətini təmin edə biləcək tərəfləri (dərsliklər və həftələr üzrə mövzular) geniş şərh edilir;
- Yaş həddi (10 illik fasilələrlə, yəni 25-34, 35-44, 55-65 və s.), cinsiyyət balansı, etnik mənsubiyyət və əlillik dərəcəsi göstərilməklə kadrlar profili müəyyən edilir.

Qeyd olunan bütün özünütəhlil prosesinin nəticələri üzrə periodik hesabatın hazırlanmasında fəaliyyətlər iş icrası, vaxt məhdudiyyəti və müvafiq şəxslər tərəfindən yerinə yetirilməli və günlər, həftələr, aylar, yarım illik və illik vaxt çərçivəsində həyata keçirilməlidir. İşin həcmi və çətinlik dərəcəsinə görə hesabatın hazırlanmasına inzibati idarəedənlər, müəllimlər, şagirdlər və işçi heyət qoşulur və məktəbin sistemli və şəffaf qiymətləndirilməsi təşkil edilir.

## Tələbələr üçün fəaliyyətlər

**1. Kollektiv iş.** Özünütəhlil üzrə aparılan işlərin ümumiləşdirici suallarını tərtib edin:
İdarəetmənin daxili qiymətləndirilməsini əhatə edən sahələrə aid suallar tərtib edin və inkişaf planı hazırlayın;
Təlimin və tədrisin daxili qiymətləndirilməsini əhatə edən suallar və inkişaf planını hazırlayın.

**2. Qrup işi.** 4 qrupa bölünün, hesabat hazırlamaq üçün məlumat mənbələri seçin və hesabat yazın:

Qrup 1. Məktəb məlumatları və kontekstinin hesabatı;

Qrup 2. Şagird fəaliyyəti haqqında hesabat;

Qrup 3. Təlim və tədrisin keyfiyyəti;

Qrup 4. İnkişafa ehtiyac duyan tərəflər.




Xülasə → Giriş → Əsas hissə → Nəticə

**3. Karusel oyunu.** Verilmiş sahələr qrup üzvləri tərəfindən yazılır və bir-birinə ötürülərək doldurulur.
Verilmiş sahələrə dair daxili qiymətləndirmə üzrə dövri hesabat nümunəsi hazırlayın.

| | Güclü tərəflər | Zəif tərəflər | İnkişafa ehtiyac duyan tərəflər |
|---|---|---|---|
| 1. Məktəb profili; | | | |
| 2. Tədris proqramı; | | | |
| 3. Davamiyyət; | | | |
| 4. Davranış; | | | |

**4. Fərdi iş.** Tələbələr hansı sahələrin gündəlik, həftəlik, aylıq və illik hesabata daxil olunmasını qeyd edir və hazırlamaq üçün daxili qiymətləndirmə mənbələri seçirlər.

| Sahələr | Cari | Həftəlik | Aylıq | Yarım illik | İllik | Yekun |
|---|---|---|---|---|---|---|
| Məktəb konteksti | | | | | | |
| Şagirdlərin fəaliyyəti | | | | | | |
| Təlim və tədris | | | | | | |
| Ümumi sahələr | | | | | | |
| Maraqlı tərəflərlə iş | | | | | | |
| Sənədləşmənin dəstəklənməsi | | | | | | |
| İnkişafa ehtiyac duyulan sahələr | | | | | | |

### 5. Situasiyaların təhlili (Case Study). Oxu müsabiqəsinin hesabatının hazırlanması

Müəllim şagirdlərin oxu müsabiqəsində əldə etdikləri nəticələri nəzərdən keçirir.

Şagirdlərin bəziləri yüksək, bəziləri orta, bəziləri isə zəif nəticələr əldə ediblər. Müəllim şagirdlərin nailiyyətləri üzrə qısa hesabat hazırlamalı və qərara almalıdır ki, oxu üzrə qiymətləndiriləcək sahə və qazanılacaq səviyyələr müəyyən edilsin. Hesabatda şagirdlərin qiymətləndirilmə səviyyələrinin hansı səviyyələrdə olması izah edilməlidir. Hesabatın hazırlanmasında müəllimə təkliflər hazırlayın.



## Qiymətləndirmə

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

**Müəssisənin özünütəhlil nəticələri üzrə dövri hesabat hazırlayır**

**1. Verilmiş suallar ətrafında müzakirə təşkil edin:**

- Təhsildə dövri hesabat anlayışına hansı fikirlər daxildir?
- Dövri hesabatın hazırlanması məktəbin idarəetməsi və tədris keyfiyyətinə necə təsir edir?
- Dövri hesabatın növləri və quruluşu necə planlaşdırılır?
- Hesabatın hazırlanması məktəbdə işçi heyət və müəllimlərdə hansı səriştələri formalaşdırır?
- Dövri hesabat qiymətləndirmədə hansı rolu oynayır?
- Daxili qiymətləndirmə bölmələri hesabatın hazırlanmasında nə dərəcədə əhəmiyyətlidir?

**2. Verilmiş tezislərin səhv (S) və ya düzgün (D) olduğunu qeyd edin:**

| | | Düzgün | Səhv |
|---|---|---|---|
| 1. | Dövri hesabat dərs ilinin sonunda təqdim olunur. | | |
| 2. | Hesabat hazırlanarkən fakt və dəlillər göstərilməlidir. | | |
| 3. | Şagirdlərin ali təhsil müəssisələrinə daxil olunması ilə bağlı məlumatlar şagird fəaliyyətini əks etdirir. | | |
| 4. | Məktəbdə şagirdlərə rəylərin verilməsi maraqlı tərəflərin fəaliyyətinə daxildir. | | |
| 5. | Hesabatın xülasəsi məruzənin sonunda təqdim olunur. | | |
| 6. | Təkmilləşməyə ehtiyacı olan tərəflər ən yaxşı təcrübə nümunələri əsasında müəyyənləşdirilir. | | |
| 7. | Tədris fəaliyyətləri üzrə qiymətləndirmənin hesabatda qeyd olunmasına ehtiyac yoxdur. | | |
| 8. | Məktəb sənədlərində tədris proqramının məzmununun dəstəklənməsi vacibdir. | | |

**3. Hesabatın hazırlanması haqqında boş qalmış yerlərə uyğun sözlər əlavə edin:**

1. Məsuliyyətli ekspert ........, əsasən, hesabat yazmağı düşünməlidir.
2. Girişin birinci sətrində hesabatın ........ göstərilməlidir.
3. Məruzələrin hər biri solda aydın göstərilən ........ paraqraflara bölünməlidir.
4. Məruzənin sonunda növbəti fəaliyyət barədə ........ soruşulur.

a. alt başlıq;
b. məlumat;
c. tövsiyə;
d. məqsəd.

## CAVABLAR

| Təlim nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | 1. Professional təlim icmalarının yaradılması |
| | 2. Balanslaşdırılmış fərqli məlumatlar |
| | 3. Şəbəkələrin yaradılması |
| | 4. Etibar və ortaq hesabatlılıq |
| | 5. Məktəblərdə innovasiyaların dəstəklənməsi |
| Sual 3 | C |
| Sual 4 | B |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | 1. Qiymətləndirmə nəticələrinin araşdırılması |
| | 2. Mənbələrdən istifadə |
| | 3. Kurikulumun tətbiqi |
| | 4. Nəticələrin monitorinqi |
| | 5. Aralıq nəticələrin izlənilməsi |
| Sual 3 | C |
| Sual 4 | B |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | 1. Məktəb rəhbərliyinin rolu |
| | 2. Təhsil orqanlarının rolu |
| | 3. Müfəttişliklərin rolu |
| | 4. Müəllimlərin rolu |

| Təlim nəticəsi 1 üzrə düzgün cavablar | |
|---|---|
| Qiymətləndirmə meyarı 4 | |
| Sual 2 | 1 – Səhv |
| | 2 – Doğru |
| | 3 – Səhv |
| | 4 – Doğru |
| | 5 – Səhv |
| | 6 – Doğru |
| | 7 – Doğru |
| | 8 – Səhv |
| Sual 3 | C |
| Sual 4 | A |
| Qiymətləndirmə meyarı 5 | |
| Sual 2 | A. Düzgün |
| | B. Səhv |
| Sual 3 | 1 – e |
| | 2 – c |
| | 3 – a |
| | 4 – g |
| | 5 – b |
| | 6 – d |
| | 7 – f |

| **Təlim nəticəsi 2 üzrə düzgün cavablar** | |
|---|---|
| Qiymətləndirmə meyarı 1 | |
| Sual 2 | B |
| Sual 3 | C |
| Sual 4 | B |
| Sual 5 | A |
| Qiymətləndirmə meyarı 2 | |
| Sual 2 | 1 – b |
| | 2 – d |
| | 3 – e |
| | 4 – a |
| | 5 – f |
| | 6 – c |
| Sual 3 | A |
| Sual 4 | C |
| Sual 5 | B |
| Qiymətləndirmə meyarı 3 | |
| Sual 2 | 1 – Səhv |
| | 2 – Düzgün |
| | 3 – Düzgün |
| | 4 – Səhv |
| | 5 – Səhv |
| | 6 – Düzgün |
| | 7 – Səhv |
| | 8 – Düzgün |
| Sual 3 | 1 – b |
| | 2 – d |
| | 3 – a |
| | 4 – c |

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Alberta Education. “The Alberta Student Assessment Study.” Available from: https://open.alberta.ca/publications/9780778581727#summary (2009)
2. BÎRZEA, C. et al. 2005. Tool for Quality Assurance of Education for Democratic Citizenship in Schools, United Nations Educational, Scientific and Cultural Organizations 7, place de Fontenoy, 75352 Paris 07 SP, France.
3. CA. Laudon, K. and Laudon, J. P. (2002) Management information systems: managing the digital firm, 7th edition, Prentice-Hall, Englewood Cliffs, NJ.
4. Chignecto-Central Regional School Board. Policy № ES-G-04, Assessment / Evaluation / Reporting of Student Learning Available from: https://www.ccrce.ca/ (2012)
5. Chignecto-Central Regional School Board. Policy №ES-G-04, Assessment / Evaluation / Reporting of Student Learning Available from: https://www.ccrce.ca/ (2012)
6. Frank Land, 1999, Re-inventing Management Information Systems: MIS –beginnings, London School of Economics and Political Science, London.
7. Gorry, G. A. and Scott Morton, M. S. (1971) A Framework for Management Information Systems, Sloan Management Review, 13, 55-70.
8. Herman, J. and Gribbons, B. (2001) Lessons learned in using data to support school inquiry and continuous improvement: Final report to the Stuart Foundation. Center for the Study of Evaluation, Los Angeles,
9. Monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti - T.Hacıyeva 2011
10. Principles for Fair Student Assessment Practices for Education in Canada. Edmonton, Alberta: Joint Advisory Committee. / (2011)
11. Education Management Information Systems (EMIS) – UNECKO
12. Effective Teacher Development - Creating Effective Teaching and Learning Environments: First Results from TALIS – ISBN 978-92-64-05605-3
13. Evaluation and Assessment Frameworks for improving school outcomes – OECD 2015
14. Ramiz Məmmədzadə, Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi 2010-170 s.
15. Creating Effective Teaching and Learning Environments: First Results from TALIS – ISBN 978-92-64-05605-3 –OECD 2009
16. School Self-evaluation Manual-Education Bureau- July 2018
17. http://www.bced.gov.bc.ca/classroom_assessment
18. http://www.oecd.org/education/school/oecdreviewonevaluationandassessmentframeworksforimprovingschooloutcomes.htm